AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

# ELMİ ƏSƏRLƏR

## RƏSSAM KAMİL ƏLİYEVƏ HƏSR EDİLMİŞ XÜSUSİ NÖMRƏ

Naxçıvan, “Tusi” – 2022, Cild 18

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN ELMİ ƏSƏRLƏRİ**
**SCIENTIFIC WORKS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE**
**НАУЧНЫЕ ТРУДЫ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА**

2005-ci ildə təsis edilmişdir • Established in 2005 • Основан в 2005 году

Jurnal AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin rəhbərliyi ilə nəşr olunur
The journal is published under auspices of the Presidium of ANAS Nakhchivan Branch Office
Журнал издается под руководством Президиума Нахчыванского Отделения НАНА

**REDAKSİYA HEYƏTİ**

Baş redaktor
**İ.M.Hacıyev**

İ.Ə.Həbibbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, Ə.B.Ərcilasun, M.Z.Nağısoylu, M.K.İmanov, Ə.Ə.Salamzadə, C.Ə.Qiyasi, İ.E.Atnur, F.Y.Səfərli (*baş redaktorun müavini*), Ə.X.Nuriyev, Ə.A.Quliyev (*baş redaktorun müavini*), V.B.Baxşəliyev (*məsul katib*), Z.Ə.Şahverdiyev, Ş.T.Bünyadova, N.H.Əhmədov, F.Y.Xəlilov, R.Z.Rəhimli

**EDITORIAL BOARD**

Chief editor
**I.M.Hajiyev**

I.A.Habibbeyli, Y.M.Mahmudov, N.M.Valikhanli, A.B.Argilasun, M.Z.Nagisoylu, M.K.Imanov, A.A.Salamzadeh, G.A.Giyasi, I.E.Atnur, F.Y.Safarli (*assistant editor*), A.Kh.Nuriyev, A.A.Quliyev (*assistant editor*), V.B.Bakhshaliyev (*executive secretary*), Z.A.Shahverdiyev, Sh.T.Bunyadova, N.H.Ahmadov, F.Y.Khalilov, R.Z.Rahimli

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ**

Главный редактор
**И.М.Гаджиев**

И.А.Габиббейли, Я.М.Махмудов, Н.М.Велиханлы, А.Б.Арджиласун, М.З.Нагисойлу, М.К.Иманов, Э.А.Саламзаде, Дж.А.Гияси, И.Э.Атнур, Ф.Я.Сафарли (*зам. главного редактора*), А.Х.Нуриев, А.А.Гулиев (*зам. главного редактора*), В.Б.Бахшалиев (*ответственный секретарь*), З.А.Шахвердиев, Ш.Т.Бунядова, Н.Х.Ахмедов, Ф.Ю.Халилов, Р.З.Рагимли

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© "Tusi" nəşriyyatı, 2022

# KAMİL ƏLİYEVİN 100 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## S Ə R Ə N C A M I

2021-ci ildə Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Müseyib oğlu Əliyevin anadan olmasının 100 illiyi tamam olur.

Kamil Əliyev bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmişdir. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilmişdir. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalçaçılığı və dekorativ-tətbiqi sənəti ənənələrinin qorunub saxlanılmasında və yeni inkişaf mərhələsinə yüksəldilməsində görkəmli xalçaçı-rəssam Kamil Əliyevin təqdirəlayiq xidmətlərini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 oktyabr 2021-ci il**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## S Ə R Ə N C A M I

### “Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Prezidentinin “Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2021-ci il 12 oktyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Kamil Əliyevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**VASİF TALIBOV**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

**Naxçıvan şəhəri, 16 oktyabr 2021-ci il**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi**
**Sədrinin 2021-ci il 16 oktyabr tarixli**
**Sərəncamı ilə təsdiq edilmişdir**

**Kamil Əliyevin 100 illik yubileyinin**
**Naxçıvan Muxtar Respublikasında**
**keçirilməsi ilə əlaqədar**

## T Ə D B İ R L Ə R   P L A N I

| S. № | Tədbirin adı | İcraya məsul təşkilat | İcra müddəti |
|---|---|---|---|
| 1. | “ Kamil Əliyev-100” mövzusunda elmi konfransın keçirilməsi | AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu | 22 oktyabr 2021-ci il |
| 2. | Bəhruz Kəngərli adına Sərgi Salonunda Xalq rəssamı Kamil Əliyevin yaradıcılığına həsr olunmuş sərginin açılması | Rəssamlar Birliyi | Noyabr 2021-ci il |
| 3. | Naxçıvan Dövlət Xalça Muzeyində Kamil Əliyevin yaradıcılığına həsr olunmuş açıq dərsin keçirilməsi | Mədəniyyət Nazirliyi, ali təhsil müəssisələri | 2021-ci il |
| 4. | AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalının bir nömrəsinin Kamil Əliyevin həyat və yaradıcılığına həsr olunması | Bilik Fondu, AMEA Naxçıvan Bölməsi | Dekabr 2021-ci il |
| 5. | Muxtar respublikanın ali təhsil müəssisələrində professor Kamil Əliyevin yaradıcılığına aid dərslərin tədrisi | Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu | 2021-ci il |
| 6. | Kamil Əliyevin yaradıcılığında milli naxış elementlərinin xalça toxunuşunda tətbiqi | İqtisadiyyat Nazirliyi | 2021-ci il |
| 7. | Kamil Əliyevin həyat və yaradıcılığına həsr olunmuş tematik verilişlərin və qəzet materiallarının hazırlanması, keçirilən tədbirlərin işıqlandırılması | Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələri | Mütəmadi |

**İSMAYIL HACIYEV**

# MƏDƏNİYYƏT TARİXİMİZDƏ MÜHÜM ROL OYNAYAN GÖRKƏMLİ XALÇAÇI-RƏSSAM

*Məqalədə Xalq rəssamı, professor Kamil Əliyevin yaradıcılığına diqqət yetirilmiş, onun həm təşkilati fəaliyyəti, həm də xalçaçı-rəssam kimi yaradıcılığı təhlil edilmiş, mədəniyyət tariximizdəki xidmətləri önə çəkilmişdir. Xüsusilə, onun yaratdığı portret-xalçalar rəssama böyük şöhrət qazandırmış, başqa rəssamların yaradıcılığında portret-xalçalar bu qədər geniş yer tutmamışdır. Kamil Əliyev öz sənəti ilə portret-xalça sahəsində ən yüksək zirvəyə yüksəlmiş, bununla da mədəniyyət tariximizdə özünəməxsus yer tutmuş və mövqe qazanmışdır.*

**Açar sözlər:** *Kamil Əliyev, mədəniyyət tarixi, sənət, portret-xalça, yubiley, rəssam.*

Azərbaycanın mədəniyyət tarixinə, sənət dünyasına öz adlarını yaradıcılıqları ilə daxil etmiş onlarla sənət adamları, rəssamlarla xalqımız fəxr edir. Çünki onların yaratdıqları sənət əsərləri xalqımızı dünyada tanıdır. Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev deyirdi ki, **“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”** [2, s. 31].

Bəhruz Kəngərli, Mikayıl Abdullayev, Tahir Salahov, Əzim Əzimzadə, Lətif Kərimov, Maral Rəhmanzadə, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və onlarla başqa rəssamlarımız sənət əsərləri ilə xalqımızın mədəni inkişaf səviyyəsini tanıtmışlar. Belə rəssamlar içərisində Xalq rəssamı, professor Kamil Əliyev xalça rəssamlığı sahəsində öz sözünü sənət əsərləri ilə demiş görkəmli xalçaçı-rəssam kimi tanınmışdır. Onun yaratdığı portret-xalçaları mədəniyyətimizi, sənət dünyamızı zənginləşdirmiş, özü isə bu sahənin kamil, professional və novator bilicisinə yüksəlmişdir.

Mədəniyyət tariximizdə böyük xidmətlərini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında 16 oktyabr 2021-ci il tarixdə Sərəncam imzalamışdır. Həmin Sərəncama uyğun olaraq “Kamil Əliyev-100” mövzusunda elmi konfrans keçirilmiş, Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda sərgi təşkil olunmuş, açıq dərs aparılmış, muxtar respublikanın ali təhsil müəssisələrində Kamil Əliyevin yaradıcılığına aid dərs deyilmiş, AMEA Naxçıvan Bölməsinin “Elmi əsərləri” jurnalının bir nömrəsi Kamil Əliyevin həyat və yaradıcılığına həsr olunmuş və b. tədbirlər həyata keçirilmişdir.

Kamil Əliyev rəssamlıq təhsilini Bakı Rəssamlıq Məktəbində almışdır. Xoşbəxtlikdən Onun müəllimi məşhur rəssam Əzim Əzimzadə olmuşdur. Təhsil alaala məşhur xalçaşünas Lətif Kərimovun təklifi ilə Azərxalçaya işə qəbul edilmişdir.

Ona tapşırılan işlərin öhdəsindən layiqincə gələn Kamil Əliyevin təşkilati fəaliyyəti də onun bacarıqlı işçi, təşkilat rəhbəri olduğunu göstərmişdir. O, əvvəlcə Mədəniyyət Nazirliyinin Bədii Fonduna, sonra Yerli Sənaye Nazirliyinin İstehsalat İdarəsinə rəhbərlik etmişdir. Təşkilati fəaliyyətini yaradıcı fəaliyyətlə düzgün əlaqələndirən Kamil Əliyev bacarıqlı təşkilatçı kimi özünü təsdiq etmişdir. Bu keyfiyyətlər onu Zərgərlik zavoduna gətirib çıxarmışdır. Onun şəxsi dizaynları əsasında çoxsaylı zinət əşyaları hazırlanmış, müxtəlif məişət əşyaları və bəzək nümunələri yaradılmışdır.

Kamil Əliyev yaradıcılığını elmi biliklərlə əlaqələndirir, professional rəssam kimi xalça işinə xüsusi əhəmiyyət verirdi. O, həm tarixi ənənələrə əsaslanır, həm də bu sahədə yenilikçi xalçaşünas rəssam kimi çalışırdı. Təsadüfi deyildir ki, onun bu sahədəki bilik və bacarığı onu "Azərxalça" Elmi Yaradıcılıq Birliyinə gətirib çıxardı. Ümummilli lider Heydər Əliyev Kamil Əliyevi bu müəssisəyə baş direktor təyin etdi. Kamil Əliyev burada da özünü doğrultdu, müəssisəni gerilikdən xilas etdi, məhsulları dünya xalça bazarına çıxardı. Xalça istehsalında həm kəmiyyətdə, həm də keyfiyyətdə ciddi dönüş yaradıldı. Onun rəhbərliyi ilə yaradılan xalçalar müxtəlif rəng çalarları, naxışları, süjet və kompozisiya quruluşu ilə seçilirdi [7, s. 84].

Kamil Əliyevin yaradıcılığında süjetli və portret xalçalar üstünlük təşkil edirdi. Bununla yanaşı, onun yaradıcılığında ornamental xalçalar da geniş yer tutmuşdur. Kamil Əliyevin özü yaratdığı xalçalara yüksək dəyər verir, hətta onları "müqəddəsləşdirirdi". Ona görə də, demişdir ki, "xalçanı ya divardan asarlar, ya da üstündə namaz qılıb Allaha dua edərlər, gərək bu müqəddəsliyi qoruyub gözləyəsən".

Professor Kamil Əliyevi şöhrətləndirən, onu görkəmli Xalq rəssamı kimi tanıdan yaratdığı portret-xalçalardır. Bunu yaratmaq rəssam-xalçaçıdan çox böyük məharət, bilik və bacarıq tələb edir. O, bəllidir ki, Kamil Əliyev rəngləri təbiətdən seçirdi. Bir sıra rənglər onun sevimlisi idi, portret-xalçalarda bu rənglərdən – qızılı, innabı, sarı, mavi, bənövşəyi, göy, açıq qəhvəyi rənglərdən istifadə etmişdir. İlmələri özü seçirdi ki, portret-xalçada həm dəqiqliyi, həm də sıxlığı əldə etsin. Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyevin portreti olan portret-xalçadakı (1999) sıxlıq Şeyx Səfi xalçasından sonra ikinci yerdə dayanır. Ulu öndər öz portreti toxunmuş xalçaya baxarkən demişdir: **"Kamil, sənin xalçaların dil açıb danışır, insanı söhbətə çağırır"**. Onun yaratdığı bütün portret-xalçalar yüksək sənət əsəridir. Xalça-portretlər təkrarsızdır. Xalçalardakı bu təsvirlər obrazın mahiyyətini, onun daxili aləmini və əzəmətini böyük məharətlə açıqlaya bilir. Təkcə portretin üzərində kölgə elementləri, minlərcə rəng işlədilir ki, bu da sənətkardan yüksək professionallıq tələb edir.

Kamil Əliyev yaradıcılığında portret xalçaların böyük bir silsiləsini yaratmışdır. O, ölkəmizin onlarla şair, dramaturq, ictimai-siyasi xadiminə portret-xalçalar həsr etmişdir: Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi,

Mirzə Fətli Axundov, Ümummili lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, akademik Zərifə Əliyeva, görkəmli elm, sənət adamlarının, görkəmli siyasi və dövlət xadimlərinin portretlərini xalça üzərində ustalıqla yaratmışdır.

Beləliklə, aydın olur ki, onun yaratdığı xalçalar bənzərsiz naxışları, rəng çalarları, süjet və kompozisiyası ilə fərqlənir. Onun yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutur.

Xalq rəssamı, Azərbaycanın görkəmli xalçaçı-rəssamı Kamil Əliyev Azərbaycanın xalçaçılıq sənətinə yeni nəfəs, yeni ruh gətirib. O, xalça üzərində ilk akademik üslubda realist portret toxuyan usta kimi yaddaşlarda qalıb.

Ulu öndər Heydər Əliyev Xalq rəssamı Kamil Əliyevin yaradıcılığına yüksək qiymət verərək demişdir ki, onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerini tutacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Kamil Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 12 oktyabr 2021-ci il tarixli Sərəncamı. "Azərbaycan" qəz., 2021, 13 oktyabr.
2. Əhmədzadə P. Heydər Əliyevin kəlamları. Bakı: Qanun, 2017, 72 s.
3. İbrahimov N. Kamil Əliyevin xalça sənəti. Bakı: Azərnəşr, 2021, 266 s.
4. Kərimov L. Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr. Bakı: Elm, 1983, 130 s.
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 16 oktyabr 2021-ci il tarixli Sərəncamı. "Şərq qapısı" qəz., 2021, 17 oktyabr.
6. Muradov V. Azərbaycan xalça sənəti: tarixi, məktəbləri, texnologiyası. Bakı: Elm, 2013, 132 s.
7. Şükürova E. Azərbaycan xalça sənətinin Kamili. Bakı: Altunkitab, 2006, 125 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: haciyev.i1951@gmail.com***

**Ismayil Hajiyev**

## A PROMINENT CARPET-MAKER ARTIST WHO PLAYS AN ESSENTIAL ROLE IN THE HISTORY OF OUR CULTURE

The paper considers the work of the People's Artist, Professor Kamil Aliyev, analyzes his organizational activities and creativity as a carpet-maker artist, highlights his merits in the history of our culture. In particular, the portrait carpets he created brought the artist great fame; this genre did not occupy such a prominent place in the work of other artists. In his art, Kamil Aliyev reached the highest peak in the portrait-carpet genre, thus occupying a special place in the history of our culture.

**Keywords:** *Kamil Aliyev, cultural history, art, portrait carpet, anniversary, artist.*

**Исмаил Гаджиев**

## ВИДНЫЙ ХУДОЖНИК-КОВРОДЕЛ, ИГРАЮЩИЙ ВАЖНУЮ РОЛЬ В ИСТОРИИ НАШЕЙ КУЛЬТУРЫ

В статье рассмотрено творчество народного художника, профессора Кямиля Алиева, проанализирована его организационная деятельность и творчество как художника-ковродела, подчеркнуты его заслуги в истории нашей культуры. В особенности, созданные им ковры-портреты принесли художнику большую известность, в творчестве других художников этот жанр не занимал настолько большого места. Своим искусством Кямиль Алиев достиг наивысшей вершины в жанре ковра-портрета, заняв тем самым особое место в истории нашей культуры.

**Ключевые слова:** *Кямиль Алиев, история культуры, искусство, ковер-портрет, юбилей, художник.*

ELBRUS İSAYEV

# XALQ RƏSSAMI, PROFESSOR KAMİL ƏLİYEVİN TƏŞKİLATİ FƏALİYYƏTİ

*Azərbaycanın xalçaçı-rəssamı olaraq tarixə iz salmış Kamil Əliyev şaxəli və orijinal üslubu ilə milli mədəniyyətimizə öz töhfələrini vermişdir. Azərbaycan Respublikasının Prezidenti 12 oktyabr 2021-ci il tarixdə Kamil Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Yubileyi qeyd edilən sənətkar bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmişdir. Xüsusi istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Sənətkarın qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindən hesab olunmuş və onun əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında nümayiş etdirilmişdir.*

**Açar sözlər:** *təsviri incəsənət, xalça, xalça naxışı, xalça sənəti, xalça kompozisiyası, xalça ornamenti, xalçaçılıq ənənəsi, Azərbaycan xalçaçılığı, Kamil Əliyevin xalça sənəti, Kamil Əliyevin 100 illik yubileyi, xalçaçılığın şöhrət tacı, portret-xalı sənətkarı, xalçalarda yaşanan ömür, xalça sənətinin canlı klassiki.*

1921-ci ildə qədim oğuz yurdu İrəvan şəhərində anadan olan sənətkar uşaq yaşlarından bu sənətə meyil göstərir və bunun nəticəsi olaraq, Bakı Rəssamlıq Məktəbində tanınmış rəssam Əzim Əzimzadədən dərs alır. Həyat və sənət yolu müxtəlif məqamlardan keçən və bu illər yaradıcılıq dünyasına ştrixlər əlavə edir. Belə ki, Kamil Əliyev Böyük Vətən müharibəsində iştirak etmiş, Vətənə müxtəlif orden və medallarla qəhrəman kimi dönmüşdür.

Gözəl yaradıcılıq xüsusiyyətləri olan Kamil Əliyev Asəf Zeynallı adına Bakı Rəssamlıq məktəbinə daxil olan kimi, hələ 17 yaşında olanda "Azərxalça-ittifaq" müəssisəsinə iş üçün müraciət etmiş, o zamanlar hələ çox gənc olan dahi xalçaçı-rəssam, xalçaşünas alim, professor Lətif Kərimovun təklifi ilə işə qəbul edilmişdi. Bir müddət sonra hərbi xidmətə çağırılan Kamil Əliyev müharibənin odlu-alovlu yollarını keçərək Berlinədək döyüş yolu keçir. Yalnız 1946-cı ilin sonunda gənc zabit Kamil Əliyev ordu sıralarından tərxis edilərək Azərbaycana əmək fəaliyyətini öz doğma müəssisəsində davam etdirir.

Gənc və perspektivli rəssam Kamil Əliyev həm də bacarıqlı təşkilatçı idi. Fəaliyyəti dövründə bacarıqlı mütəxəssis kimi onu müxtəlif vəzifələrə təyin etmişlər. Kamil Əliyev bir müddət Mədəniyyət Nazirliyinin tabeçiliyində Bədii

Fonda rəhbərlik etmişdi. Onun işgüzarlığı diqqəti cəlb etmiş və Kamil Əliyevi zərgərlik zavoduna direktor təyin etmişlər. Uzun illər bu zavoda rəhbərlik edən Kamil Əliyevin təkcə bacarıqlı təşkilatçı olması deyil, həm də məhsuldar yaradıcı fəaliyyəti onun qarşısında yeni cığırlar açırdı. Çox sayda zinət əşyaları məhz onun şəxsi dizaynları ilə həyata vəsiqə alırdı. Bir müddətdən sonra Kamil Əliyevi Azərbaycan Respublikası Yerli Sənaye Nazirliyinin İstehsalat İdarəsinə rəhbər təyin edirlər və uzun illər bu vəzifədə çalışır. Nazirlikdəki fəaliyyəti dövründə də o, yaradıcı təklifləri ilə diqqəti cəlb edir və dəfələrlə müxtəlif bəzək və məişət əşyalarının dizaynını verirdi. Bütün işlərində onun dəsti-xətti, rəng xüsusiyyətləri və milliliyi öndə dururdu. Lakin Kamil Əliyev bütün karyerası boyunca əsas sevdiyi sənətini unutmurdu [13].

Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Əliyev incəsənətimizi yüksəklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir. Azərbaycan Respublikasının Prezidenti 12 oktyabr 2021-ci il tarixdə "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır [1]. Azərbaycan xalçaçılıq sənətinin klassiki, rənglər və ilmələr sehrkarı Kamil Əliyev şaxəli və orijinal üslubu ilə milli mədəniyyətimizə öz töhfələrini vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamı imzalamışdır.

Yubileyi keçirilən sənətkarın Azərbaycan rəssamlıq sənətində, xüsusilə də xalçaçılıqda məxsusi yeri vardır. O, bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xalq rəssamı haqqında bəhs edərkən deyirdi: "Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqdır".

Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında nümayiş etdirilmişdir. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə mühüm töhfələr vermişdir.

Respublikamız müstəqillik əldə etdikdən sonra da Kamil Əliyevin bacarıqlı mütəxəssis olduğu unudulmur. 1990-cı illərdə Qarabağın işğalı zamanı həmin ərazilərdə fəaliyyətdə olan xalça müəssisələri ermənilər tərəfindən tamamilə darmadağın edilmişdi. Ümumilikdə isə "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyi iflic vəziyyətinə düşməkdə idi. 1970-1985-ci illərdə illik istehsal həcmi 38-42 min kvadrat metr olan "Azərxalça" Birliyində cəmi 5-6 min kvadrat metr xalça və xalça məmulatları istehsal olunurdu. 1995-ci ilin iyun ayında Ulu Öndər Heydər Əliyev tərəfindən bu birliyə professor Kamil Əliyev baş direktor vəzifəsinə təyin edildi. Bu, birliyin tarixində yeni mərhələnin başlanğıcı idi. Bir sıra insanlar 70-dən artıq yaşı olan Kamil Əliyevin belə ağır işin altına girməsindən ehtiyat edir və hər hansı bir dönüşün əldə ediləcəyinə şübhə ilə yanaşırdılar. Lakin enerjisi tükənməyən, özünə və ətrafındakılara olduqca tələbkar olan Kamil Əliyevin rəhbərliyi altında qısa müddət ərzində müəssisədə geriliyin və davam edən böhranın qarşısı alınır, müəssisə yeni-yeni nailiyyətlərə imza atır. Qısa müddətdə dünya xalça bazarında tanınmış ticarət markasına çevrilən "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyi öz məhsullarını xalçaçılığın milli xüsusiyyətlərini saxlamaqla xalça bazarının kommersiya tələblərinə də uyğunlaşdırırdı. Bu isə hazır məhsulun istehsal və satış tempini artırmağa şərait yaradırdı. Nəticə göz qabağında idi. Cəmi 3 il ərzində müəssisədə ciddi dönüş yaradıldı. İstehsal həcmi orta hesabla 4 dəfəyə yaxın artırıldı. "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyi öz tarixində ilk dəfə Kamil Əliyevin rəhbərliyi dövründə beynəlxalq xalça bazarına tam müstəqil olaraq çıxa bilmişdi [13].

Müstəqillik dövrünün yeni tələbləri ilə ölkədə aparılan islahatların fonunda müəssisənin inkişafı özünü hərtərəfli şəkildə büruzə verirdi. Xüsusilə 1995-2000-ci illər ərzində dünyanın işgüzar dairələri, əsasən də xalçasevərlər tərəfindən müasir dünya əl xalçaları istehsalçıları sırasında xalq rəssamı, professor Kamil Əliyevin rəhbərlik etdiyi "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyinin əməyi, yorulmaz və gərgin fəaliyyəti xüsusi qiymətləndirilmişdi. Birliyin fəaliyyətindəki milli-ənənəvi və texnoloji proseslərə əsaslanan nailiyyətləri, o cümlədən istehsal etdiyi məhsulların dünya bazarında daha geniş miqyasda və ləyaqətlə tanıdılması Dünya Ticarət Liderləri Klubu tərəfindən diqqətsiz qalmamış və müəssisə 1998-ci ildə öz fəaliyyəti tarixində ilk dəfə olaraq ən nüfuzlu iki dünya mükafatı – İsveçrədə "Ən yaxşı ticarət markasına görə" və Amerikada "Ən yüksək keyfiyyətə görə" mükafatları və "Qızıl Nişanı" ilə təltif olunmuşdu. Bütün bu nailiyyətlər Xalq rəssamı, professor Kamil Əliyevin bacarıqlı təşkilatçılığı və düzgün rəhbərliyi altında əldə edilmişdi [15].

Bəzən siyasi və işgüzar əməkdaşlığın məhsuldar başlanğıcına yol açan ilk körpülər sənət adamlarının emalatxanalarında planlanır. Onların təfəkkürünün

məhsulu olmaqla, mənsub olduğu xalqının mədəniyyətini təmsil edən əsərlər belə dahi insanların qələmindən, fırçalarından çıxaraq və ya ilmələrlə zamanın yaddaşına həkk olunmaqla mədəniyyət tariximizi formalaşdırır. Belə əsərləri ilə buz qəlbləri əritməyə qadir olan dahi sənətkarlardan biri də məhz Kamil Əliyev idi. O, yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yüksəklərə qaldıran, xalçaçılıq sənətinin incəliklərini qoruyub-saxlayan, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışlar, müxtəlif rəng çalarları, kompozisiya və süjetlər yaradan görkəmli sənətkar idi. Kamil Əliyev fəaliyyəti dövründə yalnız xalı və parça kimi toxuma məmulatlarında deyil, qeyd etdiyim kimi, həm də qızıl, gümüş və digər qiymətli metal materiallarında da özünün mahir bədii tərtibatçı, ornamental rəssam kimi məharətini nümayiş etdirib. 1950-ci illərdən etibarən Kamil Əliyevin yaradıcılığında süjetli və portret xalçalar aparıcı mövqe tutub. Dərin rəng duyumuna malik sənətkar həmin illərdə bir-birinin ardınca xalça naxışlarından istifadə edərək, yüksək professionallıqla yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları və sirli-sehrli ilmələr vasitəsilə canlandırıb. O, Azərbaycan və dünya klassiklərinin, şair və mütəfəkkirlərinin, görkəmli dövlət və ictimai xadimlərinin portretlərini yaradıb.

Azərbaycan mədəniyyətini təmsil edən ayrı-ayrı incəsənət nümunələrimiz kimi Kamil Əliyev məktəbinin məhsulu olan, insanların ruhunu oxşayan və özünəməxsus xüsusiyyətləri ilə fərqlənən əsrarəngiz xalçaçılıq ənənələrinin və xalça əsərlərinin muxtar respublikada qorunmasına və inkişaf etdirilməsinə dövlət qayğısı göstərilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun başlatdığı yol – imzaladığı müvafiq sərəncamlar, həyata keçirdiyi tədbirlər və böyük qayğı ilə əhatə edib yaratdığı imkanlar bu sahədə xeyli müvəffəqiyyətlərin əldə olunması ilə nəticələnmişdir. Təsadüfi deyil ki, Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılaraq fəaliyyətə başlamış və muxtar respublikada xalçaçılıq ənənələrinin yaşadılması ilə bağlı tədbirlər ardıcıl xarakter daşımışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" bu tədbirlərin sistemli xarakter almasına şərait yaradır. Proqramın icrası nəticəsində xalçaçılıq ənənələrinin qorunması, xalça istehsalının və ixracının genişləndirilməsi, bu sahədə məşğulluğun artırılması, xalça sənətinin inkişafının təmin olunması kimi nəticələrə nail olunması nəzərdə tutulur.

Dövlət Proqramının icrası ilə bağlı Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət müəllimliyi ixtisasına bu il ilk dəfə salınan Naxçıvan xalçaçılıq məktəbi fənninin səmərəli təşkili, tələbələrin bu fənni mənimsəməsi və bu fənnə yaradıcı yanaşması üçün İncəsənət fakültəsində Xalçaçılıq dərnəyi təşkil olun-

muşdur. Dərnəyin əsas məqsədi tələbələrdə dekorativ tətbiqi sənətin aparıcı sahələrindən olan xalça və tikmə sənətinə sərbəst yaradıcı maraq oyatmaq, xalçaların, eləcə də bədii tikmələrin texnoloji və bədii cəhətlərinə, milli ornament və kompozisiyalarına özünəməxsus tərzdə, yaradıcı yanaşmalarını aşılamaq olmuşdur. Universitetin Texnologiya mərkəzində və İncəsənət fakültəsində xalçaçılıq kabinə və emalatxanaları yaradılmışdır.

Dərnəkdə xalça və tikmə nümunələrinin hazırlanması ilə bərabər tələbələrə Naxçıvan xalçaçılıq məktəbi ənənələrinə maraq aşılanmışdır. Tələbələr Naxçıvanın xovsuz xalçalarından olan vərni, şəddə, palaz, duz torbası nümunələrinə özünəməxsus yaradıcı xüsusiyyətləri ilə yanaşmışlar. Bununla bərabər, Naxçıvan xalçalarının ümumi kompozisiyasında yer tutan və ən çox gözə çarpan naxış elementləri: buta, göl, həyat ağacı və s. motivlər dekorativ üslubda işlənilmişdir.

Dərnəkdə Naxçıvan dekorativ bəzək sahələri içərisində özünəməxsusluğu ilə seçilən, tələbələr tərəfindən 20-yə yaxın bədii tikmə nümunələri işlənilmişdir. Xalqın milli-mənəvi və estetik düşüncəsini özündə əks etdirən tikmə sənətinə maraq göstərən tələbələr müəllimlərinin rəhbərliyi altında incə zövqlə, səbirlə, əzmlə başa gələn işlər hazırlamışlar. Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyini diqqətə alaraq dahi sənətkarın əsərlərinə həsr olunan xeyli sayda bədii tikmə nümunələri yaratmışlar.

Dərnəkdə aylarla davam edən müəllim və tələbələrin birgə fəaliyyəti nəticəsində ötən il aprel ayında Təsviri incəsənət müəllimliyi ixtisasının II kurs tələbələrinin "Xalça və tikmələr"dən ibarət sərgisi təşkil olundu. Sərgidə 60-a yaxın xalça və tikmə nümunələri sərgilənmişdir. Əsasən, Naxçıvanın xovlu və xovsuz xalça nümunələrindən vərni, şəddə, cecim, kilim, duz torbası və eləcə də tikmə xalçalarda işlədilən ornamentlər öz əksini tapmışdır. Həmçinin sərgidə orijinal üslubda yaradılanmuxtar respublikanın xalça xəritəsində Naxçıvanın rayonlarının özünəməxsus xalçaları öz əksini tapmışdır.

2021-ci ilin II rübündə "Toxuculuq" kabinəsində 19 ədəd müxtəlif ölçülü xalça, 6 ədəd kilim nümunəsi, 2 ədəd palaz və milli ornamentlərlə işlənmiş 2 ədəd örtük nümunəsi toxunmuşdur.

Milli köklərə söykənən xalça sənəti yarandığı gündən hər zaman xalqın xidmətində olmuş, onun mədəni irsi kimi bir çox sənətkarların ilham mənbəyinə çevrilmişdir. Xalq rəssamı, professor Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi və onun sənət dünyası barədə geniş məlumatların ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində konfransın xüsusi rolu danılmazdır. Belə ki, Naxçıvanda xalçaçılığın inkişafı sahəsində aparılan davamlı və ardıcıl işin tərkib hissəsi kimi bu konfrans böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin “Kamil Müseyib oğlu Əliyevin anadan olmasının 100-illik yubileyinin qeyd edilməsi haqqında” 12 oktyabr 2021-ci il tarixli Sərəncamı.
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Kamil Əliyevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi haqqında” 2021-ci il 16 oktyabr tarixli Sərəncamı
3. Bəybalayev B. Füzuli ilmələrin işığında. “Yeni Azərbaycan” qəz., 1996, 6 noyabr.
4. Əfəndi R. Azərbaycan incəsənəti: qədim dövr və orta yüzilliklər. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı: Şərq-Qərb, 2007, 157 s.
5. Əhməd T. Müqəddəsliyə qovuşan Kamil ömrü. “Azərbaycan mədəniyyəti və incəsənəti” qəz., Bakı, 2005, 7 aprel, s. 2.
6. Fərzəliyev Ç., Əsədova X. Kamil Əliyev: 1921/2005 – xalça sənəti. Bakı: Şərq-Qərb, 2013, 104 s.
7. İbrahimov N. Kamil Əliyevin xalça sənəti. Bakı: Azərnəşr, 2001, 266 s.
9. Məmmədov N. Xalçamızın şöhrət tacı: Kamil Əliyev // Mədəni-maarif, 2002, № 1-2, s. 20.
10. Müciri C. Azərbaycan xalçaçılığının texnoloji üsulları. Bakı: Maarif, 1987, 200 s.
11. Mükərrəmoğlu M. Kamil Əliyev-90: Onun əsərləri dünyanın məşhur muzeylərini bəzəyir. “Xalq qəzeti”, 2011, 20 oktyabr, s. 8.
12. Nizamiqızı G. Kamil Əliyev-90: Xalçalarda yaşanan ömür. “Mədəniyyət” qəz., 2011, 21 oktyabr, s. 8.
13. Nuriyev Ə. Kamil Əliyev – ilmələrin sehrində. “Palitra” qəz., 2019, 25 oktyabr, s. 13.
14. Səlimzadə S. Nağıl ilmələr. Bakı: Şirvannəşr, 2008, 182 s.
15. Şükürova E.F. Azərbaycan xalça sənətinin Kamili. Bakı: Altunkitab, 2006, 125 s.
16. Xəlilzadə F. Xalça sənətinin canlı klassiki. “Azərbaycan” qəz., 2005, 9 fevral, s. 6.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: i_elbrus@yahoo.com***

**Elbrus Isayev**

## ORGANIZATIONAL ACTIVITIES OF PEOPLE'S ARTIST, PROFESSOR KAMIL ALIYEV

Kamil Aliyev, who left his traces in the history of Azerbaijan as a carpet-weaving artist, contributed to our national culture with his diverse and original style. The jubilee artist occupies a special place in Azerbaijani art, especially carpet weaving. By order of the President of the Republic of Azerbaijan dated October 12, 2021, it was decided to celebrate the 100th anniversary of the birth of People's Artist, Professor Kamil Musayib oglu Aliyev, an outstanding representative of the art of carpet painting in Azerbaijan. He devoted all his life to the preservation and development of carpet weaving bright traditions, which have an exceptional place in the cultural history of our people. The talented artist successfully benefited from elements of national patterns, created colorful decorative motifs, and constantly enriched Azerbaijani carpet weaving and applied art with new ornaments. The originality of the composition, color harmony, and variety of plots are the main features of the artist's carpets woven based on patterns that embody the features of Azerbaijani carpet weaving schools. His portrait carpets, distinguished by high professionalism, artistic and aesthetic excellence, dedicated to geniuses and outstanding political figures, are valuable samples of the golden fund of Azerbaijan art. Kamil Aliyev's works have repeatedly been exhibited in prestigious museums, galleries, and exhibition halls worldwide.

**Keywords:** *fine arts, carpet, carpet pattern, carpet art, carpet composition, carpet ornament, tradition of carpet weaving, Azerbaijani carpet weaving, carpet art of Kamil Aliyev, 100th anniversary of Kamil Aliyev, carpet weaving crown, portrait-carpet artist, life on carpets, a living classic of carpet art.*

**Эльбрус Исаев**

## ОРГАНИЗАЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ НАРОДНОГО ХУДОЖНИКА, ПРОФЕССОРА КЯМИЛЯ АЛИЕВА

Кямиль Алиев, оставивший след в истории Азербайджана как художник-ковродел, своим индивидуальным и оригинальным стилем внес свой вклад в нашу национальную культуру. Распоряжением Президента Азербайджанской Республики от 12 октября 2021 года было принято решение о праздновании 100-летнего юбилея со дня рождения видного представителя азербайджанского искусства ковровой живописи, народного худож-

ника, профессора Кямиля Мусейиб оглы Алиева. Художник-юбиляр всю свою жизнь посвятил сохранению и развитию ярких традиций коврового искусства, занимающего исключительное место в истории культуры нашего народа. Обладая врожденным талантом, художник успешно использовал элементы национального орнамента, создавал красочные декоративные мотивы, постоянно обогащал Азербайджанское ковроткачество и прикладное искусство новыми орнаментами. Композиционное своеобразие, цветовая гармония и красочность сюжета – основные характерные черты ковров художника, сотканных на основе образцов, вобравших в себя особенности азербайджанских школ ковроткачества. Его ковры-портреты, посвященные гениальным мастерам слова и видным политическим деятелям, отличающиеся высоким профессионализмом и художественно-эстетическим совершенством, являются ценными образцами золотого фонда нашего искусства, работы Кямиля Алиева неоднократно выставлялись в известных музеях, галереях и выставочных залах мира.

**Ключевые слова:** *изобразительное искусство, ковер, узор ковра, ковровое искусство, ковровая композиция, ковровый орнамент, традиции ковроткачества, Азербайджанское ковроткачество, ковровое искусство Кямиля Алиева, 100-летний юбилей Кямиля Алиева, корона славы ковроткачества, художник-портретист, жизнь в коврах, живая классика коврового искусства.*

ÜLVİYYƏ HƏMZƏYEVA

## KAMİL ƏLİYEV YARADICILIĞINDA SİYASİ PORTRET JANRI

*Dünyada sülhü, azad yaşayışı qorumaq üçün ən sınanmış vasitələrdən biri insanların, xalqların bir-birini tanımasıdır. Ürəkdən-ürəyə ünsiyyət körpüləri salmaq biz sənətçilərin borcudur...*

***Kamil Əliyev***

Azərbaycanda xalça toxuculuğu beş min il bundan əvvəl meydana gəlib. Xalça bizim məişətimizin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, ta qədimdən bu günə kimi bizimlə yaşayan mistik bir totemdir. O, dekorativ-tətbiqi sənətin ən qədim və ən geniş yayılmış növlərindən biridir. Xalça, Azərbaycan xalqının milli mədəniyyətinin bariz nümunəsi olmuşdur. Hər bir xalça toxunduğu yerin təbiətini, onu yaradan insanların dünyagörüşünü və inanclarını üzərində əks olunan simvollar vasitəsi ilə məlumat verir. Hər toxunan xalça qətiyyətlə demək olar ki, sənət əsəridir. Ayrı-ayrı regionların coğrafiyası, tarixi, mədəni və dini mühiti xalçanın özünəməxsus ornament, kompozisiya və digər elementlərinə təsir göstərir. Məhz bu mənada xalçaçılığın inkişafı tarixi, mədəni və maddi irsin qorunması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Etiraf etmək lazımdır ki, XX əsrdə Azərbaycanda xalça sənətinin inkişafında iki böyük şəxsiyyətin Lətif Kərimov və Kamil Əliyevin böyük xidmətləri olmuşdur. Kamil Əliyevin toxuduğu xalçalar üzərində həm mənəvi aləm, qədim tariximiz, inci kimi zərif düzümlü bəzək elementləri, kalliqrafik yazılar, sonsuz rəng çalarları böyük ustalıqla təcəssüm edilir.

Kamil Əliyev incəsənətimizi yüksəkliklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir. Rəssamın əsərləri Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və başqa şəhərlərin nüfuzlu muzey və qalereyalarında nümayiş etdirilərək, tamaşaçıların hüsnrəğbətini qazanmışdır.

Kamil Əliyevin böyük və zəngin yaradıcı əməyi xalqımız tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının "Xalq rəssamı" adına və "İstiqlal" ordeninə layiq görülmüşdür. Xalq dekorativ-tətbiqi sənəti sahəsində gördüyü səmərəli elmi işlərə görə ona professor elmi dərəcəsi verilmişdi. Bunların hamısı görkəmli sənətkarımızın yaradıcılığına və xalq incəsənətinin inkişafına göstərilən yüksək qayğının əyani sübutudur.

Dövlət tərəfindən də onun sənəti hər zaman yüksəkdə tutulur və Azərbaycan xalçaçılıq sənətinin klassiki, rənglər və ilmələr sehrkarı Kamil Əliyevin vaxtilə yaşadığı evin qarşısında xatirə lövhəsi və ev muzeyi açılmışdır. Xatirə lövhəsin-

də: “Azərbaycanın xalq rəssamı, professor Kamil Əliyev bu evdə yaşamışdır: 1921-2005” sözləri həkk olunmuşdur. Kamil Əliyevin həyatı naxışlarda əbədiləşən ömürdür desək, yanılmarıq.

Kamil Əliyev Azərbaycan xalçasını, bu sənətin inkişafda olan müasir vəziyyətini dünyanın hər yerində tanıtdı. O, Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, görkəmli şəxsiyyətlərimizi əbədiləşdirdi. İrqindən, coğrafi məkanından asılı olmayaraq dünya miqyasında tanınmış simaları öz rəngarəng xalçalarına qəhrəman seçdi.

Ümumilli lider Heydər Əliyev ilə xalçaçı-rəssam Kamil Əliyev arasında səmimi dostluq münasibətləri var idi. Ümummilli lider onun bu sənətini yüksək qiymətləndirmişdir.



Ümumilli lider Heydər Əliyevin portreti, 1999-cu il.

Heydər Əliyev demişdir: **“Həqiqətən Kamil Azərbaycanda rəssamlıq məktəbinin çox görkəmli bir nümayəndəsidir. Xüsusən rəssamlıq sənətinin çox çətin bir sahəsi olan xalçaçılıq-rəssamlıq sənətinin böyük bir rəssamıdır...**

**Azərbaycan rəssamlıq məktəbi çox zəngin və böyük məktəbdir. Müxtəlif sahələrdə Azərbaycan təsviri incəsənəti çox inkişaf edibdir və çox böyük əsərlər yaranıbdır. Bunların hamısı ilə biz fəxr edə bilərik. Ancaq bu sahə olduqca xüsusi bir sahədir. Spesifik bir sahədir. Bu sahədə hər bir adam yəqin ki, bu səviyyəyə çata bilməz. Mən dəfələrlə demişəm, rəssam bir şey çəkir, fırçaynan, ya karandaşnan, xoşuna gəlməyəndə pozur, yenidən çəkir. Ancaq bu xalça belədir ki, onu toxuyursan ilmə-ilmə. Əgər düz gəlmədi, gərək sökəsən, yenidən toxuyasan. Özüm təsəvvür edirəm, siz də bilirsiniz ki,**

**belədir. Yəqin burada həm rəssamlıq, həmdə ki, xalça sənəti birləşir. Kamil də bunların hamısını çox gözəl yaradıbdır. Burada olan xalçalar, onun əsərləri də Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daimi yaşayacaqlar və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqlar".**

Rəssamın çoxsaylı və çoxjanrlı xalçaları sırasında, portret qalereyasını bəzəyən siyasi portretlər xüsusi yer tutur. Rəssam yaradıcılığında Ümummilli lider Heydər Əliyevə bir neçə xalça-portret həsr etmişdir. Ümumiyyətlə, Kamil Əliyevi fərqləndirən cəhətlərdən biri onda idi ki, o, xalçada toxuduğu obrazın psixologiyasını, tarixilik prinsipini, mənsub olduğu xalqın və ya dövlətin xarakterik cəhətlərini tükənməz təxəyyülü ilə qarşılıqlı şəkildə xalça sənətinin mürəkkəb texniki vasitələrində əks etdirirdi.

Kamil Əliyevin yaratdığı xalçalar yüksək sənət əsəri zirvəsinə layiqdir və əsəri bu yüksəkliyə gətirmək üçün mürəkkəb texnoloji mərhələlərdən keçməlidir. İlk olaraq sənətkar düşündüyü ideyasını təkmilləşdirir, haşiyə, ara sahə, göl arasındakı rəng və naxış vəhdətini kamilləşdirir, nəhayət çeşnini incə ilmələrlə xalça üzərində to-xuyub məharətlə canlandırır. Kamil Əliyev xalçanın toxunuşunda yüksək sıxlığı əldə etmək üçün hansı növ yuna, hansı qalınlıqda ipliyə, hansı tərkibdən alınacaq lazımi rəngə, bir rəngdən digərinə keçid və bu kimi məsələlərə həssaslıqla yanaşırdı.



Ümumilli lider Heydər Əliyevin portreti, 2004-cü il.

Kamil Əliyev yaradıcılığında Ümummilli lider Heydər Əliyevin portretini fərqli obrazlarda görmək mümkündür. Belə ki, o, eyni adlı əsərləri 1980, 1998, 1999 və 2004-cü illərdə toxumuşdur. 1999-cu ildə toxuduğu "Heydər Əliyev" adlı xalçası Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində qorunub saxlanılır.

Qeyd edək ki, portret təsvirli xalçalarda, adətən, "Türkbaf" ilməsi ilə toxunur. Bu da rəsmin dəqiq, real təsvirini təmin edir. Bu xalılar çox sıx toxunulmaları ilə də səciyyəvidir. Texniki cəhətdən portret xalçaçılığı yüksək professionallıq tələb edir. Bütün bunlar, xalçalardakı portretlərin orijinala oxşamasına da böyük təsir göstərir. Kamil Əliyev Ümummilli lider Heydər Əliyevin ölkənin Ali Baş Komandanı kimi general libasında portret xalçasını yaratmış, həmin portreti Ümummilli lider Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibəti ilə Ümummilli liderə hədiyyə edilmişdir. Ümummilli liderimiz Heydər Əliyev öz portreti toxunmuş xalçaya baxarkən susmuş, əlini ilmələrə sürtərək demişdir: **"Kamil, sənin xalçaların dil açıb danışır, insanı söhbətə çağırır"**.



Mustafa Kamal Atatürkün portreti
1991-ci il.



Mustafa Kamal Atatürkün portreti,
1996-cı il.

Kamil Əliyevin türk xalqının böyük oğlu Atatürkə həsr etdiyi "Mustafa Kamal Atatürk" adlı portret-xalçası tam başqa ovqatlı bədii üsluba malikdir . 1991-ci ildə toxunmuş xalçanın ümumi fonu, Türk dövlətinin bayraq rəngi – qırmızı üzərində öz həllini tapmışdır. Kamil Əliyev tərəfindən 1991-ci ildə toxunulmuş xalça Bakı Dövlət İncəsənət Muzeyində, Mustafa Kamal Atatürkün portreti əsasında 1996-cı ildə toxunulmuş xalça isə Ankarada Türkiyə Böyük Məclisinin binasında qorunub saxlanılmaqdadır.

Xalçaçı-rəssamın yaradıcılığına nəzər saldıqda, qətiyyətlə demək olar ki, portret-xaçalarKamil Əliyevin ən böyük sənət uğurlarından biri kimi sayıla bilər.



Süleyman Dəmirəlin portreti, 1994-cü il.

Kamil Əliyev yaradıcılığında bir çox Türk liderlərinin portretlərini görmək olar. Onlardan, Süleyman Dəmirələ həsr olunmuş xalça da maraq doğuran əsərlərdən biridir. 1994-cü ildə toxunmuş bu portret Süleyman Dəmirəlin şəxsi kolleksiyasında qorunub saxlanılır. Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl xalçaçı-rəssamın bu işini görərkən heyrətini gizlədə bilməyərək demişdir: “Bu, Süleyman Dəmirəldir, onda bəs mən kiməm?”

Rəssam Hindistanda yaradıcılıq ezamiyyətində olarkən bu qədim Şərq ölkəsinin mədəniyyətilə yaxından tanış olur, İndira Qandinin portret-xalçasını yaratmaq üzərində düşünür. Vətənə qayıtdıqdan sonra uzun müddət xalçanın çeşnisi üzərində işləyir. Uzun axtarışlar və hind incəsənətinin incilərilə tanışlıq müəllifə bu işdə kömək etmişdir. Beləliklə, Kamil Əliyev 1985-ci ildə Azərbaycan və Hindistan sənəti üçün ənənəvi olan “buta” ornament motivindən, hindli və azərbaycanlı xalça ustalarının çox sevdiyi köri kökünün sarısından, tünd-göy rəng çalarlarından özünəməxsus ustalıqla istifadə etmişdir. Bu xalça bir qadına ithaf olunduğu üçün, xalçada toxunan əsas motivlərdən, daha doğrusu onu bəzəyən, güldan və onun içərisində islimi ornamentlərlə göstərilmiş güllərin təsviridir. Xalça-portret Hindistan Dövlət Muzeyində qorunub saxlanılır.

Kamil Əliyev istifadə etdiyi bütün rəngləri topladığı bitki və ağaclardan özü alar, ipləri də özü boyayardı. Bir də deyərmiş ki, xalçanı ya divardan asarlar, ya da üstündə namaz qılıb Allaha dua edirlər, gərək bu müqəddəsliyi qoruyub gözləyəsən.



İndira Qandinin portreti, 1985-ci il.

Ustad sənətkarın əsərləri onun yadigar qoyub getdiyi Azərbaycan Milli Xalça Muzeyində toplanmışdır. Qədim İçərişəhərdəki bu muzeyə gələn qonaqlar Azərbaycan xalq sənətinin zirvəsi olan xalçaçılığın sirli-soraqlı nümunələri ilə tanış olarkən, şübhəsiz ki, qədim el sənətimiz və onun vurğunu Kamil Əliyev haqqında daha ətraflı məlumat ala bilir, rəssamın dahiliyini hiss edirlər. Bu gün ölkəmizdə dahi xalçaçı-rəssamın xatirəsi uca tutularaq, yüksək səviyyədə qeyd olunur. Ona ithaf olunmuş sərgilər, konfranslar, kitab təqdimatları, ustad dərsləri və digər bu tipli tədbirlər keçirilir. Bu isə onu göstərir ki, əsil sənət adamları heç zaman unudulmur, hər an, daima yad edilir.

## ƏDƏBİYAT

1. Məlikova Ş. Lətif Kərimov. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından. Bakı: PolyArt, 1990.
2. İbrahimov N. Kamil Əliyev – xalça sənəti. Bakı: Azərbaycan, 2001.
3. Qurbani A. Kamil Əliyevin xalça dünyası. Bakı, 2010.

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi***
***E-mail: ulviyya.hamzayeva@yahoo.com***

**HÜSEYNQULU ƏLİYEV**

# AZƏRBAYCAN XALÇA RƏSSAMLIĞI SƏNƏTİNDƏ KAMİL ƏLİYEV DƏSTİ-XƏTTİ

*Hamımızın yaxşı tanıdığı Kamil Əliyev xalça rəssamlığı sahəsində böyük nailiyyətlər qazanmışdır. Bu uğurların kökündə sənətkarın öz peşəsinə dərindən bağlılığı dururdu.*

*Xalçaçı-rəssamın multikulturalist ideyaları, tolerant görüşləri yaradıcılığında da öz əksini tapmışdır. Xalq rəssamı öz yaradıcılığında həm portret, həm də ornamental xalçalara da geniş yer vermişdir. Kamil Əliyevin xalça çeşnilərində ən çox nəbati naxışlar üstünlük təşkil edir. Azərbaycan xalçaçılıq sənətində öz dünyasını yaradan Kamil Əliyevin əsərləri dünyanın nüfuzlu muzeylərində qorunub saxlanılırsa, deməli o yaşayır. Yetirdiyi mütəxəssislər, rəssamlar fəaliyyət göstərdikcə Kamil Əliyevin dəsti-xətti görünür.*

**Açar sözlər:** *Kamil Əliyev, xalça rəssamı, portret-xalça, ornament, nəbati naxış, eskiz.*

“Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaqlar və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqlar”. Mədəniyyətimizə yüksək dəyər vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu sözləri Xalq rəssamı Kamil Əliyevin haqqında demişdir.

Hamımızın yaxşı tanıdığı Kamil Əliyev xalça rəssamlığı sahəsində böyük nailiyyətlər qazanmışdır. Bu uğurların kökündə sənətkarın öz peşəsinə dərindən bağlılığı dururdu.

Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan Xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub saxlayaraq, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır. Kamil Əliyev milli mənliyimizi təmsil edən bu sahəyə hələ gənc yaşlarından gəlmişdir. O, 1930-cu illərdə Bakı rəssamlıq məktəbində oxuyarkən “Azərxalça” birliyində Lətif Kərimov, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və başqa görkəmli sənət adamları ilə birlikdə bacarıqlı ornament rəssamı kimi çalışmışdır.

Məlumdur ki, xalçaçılıq rəssamdan hərtərəfli istedad və zəhmət tələb edir. Rəsmin xalçada təcəssüm tapması həm də xalçanın texniki hazırlığından asılıdır. Bəzən kiçik bir səhv xalçadakı rəsmin dəyişməsinə gətirib çıxarır. Kamil Əliyevin xalçalardakı texniki mükəmməllik, yüksək səviyyəli rəsm duyumu, ürəkaçan kolorit, bütünlükdə xalçanın estetikası insanı heyran edir. Rəssam həmişə təsviri sənətin ifadə vasitələri ilə yaratdığı əsərlərin mövzusuna öz münasibətini bildirir, öhdəsinə düşən vəzifəni yüksək peşəkarcasına həll edir.

XIX yüzillikdən başlayaraq, mahir xalça ustalarımız əsərlərində klassik

Azərbaycan ədəbiyyatına müraciət etmiş, xalçaların bədii tərtibatında ədəbi obrazlardan geniş istifadə etmiş, klassik ədəbiyyatımızın ən görkəmli nümayəndələrinə xalçalar ithaf etmişlər. Kamil Əliyev də sələflərinin yolu ilə getmişdir. O, portret xalçalarının bir silsiləsini Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimiyə həsr etməklə, xalqımızın poetik irsinə olan məhəbbətini büruzə vermişdir. Kamil Əliyev ornamentdən istifadə edərək, şair, mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir [4].

84 yaşında dünyasını dəyişən sənətkar ömrünün son günlərinədək çox gümrah idi. Onun belə şux saxlayan sənəti, bu sənətə olan sevgisi idi. Əks təqdirdə ömrünün son saatlarına qədər iş başında olmazdı [3, s. 8].

Xalçaçı rəssamın multikulturalist ideyaları, tolerant görüşləri yaradıcılığında da öz əksini tapmışdır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Xədicə Əsədova Kamil Əliyevin portret xalça sənətinə verdiyi töhfəni belə şərh edir: “Kamil Əliyev Azərbaycan xalçasını, bu sənətin inkişafda olan müasir vəziyyətini dünyanın hər yerində tanıtdı. O, Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, şəxsiyyətlərimizi əbədiləşdirdi. İrqindən, coğrafi məkanından asılı olmayaraq dünya miqyasında tanınmış simaları xalçalarına qəhrəman seçdi.

Bu növ ciddi çeşniləri işlədikcə bir qayda olaraq Kamil Əliyev məğrur, mübariz, humanist simaları ilmələrlə tam ifadə etmək üçün bütün bacarığını sərf edirdi. Hər portretin özünə xas kompozisiyasını yaradır, təsvir etdiyi şəxsin cizgilərini, onun özəl nüfuzuna uyğun verirdi. Obrazların psixologiyası, tarixilik prinsipi, mənsub olduğu xalqın və ya dövlətin xarakterik cəhətləri Kamil müəllimin tükənməz təxəyyülü ilə qarşılıqlı şəkildə xalça sənətinin mürəkkəb texniki vasitələrində əks olunurdu. Bu səbəbdən də bütün xalçalarda fərqli, bir-birinə bənzəməz təqdimat hökm sürürdü” [1, s. 22-23].

Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsərləri zirvəsinə ucalmışlar. Lakin xalçanın bu ali səviyyəyə ucalması üçün nə qədər dəqiqlik gərəkdir, neçə mürəkkəb texnoloji mərhələni adlamaq, düşünülmüş ideyanı təkmilləşdirib hövsələ ilə bədii quruluşu – haşiyə, ara sahə, göl arasındakı rəng və naxış vəhdətini kamilləşdirmək, ən nəhayət çeşnini incə ilmələrlə xalça üzərində toxuyub məharətlə canlandırmaq lazım idi. Xalçanın toxunuşunda yüksək sıxlığı əldə etmək üçün hansı növ yun, hansı qalınlıqda iplik, hansı təbii tərkibdən alınacaq lazımi rəng, bir rəngdən o birinə keçid və s. həssaslıqla duymaq qabiliyyəti Kamil Əliyevə xas idi.

Kamil Əliyev yaradıcılığının əsasını Təbriz elit rəssamlıq məktəbi və Bakı

məktəbinin xovlu xalça toxunuş üslubu təşkil edir. Bu kübar əsərlərin ərsəyə gəlməsində də müəllif bədii və texnoloji üslubuna görə əsasən iki təməlli örnəkdən bəhrələnir. Onlar ən birincisi kompozisiya quruluşu, əyrixətli ornamental üslub, keyfiyyətli sıx toxuma texnikası baxımından və süjetli xalçaların daha çox üstünlük təşkil etdiyi klassik Təbriz xalçalarına və kolorit həllindəki incə, yumşaq tonlara görə Bakı xalça məktəbinə daha yaxındır.

Özünün də etiraf etdiyi kimi Kamil Əliyev qızılı rəngi çox sevirdi. Bu rəng onun gözündə bütün rəng çalarlarına yaraşıq verirdi. Bu rəngin müxtəlif tonlarına ilk əvvəl miniatür kitablarında rast gələn rəssam o effekti xalçalar üzərində də qazanmağa nail olub [5].

Xalq rəssamı öz yaradıcılığında ornamental xalçalara da geniş yer vermişdir.

Kamil Əliyevin xalça çeşnilərində ən çox nəbati naxışlar üstünlük təşkil edir. Bu elementlər adından da aydın olduğu kimi təbiətdən götürülmüş müxtəlif yarpaqların, gül-çiçəklərin, ağacların və s. bitkilərin stilizə olunmuş, yaxud da realistik təsvirlərdir. Nəbati naxışların özləri də növlərə, elementlərə ayrılır.

Tarixən təbii rənglərlə öz "xalça-arzuları"nı gerçəkləşdirən azərbaycanlı sənətkarlar vaxtaşırı nəhayətsiz fantaziyalarına tapınmaqla təbiətdə mövcud olan bitkilərin qarışığından reallıqda heç vaxt görünməyən elə rəng çalarları yaratmışlar ki, onların bəzilərinin alınma tərkibi indiyə kimi sirr olaraq qalmaqdadır. Elə bu səbəbdən də rənglərin bir-birindən fərqlənən çoxsaylı çalarları yaradılmış və xalçalarda istifadə olunmuşdur [2, s. 53].

Azərbaycan xalçaçılıq sənətində öz dünyasını yaradan Kamil Əliyevin əsərləri dünyanın nüfuzlu muzeylərində qorunub saxlanılırsa, deməli o yaşayır. Yetirdiyi mütəxəssislər, rəssamlar fəaliyyət göstərdikcə Kamil Əliyevin dəstixətti görünür.

## ƏDƏBİYYAT

1. Əsədova X. Kamil Əliyev / "Sərvət" albomlar silsiləsi. Bakı, 2013, 104 s.
2. Muradov V. Azərbaycan xalça sənəti: tarixi, məktəbləri, texnologiyası (illüstrasiyalı nəşr). Bakı: Elm, 2013, 132 s.
3. Nizamiqızı G. Xalçalarda yaşanan ömür. "Mədəniyyət" qəz., 2011, 21 oktyabr.
4. İstinad: http://yasamal.cls.az/more/text/42525
https://www.facebook.com/nationalartmuseum.az/posts/3647048908645259/

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: HuseynquluEliyev1949@gmail.com***

**Husseingulu Aliyev**

## THE STYLE OF KAMIL ALIYEV IN THE AZERBAIJANI ART OF CARPET PAINTING

The well-known Kamil Aliyev achieved great success in the genre of carpet painting. At the heart of these successes lay the artist's deep commitment to his profession.

The ideas of multiculturalism and tolerant views of the carpet weaving artist are reflected in his work. The folk artist in his work assigned a place to both portrait and ornamental carpets. In the ornaments of Kamil Aliyev's carpets, preference is given to floral patterns. The works of Kamil Aliyev, who created his unique world in the art of Azerbaijani carpet weaving, are kept in famous museums of the world, perpetuating the life of the master. In the creative activity of his students, specialists, and artists, the style of Kamil Aliyev can be clearly seen.

**Keywords:** *Kamil Aliyev, carpet-maker, carpet-portrait, ornament, floral ornament, sketch.*

**Гусейнгулу Алиев**

## СТИЛЬ КАМИЛЯ АЛИЕВА В АЗЕРБАЙДЖАНСКОМ ИСКУССТВЕ КОВРОВОЙ ЖИВОПИСИ

Всем известный Кямиль Алиев добился больших успехов в жанре ковровой живописи. В основе этих успехов лежала глубокая приверженность художника своей профессии.

Идеи мультикультурализма и толерантные взгляды художника-ковродела нашли отражение и в его творчестве. Народный художник в своем творчестве отводил место как портретным, так и орнаментальным коврам. В орнаментах ковров Кямиля Алиева преимущество отдано растительным узорам. Работы Кямиля Алиева, создавшего свой особый мир в искусстве азербайджанского ковроткачества, хранятся в известных музеях мира, увековечивая жизнь мастера. В творческой деятельности его учеников, специалистов и художников, четко прослеживается стиль Кямиля Алиева.

**Ключевые слова:** *Камиль Алиев, художник-ковродел, портрет-ковер, орнамент, растительный орнамент, эскиз.*

**HƏBİBƏ ALLAHVERDİYEVA**

# KAMİL ƏLİYEV YARADICILIĞINDA OBRAZLILIQ VƏ KOLORİT MƏSƏLƏLƏRİ

*Məqalədə Kamil Əliyevin həyat və yaradıcılığına qısa nəzər salınsa da, əsasən onun yaradıcılığında mühüm yer tutan xalça-portretlərinin xarakterik xüsusiyyətlərinin ifadəliliyi, səciyyəvi cəhətləri və ümumilikdə çeşnisini hazırladığı xalçaların rəng, kolorit xüsusiyyətləri araşdırılmış, təhlil olunmuşdur. Xalq rəssamı Kamil Əliyevin dekorativ tətbiqi sənət sahəsində böyük xidmətləri olmuşdur. Çoxlu sayda bir-birindən gözəl ornamental və portret xalçaların çeşnilərini hazırlamışdır. Yaratdığı ornament kompozisiyalı və realist portret xalçaları Azərbaycan və dünyanın bir çox ölkələrində – Türkiyə, Fransa, İngiltərə, Yaponiya, Hindistan, Rusiya, Ukrayna və başqa ölkələrdə olan məşhur muzeylərdə nümayiş etdirilir.*

**Açar sözlər:** *Kamil Əliyev, xalçaçılıq, ornament kompozisiyası, xalçaçı-rəssam, kolorit, dekorativ-tətbiqi sənət, portret xalça.*

Azərbaycan dekorativ-tətbiqi sənətini yeni mərhələyə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq onu daha da zənginləşdirən xalçaçı rəssam Kamil Əliyev xalçada rəngarəng milli naxışları, rəng çalarları, müxtəlif kompozisiya və süjetləri, orijinal üslubu ilə milli mədəniyyətimizə töhfələrini vermişdir. Yaradıcılığında kompozisiya və kolorit həlli, ornament zərifliyi ilə seçilən xalçaçı-rəssamın yaradıcılıq xüsusiyyətləri haqqında danışdıqda ilk öncə onun portret xalçaları yada düşür.

Hələ orta əsrlərdən xalça üzərində insanı, onun əsas məşğuliyyətini, sənətini təsvir etmək ənənəsi mövcud olmuşdur. Məhz belə kompozisiyalı xalçalara süjetli xalçalar deyilir. Onların üzərində verilmiş insan təsvirində miniatürlərə xas kompozisiyanın bitkin, rəngarəng, süjetli həlli müşahidə olunur. 1921-ci il 22 oktyabrda, Azərbaycanın qədim tarixə malik şəhərlərindən olan İrəvanda doğulmuş Kamil Əliyevin yaradıcılığında realist portret janrını klassik xalçaçılıq sənətinə tətbiq etməsilə dekorativ tətbiqi sənət tarixinə öz imzasını atmışdır. Bu, onun fəaliyyətinin əsas göstəricisidir. Xalq rəssamı realist insan təsvirini ənənəvi ornamental üslublar vasitəsilə xalça kompozisiyalarının dekorativ tərtibatına çox böyük məharətlə tətbiq edərək, onların arasında kompozisiya bitkinliyinin yaranmasına nail olmuşdur. Ornamental kompozisiya özlüyündə elə bədii əsəri ifadə edir ki, onun əsasında ornament və ya müxtəlif ornament növləri qəbul edilir [2, s. 224]. Məhz onun əsərlərində əsas xüsusiyyətlərdən biri də rəssamın yaratdığı yeni ornament kompozisiyası daxilində olan realist portret təsvirləri ilə xalçanın ümumi ornament quruluşunu əlaqələndirməsidir. Xalq rəssamı Kamil Əliyevin yaradıcılığında insan obrazının təsvirləri obrazın mahiyyətini, onun daxili aləmini və əzəmətini böyük məharətlə açıqlaya bilir. O, xalçanın mərkəzində düzbucaqlı,

dairəvi, oval və naxışlı çərçivələri verərək, bu bir-birindən fərqli ornament kompozisiyalı və müxtəlif koloritli fonda Ümumilli lider Heydər Əliyevin, Mustafa Kamal Atatürkün, Süleyman Dəmirəlin, İndira Qandinin, ədiblərimizdən Məhəmməd Füzulinin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin və başqa tanınmış şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin ornament kompozisiyalı xalça portretini işləmişdir. Bu portret xalçalar yaradılmış obrazın kənarlarında verilmiş naxış elementlərinin bir-birilə vəhdəti, kompozisiya bitkinliyi, rəsmlərinin zərifliyi və ifadəliliyi, zəngin koloritinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir.



Ümumilli lider Heydər Əliyevin portreti, 1998-ci il.

Texniki cəhətdən portret xalçaçılığı yüksək professionallıq tələb edir. Onun yaratdığı xalçalardakı texniki və bədii mükəmməllik, xalçalarda yaratdığı obrazlar xarakterik xüsusiyyətlərinin dolğun əksi ilə hər bir ilmənin müxtəlif çalarlarının birləşməsi ilə yaranan kolorit ilə yadda qalır. Texniki cəhətdən portret xalçalığı yüksək professionallıq tələb edir. Onun yaratdığı xalçalardakı texniki və bədii mükəmməllik, xalçalarda yaratdığı obrazlar xarakterik xüsusiyyətlərinin dolğun əksi ilə hər bir ilmənin müxtəlif çalarlarının birləşməsi ilə yaranan kolorit ilə yadda qalır. Portret janrının ifadə xüsusiyyətlərini özündə dolğun əks etdirən bu xalçalarda obrazın təbii, canlı olması ilə diqqəti cəlb edir. O, portretin ətrafında elə bir zəngin ornamental tərtibat yaradır ki, tamaşaçını həmin obraz haqqında, onun xarakter xüsusiyyətləri haqqında təsəvvür yaranır, onun fəaliyyət istiqaməti haqqında məlumata malik olur və eyni zamanda naxışların forması və rəng ritmi, uyumu ilə yaradılmış sənət nümunəsindən estetik zövq alır.




Nizami Gəncəvinin portreti, 1978-ci il.

Kamil Əliyev yaradıcılığında naxışların forma və rənglərin harmoniyasını və obrazın dolğun ifadəsi ilə seçilən xalçalarından biri də Ümumilli lider Heydər Əliyevin general libasında olan portret xalçasıdır. Həmin portret Ümumilli lider Heydər Əliyevin anadan olmasının 75 illiyi munasibətilə rəssam tərəfindən Ümumilli liderə hədiyyə olunmuşdur. Heydər Əliyev öz portreti toxunmuş xalçaya baxarkən onun nə qədər canlı ifadə olunduğunu bildirmişdir. Böyük rəğbətlə qarşılanan bu xalçada Ümumilli liderin müdrikliyi, qətiyyəti, qüdrəti ən müxtəlif rəng çalarları fonunda böyük məharətlə ifadə olunmuşdur. Ümummilli lider sənətkarın yara-dıcılığı haqqında demişdir: **“Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəs-samlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqdır”** [4].

Xalq rəssamı Kamil Əliyevin eskizləri əsasında toxunan xalçaların rəng xüsusiyyətlərinə, kolorit tutumuna ümumilikdə nəzər saldıqda onun daha çox qəhvəyi rəngin sarı, qızılı tonların üstünlük təşkil etdiyini görürük. Hətta soyuq rənglərin-göy, mavi, bənövşəyi rənglərin də tərkibində isti tonların zərif keçidi hiss olunur. İsti tonların üstünlük təşkil etdiyi bu xalçalarda o, ənənəvi naxış elementləri əsasında yeni dekorativ ornament kompozisiyası yaratmışdır.

Ümumiyyətlə, rəssamın çeşniləri əsasında toxunmuş xalçalar süjet və ornament rəngarəngliyi ilə səciyyələnir, əsrlər boyu Azərbaycanda formalaşmış xalçaçılıq məktəblərinin xüsusiyyətlərini vahid kompozisiya ətrafında birləşdirir. Onlarda xalqımızın mənəvi aləmi – xarakteri, estetikası və həyat fəlsəfəsi, təbiətimizin füsunkar gözəllikləri öz parlaq təcəssümünü tapır. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ mo-

tivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni orna-mentlərlə zənginləşdirmişdir.

Ustad sənətkarın əsərləri onun yadigar qoyub getdiyi xalça muzeylərində toplanmışdır. Milli köklərə dayanan xalça sənətimizin sonrakı inkişafı üçün böyük xidmətləri olmuş görkəmli sənətkarın ən mühüm sənət uğurlarını əks etdirən bütün əsərləri Bakıda və dünyanın bir çox yerlərində – Paris, London, Kiyev, Tokio, Dehli, Ankara, İstanbul, Moskva şəhərindəki muzeylərdə nümayiş etdirilir. Yaratdığı obrazlar və böyük fəlsəfi tutumu olan ornamental kompozisiyalar tarixin yun kitabəsi olan xalçalarımızda yaşayır və yaşayacaqdır. Onun bədii irsi sənətşünaslar tərəfindən araşdırılır, tədqiq olunur və tanıdılır. Gənc xalçaçı rəssamlar isə öz yaradıcılıqlarında onun bədii yaradıcılıq ənənələrindən bəhrələnirlər.

Rəssamın yaradıcılığı dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, 1960-cı ildə Dekorativ tətbiqi sənət ustası, 1967-ci ildə Əməkdar rəssam, 1982-ci ildə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. Müxtəlif illərdə yubileyləri keçirilən rəssamın – 2021-ci il 12 oktyabr tarixdə 100-illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Müseyib oğlu Əliyevin xatirəsinə, eyni zamanda milli-mənəvi dəyərlərimiz olan xalçaçılıq sənətimizə olan diqqətin bariz nümunəsidir. Bundan əlavə müəyyən dövrlərdə qədim tariximizi, mədəniyyətimizi özündə yaşadan xalça sənətinin də qorunmasına və inkişaf etdirilməsinə dair sərəncamlar imzalanmış, Dövlət Proqramı təsdiq edilmişdir. Xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə verilən böyük önəmin ifadəsi olan bu sərəncamlar öz növbəsində xalçaçılıq sənətinin dərindən öyrənilməsi, araşdırılması, təbliği üçün geniş imkanlar yaradır [1, s. 189].

## ƏDƏBİYYAT

1. Allahverdiyeva H. Rəngkarlıq və qrafika əsərlərində Azərbaycan xalçalarının təsviri // AMEA Naxçıvan Bölməsinin Axtarışları, 2021, № 2, s. 186-190.
2. Dünyamalıyev S. Ornament (tarixi, nəzəriyyəsi, qurulması). Bakı: Nasir, 2014, 271 s.
3. Kərimov L. "Sərvət" albolmlar silsiləsi. Bakı: Şərq və Qərb, 2013, 103 s.
4. Kamil Əliyev: rəssam və dövr. "Mədəniyyət" qəz., 2021, 22 oktyabr.

***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: habibe.allahverdiyeva@mail.ru***

**Habiba Allahverdiyeva**

## FIGURATIVE AND COLOR SOLUTIONS IN THE WORKS OF KAMIL ALIYEV

The paper gives a brief look at the life and work of Kamil Aliyev. Despite this, the characteristic features of portrait carpets, which play an essential role in his work, and the characteristic features of the style – expressiveness, coloristic and ornamental features of the carpets created by him as a whole, have been studied and analyzed. People's artist Kamil Aliyev has excellent achievements in decorative and applied arts. He created ornamental and portrait carpets, one more beautiful than the other. Particular attention is drawn to his carpets-portraits of writers and prominent figures: "Heydar Aliyev," "Ataturk," "Turgut Ozal," "Suleiman Demirel," "Mohammad Fizuli," "Nizami Ganjavi," "Imadeddin Nasimi," "Alexander Sergeyevich Pushkin," et cetera. His ornamental and realistic portrait carpets are exhibited in famous museums in Azerbaijan and Turkey, France, England, Japan, India, Russia, Ukraine, and others.

**Keywords:** *Kamil Aliyev, carpet weaving, ornamental composition, carpet weaving artist, coloring, arts and crafts, portrait carpet.*

**Габиба Аллахвердиева**

## ОБРАЗНЫЕ И КОЛОРИСТИЧЕСКИЕ РЕШЕНИЯ В ТВОРЧЕСТВЕ КАМИЛЯ АЛИЕВА

В статье дается краткий взгляд на жизнь и творчество Кямиля Алиева. Несмотря на это, характерные особенности ковров-портретов, играющих важную роль в его творчестве, а также характерные черты стиля – выразительность, колористические и орнаментальные особенности созданных им ковров в целом исследованы, сделан их анализ. Народный художник Кямиль Алиев имеет большие заслуги в области декоративно-прикладного искусства. Он создал орнаментальные и портретные образцы ковров, один прекраснее другого. Особое внимание привлекают его ковры-портреты писателей и выдающихся деятелей: «Гейдар Алиев», «Ататюрк», «Тургут Озал», «Сулейман Демирель», «Мохаммад Физули», «Низами Гянджеви», «Имадеддин Насими», «Александр Сергеевич Пушкин» и др. Его орнаментальные и реалистичные портретные ковры выставлены в известных музеях Азербайджана и многих стран мира – Турции, Франции, Англии, Японии, Индии, России, Украины и т. д.

**Ключевые слова:** *Кямиль Алиев, ковроткачество, орнаментальная композиция, художник-ковродел, колорит, декоративно-прикладное искусство, ковер-портрет.*

**SARA HACIYEVA**

# KAMİL ƏLİYEV YARADICILIĞINDA NƏSİMİ OBRAZI

*Məqalədə, milli xalq sənətimizin ən qiymətli sahələrindən olan xalçaçılıq sənəti nümunələri üzərində Xalq rəssamı Kamil Əliyevin yaratdığı Nəsimi obrazından bəhs edilmişdir. Qeyd edilmişdir ki, onun yaradıcılığında məşhur insanların portretləri, şairlərin, yazıçıların, elm xadimlərinin şəkilləri xalçaların bəzəyi idi. O, xalçaçılıq sənətinin zəngin ornamentasiyasından istifadə edərək şair, mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandırmış və tamaşaçının mənəvi dünyasına təsir göstərməyi bacarmışdır. Bu baxımdan Kamil Əliyev yaradıcılığını öyrənmək təkcə xalçaçılıq, rəssamlıq sənətini deyil, həm də görkəmli klassiklərimizin mənəvi dünyasını öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** *Nəsimi, xalça, rəssam, süjetli-portret.*

Azərbaycanda süjetli xalçaların toxunması qədim tarixə və zəngin ənənələrə malikdir. Belə xalçalar tarixən ölkənin cənubunda Təbriz şəhərində toxunub. Təbriz şəhərində süjetli xalçaların istehsalının yüksəlməsi 16-cı yüzilliyə təsadüf edir. Həmin dövrlərdə dekorativ sənətin müxtəlif sahələrində çalışan rəssam-miniatürçülərin və digər sənətkarların əsas aparıcı mütəxəssisləri Təbrizdə cəmləşmişdir. Süjetli xalçalar başlıca olaraq şəkil kimi divardan asılmaqdan ötrü toxunurdu. Onların toxunmasında yüksək keyfiyyətli yun, zərif iplik istifadə edilirdi. Yüksək sıxlıq və zərif xov bu xalçaların əsas texniki xüsusiyyətlərindən sayılırdı. Hələ o dövrlərdən Azərbaycanın bir çox sənətkarları süjetli portret xalçaların toxunması ənənəsini yaşatmış və günümüzədək gətirib çıxarmışlar. Bu işdə sovet süjetli xalça sənətinin pioneri olan Lətif Kərimovun da yüksək yaradıcılıq təşəbbüsü və böyük xidmətləri olmuşdur. Lətif Kərimovun yaradıcılıq prinsipləri bir sıra Azərbaycanın xalça rəssamları tərəfindən mənimsənilmiş və son zamanlaradək yaşadılmış nadir xalçalarda öz əyani ifadəsini tapmışdır. Belə sənətkarlardan biri də Xalq rəssamı Kamil Əliyevdir. XX əsrin ortalarından başlayaraq onun yaradıcılığında süjetli-portretli xalçaların toxunması geniş tətbiq olunmağa başlamışdır. Rəssamın yaratdığı xalça-portretlər təkrarsızdır, ən əsası isə, bu təsvirlər obrazın mahiyyətini, onun daxili aləmini və əzəmətini böyük məharətlə açıqlaya bilir [8]. Sovet dövründə yaranan yüzlərlə xalça nümunələri ölkəmizin muzey və salonlarını bəzəyir, orijinal sənətkarlıq keyfiyyətləri ilə bu sənətin müasir səviyyəsini təmsil edirdi. Müxtəlif yubileylər münasibətilə toxunmuş irihəcmli xalılar, xalçalar görkəmli simalara həsr olunmuşdur. Belə sənət nümunələri arasında klassik və müasir ədəbiyyat xadimlərinin obrazını əks etdirən xalçalar xüsusi yer tutur [5].

Yaradıcılığı əsasən iki sistemdə formalaşan Kamil Əliyevin əsərləri klassik

poeziyamızın görkəmli şəxsiyyətlərinə və eyni zamanda müxtəlif ölkə başçılarına həsr edilmişdir. Bəhs olunan dövrdə O, görkəmli Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli ilə yanaşı İmadəddin Nəsiminin də portretini öz yaradıcılıq üslubu ilə xalçaya həkk etdirmişdir. Kamil Əliyev Böyük Nəsimiyə həsr etdiyi bu orijinal bədii xalça rəngbərəng yun ipliklərdən toxunmuşdur. Gözəl rəsm rəng ahəngdarlığı, naxışların nəfisliyi onu yaradanların ustalığını, Azərbaycan xalçaçılarının gözəl ənənələrinə sadiq olduqlarını sübut edir. Sənətkar yaratdığı bu əsər haqqında demişdir: "Bu xalçanın eskizi bir il yarımlıq gərgin əmək nəticəsində yaranmışdır. Eskiz hazırlanarkən Nəsimi poeziyasından istifadə olunmuşdur. Onun hər bir əsəri qeyri-adi bədiiliyi və təkrarolunmaz ahəng zənginliyi ilə fərqlənir. Mən həvəslə işlədim. Nəsimini yaşayıb yaratmış olduğu dövrlə səsləşən əsər yaratmağa çalışdım" [2]. Kamil Əliyevin 1973-cü ildə böyük ustad şair İmadəddin Nəsiminin 600 illik yubileyi münasibətilə yaratmış olduğu "İmadədin Nəsimi" portret xalçası nadir sənət abidəsi kimi yüksək zirvəyə ucalmışdır. "İmadəddin Nəsimi" xalçası "Azərxalça" Bədii İstehsalat Birliyinin Nardaran kəndində yerləşən toxuculuq sexində Kamil Əliyevin rəhbərliyi altında Əzizə Hüseynova, Gülbacı İbrahimova, Ruqiyyə Əliyeva və Əzizə Quliyeva xalçaçı qızlar tərəfindən toxunmuşdur. Bu xalça üzərinə 720 mindən artıq ilmə vurulmuşdur [6].

Nəsimi xalçası rəssamın gərgin yaradıcılıq axtarışlarının nəticəsidir. Müxtəlif ölçülü eskiz variantları, çeşnilərin bir-birilə əlaqələndirilməsi, ayrı-ayrı elementlərin, ornamental motivlərin yaradılması onların ümumi kompozisiyaya tabe tutulması, süjetlə ornament arasındakı harmonik vəhdət və nəhayət, xalçanın ümumi rəng koloriti rəssamdan son dərəcə dəqiqlik və yüksək sənətkarlıq tələb edir. Yeddi yüz mindən artıq rəngli ilmə vasitəsilə toxunmuş "İmadəddin Nəsimi" xalçasından görünür ki, rəssam bu tələblərin öhdəsindən bacarıqla gələ bilmişdir. Sənətşünas alim Məmmədağa Tərlanovun fikrincə, rəssam Kamil Əliyevin yaratdığı bədii xalça Quba-Şirvan xalçaçılıq məktəbinin yeni nümunəsidir. Sənətşünas deyir ki, ornamentin bitkilər aləmindən gələn motivlərinin və elementlərinin seçilməsi, rəng quruluşu, koloriti 180×120 sm ölçüsündə olan Nəsimi xalçası Quba-Şirvan xalça məktəbinin xüsusiyyətlərini əhatə edir. Müəllifin xidməti bundadır ki, o, klassik irsdən yeni qayda da istifadə etməyi, orijinal müasir kompozisiya yaratmağı bacarmışdır. Kompozisiyanın süjeti və istiqaməti böyük şairin obrazı ilə ahəngdar surətdə bağlıdır [2].

Əsasən nəbati motivlərdən ibarət olan ornamentlər yeni kompozisiyalarda verilmişdir. Göy rəngli fon üzərində yerləşdirilmiş ornamental naxışlar isti sayılan açıq qəhvəyi, sarımtıl, açıq oxra, qızılı rəng tonlarında və yarımtonlarında öz əksini tapıb. Xalçanın ortasında üstdən tağlaşmış dördkünc göl içərisində

Nəsiminin portreti verilmişdir. Şairin surəti SSRİ xalq rəssamı, professor Mikayıl Abdullayevin yaratdığı portretdən götürülmüşdür. Lakin orijinaldan fərqli olaraq burada portret xalçaya xas olan səthi və dekorativ ifadələrdə işlənmişdir. Portretin aşağı hissəsində xüsusi kətəbədə stilizə edilmiş hərflərlə "Nəsimi" sözü toxunmuşdur. Portret yerləşən gölü dörd tərəfdən xırda haşiyələr əhatə edir və bununla da xalçanın ümumi kompozisiyası tamamlanır. Xalçanın gölündə və orta iri haşiyəsində verilmiş naxış elementləri təkrar olunur. Lakin onların simmetrik halda müxtəlif kompozisiyalarda və rənglərdə verilməsi bir tərəfdən həmin naxışları yeknəsəqlikdən çıxarır, digər tərəfdən isə xalçadan alınan ümumi təəssüratı gücləndirir [5].

Xalçanın bədii dəyəri onun ara sahəsindəki rəng harmoniyası ilə haşiyə zolağındakı çalarların vəhdətində olan yaxınlıqdan başlayaraq, irili-xırdalı bütün naxışların zəncirvari formada qarşılıqlı uyarlılığında özünü əks etdirir. "İslimi" elementinin müxtəlif kombinasiyalar vasitəsilə traktovkası özü sonsuza aparan yol, sufilik fəlsəfi anlamı şəklində təqdim olunur. Təbriz xalçalarında ən çox sevilən "palmet" elementləri bu xalça üzərindəki haşiyələrdə tünd yerlikdə toxunaraq ilmələr vasitəsilə xüsusi tərzdə qabarıq təqdim edilir. Xalçada əks olunan Nəsiminin portreti dəqiq cizgilər və kölgələrlə işlənmiş məğrur görünüşü, sifət cizgiləri, ifadəsi obrazın canlı yaranması üçün özəl bədii priyomlarla zənginləşmişdir [7].

Professor, sənətşünaslıq doktoru Kübra Əliyeva Kamil Əliyevin toxuduğu xalçalar haqqında belə söyləmişdir: "K.Əliyevin toxuduğu xalçalar sanki, intuitiv surətdə toxunmuşdur. Bunun da öz qanunauyğunluğu vardır: həmin xalçalarda hər şey ilhama tabe edilmişdir. Görkəmli sənətkar sevdiyi məxməri-sürməyi, yaxud qırmızı-oxra tonların gah təzadlılığına, gah uyarlılığına, gah da gözlənilməz aksentinə nail olmaqla, rənglərin "ünsiyyətində" də xüsusi zirəklik və peşəkarlıq nümayiş etdirmişdir" [3, s. 330].

Xalq rəssamı Kamil Əliyev ömrünü xalqımızın həyatında müstəsna yer tutan xalça sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına həsr edib. Onun yaratdığı portret xalçalar mədəniyyətimizin qızıl fondunun inciləridir. Kamil Əliyevin misilsiz nailiyyəti xalçanın səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarları ilə işləmək bacarığı idi. Onun yaratdığı çoxsaylı portret və zəngin ornamental xalçalar qiymətli mədəni sərvətimizdir [1].

Nəticə olaraq qeyd etmək olar ki, görkəmli rəssam xalçalar üzərində süjetli-portret rəsmləri yaratmaqla sələflərinin ənənəsini davam etdirmiş və Azərbaycanın mədəniyyətində, poeziyasında, dövlətçilik tarixində xüsusi yer tutmuş şəxsiyyətləri naxışlar vasitəsilə əbədiləşdirmişdir. Bu portret-rəsmlər arasında sufi şairi İmadəddin Nəsiminin də öz payı və mənəvi dünyası var.

## ƏDƏBİYYAT

1. Azəri L. Kamil Əliyev: rəssam və dövr. "Mədəniyyət" qəz., 2021, 22 oktyabr.
2. Əliyev K. Böyük Nəsimiyə həsr olunur: yubileylə əlaqədar Nəsiminin bədii portretini toxuduğu xalça haqqında müəllifin fikirləri. Kommunist, 1973, 5 sentyabr.
3. Əliyeva K. Azərbaycan dekorativ-tətbiqi sənətini müxtəlif sahələrinə aid seçilmiş məqalələrin toplusu. I hissə, Bakı: Ecoprint, 2019, 552 s.
4. Tərlanov M. Əlvan ilmələr: Respublikanın əməkdar rəssamı Kamil Əliyevin Nəsimiyə həsr etdiyi "Nəsimi" xalçası haqqında. "Ədəbiyyat və incəsənət" qəz., 1973, 3 sentyabr.
5. Nəsimi xalçası. "Şərq qapısı" qəz., 1973, 3 sentyabr.
6.doktoruhttps://www.facebook.com/nationalartmuseum.az/posts/3647048908645259/
7. http://e-derslik.edu.az/books/311/units/unit-1/page80.xhtml

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: sshaciyevaa@gmail.com***

**Sara Hajiyeva**

## NASIMI IMAGE IN THE WORKS OF KAMIL ALIYEV

The paper considers the image of Nasimi created by prominent people's artist Kamil Aliyev on the examples of carpet weaving, one of the most valuable areas of our national folk art. It has been noted that portraits of famous people, photos of poets, writers, and scientists were the decoration of carpets in his works. Using the rich ornamentation of the art of carpet weaving, he portrayed the world of feelings and emotions in the works of poets and thinkers through shades of color and influenced the spiritual world of the audience. From this point of view, the study of Kamil Aliyev's work was necessary for the study of carpet weaving and painting and for studying the spiritual world of our great classics.

**Keywords:** *Nasimi, carpet, artist, plot portrait.*

**Сара Гаджиева**

## ОБРАЗ НАСИМИ В ТВОРЧЕСТВЕ КАМИЛЯ АЛИЕВА

В статье рассматривается образ Насими, созданный выдающимся народным художником Кямилем Алиевым на образцах коврового искусства, являющегося одной из самых ценных областей нашего национального на-

родного искусства. Отмечено, что в его творчестве ковры украшены портретами известных людей, поэтов, писателей, деятелей науки. Он, используя богатую орнаментацию коврового искусства, через оттенки красок оживил мир чувств и эмоций в творчестве поэтов, мыслителей, сумел воздействовать на духовный мир зрителя. С этой точки зрения исследование творчества Камиля Алиева имеет большое значение для изучения не только ковроткачества, живописи, но и духовного мира наших выдающихся классиков.

**Ключевые слова:** *Насими, ковер, художник, сюжетный портрет.*

**GÜLNARƏ QƏNBƏROVA**

# AZƏRBAYCANIN PORTRET XALÇALARININ YARADILMASINDA XALÇAÇI-RƏSSAM KAMİL ƏLİYEVİN ROLU

*Azərbaycanda xalçaçılıq sənətinin kökləri çox qədimdir. Bu da orta əsrlərdə bölgələrdə xalçaçılığın inkişafına, xalçaçılıq məktəblərinin formalaşmasına gətirib çıxarır. Bu məktəblərdə bacarıqlı ustalarla yanaşı tərtibatçı-rəssamlarda yetişirdi. Xalçaçılıq üzrə tərtibatçı-rəssam kimi yetişmiş və Azərbaycanda xalçaçılıq sənətinin inkişafında əməyi olan sənətkarlardan biri də Kamil Əliyevdir.*

*Xalçaçı-rəssam Kamil Əliyevin zəngin yaradıcılığı var. Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran rəssamlarımızdandır. O, öz əsərlərində xalq sənətinin incəliklərini qoruyub saxlayaraq, daha da zənginləşdirmiş, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaratmışdır.*

*Azərbaycanda xalçaçılıq sənətinin, süjetli, əsasən də portret janrında toxunan xalçaların yaradılmasında Kamil Əliyevin böyük əməyi vardır. Kamil Əliyev yaradıcılığının diapazonu çoxşaxəlidir. Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsərləri zirvəsinə ucalmışdır. O, Azərbaycan incəsənətini yüksəklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir. Rəssamın əsərləri Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və başqa şəhərlərin nüfuzlu muzey və qalereyalarında nümayiş etdirilmişdir.*

**Açar sözlər:** *Azərbaycan xalçası, xalçaçılıq məktəbi, portret janrı, kompozisiya, tərtibatçı-rəssam.*

Xalçaçı-rəssam Kamil Müseyib oğlu Əliyev 1921-ci il oktyabrın 22-də Qərbi Azərbaycanın mərkəzi İrəvan şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından nənəsi Gülsüm xanım və Xanım anasının toxuduğu xalçalar kiçikyaşlı Kamilin bu sənətə gəlməsində böyük rol oynamışdır. İlk xalça toxumaq təcrübəsini yaşadığı evdə nənəsi və anasından öyrənən Kamildə bu sənətə yaranan sevgi onu Bakı Rəssamlıq Məktəbinə gətirir və 1936-cı ildə məktəbə qəbul olur.

Kamil Əliyev 3 il məktəbdə dekorasiya şöbəsində təhsil alır və müəllimlərinin məsləhəti ilə təhsil aldığı müddətdə "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü-rəssam kimi işləməyə başlayır. Xalçaçılıq sənətilə yanaşı Kamil Əliyev Bakı Bədii Rəssamlıq Fondunda çalışarkən fil sümüyündən, qızıl və gümüşdən əşyalar da hazırlayırdı. Onlarla orijinal antik əşyaların bədii tərtibatçısı, rəssam-müəllifi Kamil Əliyev 24 mart 1960-cı ildə bədii sənət üzrə fəxri Fərmanına, respublikanın Tətbiqi sənət ustası, 7 iyul 1967-ci ildə Azərbaycan SSR Əməkdar rəssamı, 01 dekabr 1982-ci ildə Azərbaycan SSR Xalq rəssamı, 27 dekabr 1999-cu ildə "İstiqlal" ordeni və "Şərəf nişani" ordeni adına layiq görülür. Xalq dekorativ-tətbiqi sənəti sahəsində gördüyü səmərəli elmi işlərə görə ona professor elmi dərəcəsi verilib [5, s. 1].

Xalçaçı-rəssam Kamil Əliyev zəngin yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır. Hələ 1930-cu illərdə Bakı rəssamlıq məktəbində oxuyarkən "Azərxalça" birliyində Lətif Kərimov, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və başqa görkəmli sənət adamları ilə birlikdə bacarıqlı ornamental rəssam kimi çalışır. 1946-cı ildə İkinci dünya müharibəsindən qayıdan Kamil Əliyev öz sevimli peşəsini davam etdirir. Bir müddət o, Respublika Bədii Fonduna rəhbərlik edir, sonralar Bakı zərgərlik fabrikində direktor vəzifəsində çalışır. Həmin illərdə o, yalnız xalı, parça kimi toxuma mallarında yox, həmçinin, qızıl, gümüş və digər materiallarda da özünün mahir bədii tərtibatçı, ornamental-rəssam kimi məharətini nümayiş etdirir [5, s. 2].



Xalçaçı-rəssam Kamil Əliyevin hazırladığı çeşnilər əsasında toxunmuş xalçalar.

XIX əsrdən başlayaraq mahir xalça ustalarımız ornamental, süjetli xalçalarla yanaşı əsərlərində klassik Azərbaycan ədəbiyyatına müraciət etmiş, xalçaların bədii tərtibatında ədəbi obrazlardan geniş istifadə etmiş, klassik ədəbiyyatımızın ən görkəmli nümayəndələrinə xalçalar ithaf etmişlər. Kamil Əliyevdə sələflərinin yolu ilə getmişdir. Xalçaçı-rəssam Kamil Əliyevin başlıca xidməti realist portret janrını klassik xalçaçılıq sənətinə tətbiq etmək idi. O, portret təsviri klassik ornamental üslublar vasitəsilə xalça kompozisiyalarının dekorativ tərtibatına çox böyük məharətlə daxil edərək, onların arasında kompozisiya ahəngdarlığı yaratmışdır [1, s. 27].



Kamil Əliyevin xalça kənarələrində işlətdiyi ornamentlər.

Kamil Əliyev dahi insanlara həsr olunmuş silsilə portretlərin müəllifidir. Bu əsərlərində əsas xüsusiyyətlərdən biri rəssamın portret təsvirləri xalçanın ümumi ornament quruluşu ilə əlaqələndirmək bacarığıdır.

O, portret xalçalarının bir silsiləsini Azərbaycan korifeyləri olan Məhəmməd Füzuliyə, İmadəddin Nəsimiyə, Nizami Gəncəviyə həsr etməklə, xalqımızın poetik irsinə olan məhəbbətini büruzə vermişdir. 1950-ci illərdən etibarən, Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutur. Bu illərdə sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaradır.

Kamil Əliyev ornamentdən istifadə edərək şair, mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir.

Dünyada portret-xalçaların ən yaxşı nümunələrini yaradan Kamil Əliyevin ilk portret-xalçası "Füzuli" xalçası olmuşdur. 1958-ci ildə xalçanın toxunması ideyası dahi Füzulinin dövlət tərəfindən qeyd edəcəyi 400 illik yubileyi ilə bağlı idi. Onun ölçüsü 140×220 sm, üzərindəki ilmələrin sayı isə milyonu keçmişdi. Kamil Əliyev ornamentdən istifadə edərək, şair və mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir.

Poeziya vurğunu olan Kamil Əliyevin atdığı ilk müstəqil addım çox uğurlu olur. Sonralar o Azərbaycanın neçə-neçə şair, dramaturq, ictimai-siyasi xadiminə xalçalar həsr edir. Hətta, dünya klassiklərinin obrazlarını canlı olaraq xalça üzərində ilmələrə yatırır. Bu xalçanın təravətli, şux rəngli naxışları Füzuli lirikasının dərinliyini tamaşaçıya çatdırır. Bu xalı xalq sənətimizin qiymətli bir incisi kimi Azərbaycan Dövlət İncəsənət Muzeyinin daimi ekspozisiyasına daxil edilmişdir. Kamil Əliyev bu əsərindən bir müddət keçəndən sonra İmaməddin Nəsiminin (1973) 600 illiyi yubileyinə və Nizami Gəncəviyə (1978) həsr edilmiş xalıları yaradır.



Kamil Əliyevin Füzuli, Nəsimi və Nizamiyə həsr etdiyi xalçalar.

"İmadəddin Nəsimi" xalçası üzərinə 700 mindən artıq ilmə vurulmuşdur. Xalçanın bədii dəyəri onun ara sahəsindəki rəng harmoniyası ilə haşiyə zolağındakı çalarların vəhdətində olan yaxınlıqdan başlayaraq, irili-xırdalı bütün naxışların zəncirvari formada qarşılıqlı uyarlılığında özünü əks etdirir. "İslimi" elementinin müxtəlif kombinasiyalar vasitəsilə traktovkası özü sonsuza aparan yol, sufilik fəlsəfi anlamı şəklində təqdim olunur. Təbriz xalçalarında ən çox sevilən "palmet" elementləri bu xalça üzərindəki haşiyələrdə tünd yerlikdə toxunaraq ilmələr vasitəsilə xüsusi tərzdə qabarıq təqdim edilir. Nəsiminin dəqiq cizgilər və kölgələrlə işlənmiş məğrur görünüşü, sifət cizgiləri, ifadəsi obrazın canlı yaranması üçün özəl bədii priyomlarla zəngindir.

"Nizami Gəncəvi" xalçasının bədii tərtibatı üzərində işlərkən Kamil Əliyev qədim Quran əlyazması kitabında rast gəldiyi naxış elementlərindən istifadə edir.

Rəssam Azərbaycanın dahi şairlərinin hər birinin yaradıcılığına və dünyagörüşünə xas olan cəhətləri xalça sənətinin ifadə vasitələri ilə açmağa səy göstərmiş və məqsədinə nail olmuşdur.

Hazırda Azərbaycan Milli Xalça Muzeyində nümayiş etdirilən Nizami Gəncəvi xalısının iki başqa variantı da var. Onlardan birini müəllif Kiyevdə keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində özbək xalqına bağışlamışdır. Kamil Əliyevin portret-xalçalarının ikinci silsiləsi müxtəlif ölkələrin tanınmış siyasət və dövlət xadimlərinə həsr olunmuşdur.

Daha sonralar toxunmuş "Mirzə Fətəli Axundov" (1978), "Şota Rustaveli" (1981), "İndira Qandi" (1985), "Rabindranat Taqor" (1987) kimi xalçaların hər birində Kamil Əliyev tərəfindən istifadə edilən fərqli medalyon məmulat üzərində təqdim edilən şəxsin dünyaya baxışları və fəlsəfəsi ilə uzlaşır.





Mirzə Fətəli Axundovun portreti, 1978-ci il.
Şota Rustavelinin portreti, 1981-ci il.

Rəssam Hindistanda yaradıcılıq ezamiyyətində olarkən qədim Şərq ölkəsinin mədəniyyətilə yaxından tanış olur və vətənə qayıtdıqdan sonra uzun müddət İndira Qandinin portret-xalçasının çeşnisi üzərində işləyir. Uzun axtarışlar və hind incəsənətinin incəlikləri̇lə tanış olan müəllif xalçanın tərtibatında Azərbaycan və Hindistan sənəti üçün ənənəvi olan "buta" ornament motivindən, hindli və azərbaycanlı xalça ustalarının çox sevdiyi tünd-göy rəng çalarlarından özünəməxsus ustalıqla istifadə etmişdir.





İndira Qandinin portreti, 1985-ci il.
Rabindrant Taqorun portreti, 1987-ci il.

Xalçaçı-rəssam Kamil Əliyevin yaratdığı türk xalqının böyük oğlu Atatürkün portret-xalısı tam başqa ovqatlı bədii üsluba malikdir. Bu portret-xalı Kamil Əliyevin ən böyük sənət uğurlarından sayılır.

 

Ümumilli lider Heydər Əliyevin portreti, 1999-cu il.
Mustafa Kamal Atatürkün portreti, 1996-ci il.

Kamil Əliyevin böyük əsərlərindən biri də 1999-cu ildə Azərbaycanın böyük dövlət xadimi Heydər Əliyevə həsr etdiyi xalıdır. Bu xalçalar kompozisiya, naxış və obrazlılıqları ilə fərqlənir. Onlar bəzən portretin ara sahədəki qeyri mütənasibliyi, üz cizgilərində rəngin düzgün verilməsi ilə seçilsə də, adı məlum olmayan ayrı-ayrı xalçaların dahi rəhbərə olan sonsuz məhəbbətin bəhrəsidir [2, s. 65-66]. Xalçaçı-rəssam Ümumilli lider Heydər Əliyevin bu portret xalçasını ölkənin Ali Baş Komandanı kimi general libasında yaratmışdır. İctimaiyyət arasında böyük rəğbətlə qarşılanan Heydər Əliyevin portret xalçası rəssamın Ümumilli liderimizinanadan olmasının 75 illiyinə həsr etdiyi hədiyyə idi. Heydər Əliyevin portretini əks etdirən xalı Naxçıvan şəhərində Heydər Əliyev Muzeyində sərgilənməklə yanaşı, muzeydə ən dəyərli portret janrında toxunmuş xalılarındandır.

Portret təsvirli xalılar, adətən, "Türkbaf" ilməsi ilə toxunur. Bu da rəsmin dəqiq, real təsvirini təmin edir. Bu xalılar çox sıx toxunması ilə də səciyyəvidir. Texniki cəhətdən portret xalçalığı yüksək professionallıq tələb edir. Bütün bunlar, xalçalardakı portretlərin orijinala oxşamasına da böyük təsir göstərir.

Kamil Əliyev yaradıcılığının əsasını Təbriz elit rəssamlıq məktəbi və Bakı məktəbinin xovlu xalça toxunuş üslubu təşkil edir. Bu kübar əsərlərin ərsəyə gəlməsində də müəllif bədii və texnoloji üslubuna görə əsasən iki təməlli örnəkdən bəhrələnir. Onlar ən birincisi kompozisiya quruluşu, əyrixətli ornamental üslub, keyfiyyətli sıx toxuma texnikası baxımından və süjetli xalçaların daha çox üstünlük təşkil etdiyi klassik Təbriz xalçalarına və kolorit həllindəki incə, yumşaq

tonlara görə Bakı xalça məktəbinə daha yaxındır. Özünün də etiraf etdiyi kimi Kamil Əliyev qızılı rəngi çox sevirdi. Bu rəng onun gözündə bütün rəng çalarlarına yaraşıq verirdi. Bu rəngin müxtəlif tonlarına ilk əvvəl miniatür kitablarında rast gələn rəssam o effekti xalçalar üzərində də qazanmağa nail olmuşdur.

Kamil Əliyev yaradıcılığının diapazonu çoxşaxəlidir. Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsərləri zirvəsinə ucalmışlar. O, Azərbaycan incəsənətini yüksəklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir. Rəssamın əsərləri Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və başqa şəhərlərin nüfuzlu muzey və qalereyalarında nümayiş etdirilmişdir. Onun müəllifi olduğu xalçalar dünyanın məşhur muzeyləri və şəxsi kolleksiyalarında saxlanılır [3, s. 1; 4, s. 3].

Tərtibatçı rəssamın tərtib etdiyi və eskizlərini işlədiyi Azərbaycan xalçaları, əsasən də portret janrında toxunan xalçaların yaradılmasında ənənə və güclü genetik yaddaşın izləri də özünü göstərir. Kamil Əliyev Azərbaycan yazıçılarının, eləcədə xarici ölkə yazıçılarının, ictimai xadim və siyasətçilərin, tanınmış şəxsiyyətlərin portretlərini yaradarkən portret janrının bədii xüsusiyyətlərilə yanaşı, Azərbaycan tətbiqi sənətində, əsasən də xalçaçılıq sənətində çox geniş yayılmış ornamental rəsm həllinə də geniş yer vermişdir. Xalçalar üzərində əsərlərini tərtib edərkən onun kompozisiya və naxışların yeni tapılmış maraqlı formalarına da tez-tez təsadüf edilir. Kamil Əliyev yaratdığı xalçalarda portret janrının mövzu zənginliyini göstərməklə yanaşı, Azərbaycan xalçaçılıq sənətinin də professional üslubunu yeni bədii formalarla daha da zənginləşdirmişdir.

## ƏDƏBİYYAT

1. Təsviri incəsənət 7. Görkəmli rəssamlar. 174 s.
2. Əliyeva K. Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrinə aid seçilmiş məqalələrin toplusu. I hissə, Bakı: Ekoprint, 2019, 552 s.
3. Xalq rəssamı Kamil Əliyev sərgi və konferansla anılır. "525-ci qəzet", 2021.
4. Mükərrmoğlu M. Kamil Əliyev-90. Onun əsərləri dünyanın məşhur muzeylərini bəzəyir. "Xalq qəzeti", 2021, 21 noyabr.
5. www.google.com. Kamil Əliyevin həyat və yaradıcılığı. 5 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: gulnare_qenberova65@yahoo.com***

**Gulnara Ganbarova**

## THE ROLE OF THE CARPET-MAKER KAMIL ALIYEV IN THE CREATION OF PORTRAIT CARPETS OF AZERBAIJAN

The roots of carpet weaving in Azerbaijan go back to ancient times. In the Middle Ages, this art developed in the regions, carpet weaving schools formed. Along with skilled artisans, graphic designers were also brought up in these schools. Kamil Aliyev is one of these artists; he formed himself as a graphic designer and contributed to the development of carpet weaving in Azerbaijan.

The work of Kamil Aliyev is very diverse and rich. He is one of the artists who raised Azerbaijan's folk arts and crafts to a new height. Preserving the subtleties of folk art in his works, he enriched it even more, creating colorful national patterns, shades of color, various compositions, and plots on the carpet.

In the art of carpet weaving in Azerbaijan, in creating carpets with a plot, especially in the portrait genre, Kamil Aliyev made a significant contribution. The range of creativity of Kamil Aliyev is multifaceted. The carpets he created are undoubtedly works of high art. He is one of the prominent figures who raised Azerbaijani art to a higher level and enriched it with his works. The artist's works have been exhibited in prestigious museums and galleries in Paris, London, Tokyo, Delhi, Ankara, Istanbul, Tehran, Moscow, Kyiv, and other cities.

**Keywords:** *Azerbaijani carpet, school of carpet weaving, portrait genre, composition, designer.*

**Гульнара Ганбарова**

## РОЛЬ ХУДОЖНИКА-КОВРОДЕЛА КАМИЛЯ АЛИЕВА В СОЗДАНИИ ПОРТРЕТНЫХ КОВРОВ АЗЕРБАЙДЖАНА

Корни ковроткачества в Азербайджане уходят в глубокую древность. Уже в средние века в регионах развивалось это искусство, формировались школы ковроткачества. В этих школах наряду с искусными мастерами воспитывались также художники-оформители. Кямиль Алиев – один из таких художников, он сформировался как художник-оформитель и внес свой вклад в развитие искусства ковроткачества в Азербайджане.

Творчество Кямиля Алиева очень разнообразно и богато. Он - один из художников, поднявших народное декоративно-прикладное искусство

Азербайджана на новую высоту. Сохраняя в своих произведениях тонкости народного творчества, он еще больше обогатил его, создавая на ковре колоритные национальные узоры, оттенки цвета, разнообразные композиции и сюжеты.

В искусстве ковроткачества в Азербайджане, в создании ковров с сюжетом, особенно в жанре портрета, велик вклад Кямиля Алиева. Диапазон творчества Кямиля Алиева многогранен. Созданные им ковры, несомненно, являются произведениями высокого искусства. Он является одним из видных деятелей, поднявших азербайджанское искусство на более высокий уровень и обогативших его своими произведениями. Работы художника выставлялись в престижных музеях и галереях Парижа, Лондона, Токио, Дели, Анкары, Стамбула, Тегерана, Москвы, Киева и других городов.

**Ключевые слова:** *Азербайджанский ковер, школа ковроткачества, портретный жанр, композиция, дизайнер.*

**CAVİD İSMAYILOV**

# KAMİL ƏLİYEV YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

*Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan xalça sənətinin XX əsrdə yeni bədii-estetik keyfiyyətlərlə zənginləşdiyi danılmazdır. Bu dəyişikliklərin baş verməsində yaxından iştirak edən xalçaçı-rəssamlardan biri də Xalq rəssamı Kamil Əliyev (1921-2005) olmuşdur.*

*Onun əsasən İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edən yaradıcılığı portretlərlə yanaşı həm də ornamental xalçalar təşkil edir. Portret yaradıcılığına 1958-ci ildə yaratdığı "Məhəmməd Füzuli" xalçası ilə başlayan rəssam, sonrakı illərdə bir çox məşhur şəxsiyyətlərin portretini ərsəyə gətirmişdir. Onların arasında Ümumilli lider Heydər Əliyev, Mustafa Kamal Atatürk, Süleyman Dəmirəl, akademik Zərifə Əliyeva, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şota Rustaveli, Mirzə Fətəli Axundzadə, Rabindranat Taqor və digər tanınmış şəxsiyyətlərin obrazları vardır. Bundan əlavə o, "Mənim anam", "Mir Mövsüm Ağa" və zərif naxışlar məcmusundan ibarət olan "Tirmə", "Butalı", "İslimibəndlik", "Göllü", "Qımıl", "Sandıqça", "Qızıl xalça" və s. ornamental xalçaların müəllifidir.*

*Əsərlərinin təsirliliyini əldə etmək yönündə portretlərin inandırıcı-realistik formalı olmasından və incə koloritdən uğurla istifadə yəqin ki, Kamil Əliyev xalçalarının səciyyəvi bədii xüsusiyyətlərindəndir. Qətiyyətlə demək olar ki, o, yarım əsrlik bədii yaradıcılığı ilə Azərbaycan xalçaçılığında yeni səhifə açmaqla, həm də əsərlərinin təkcə özünəməxsus rəng çalarları ilə tanınmasına nail olmuşdur.*

**Açar sözlər:** *kolorit, xalça, kompozisiya, rəssam, ornament, bədii xüsusiyyət.*

Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan xalçasının uzaq-yaxın keçmişinə nəzər yetirsək, onun bədii tutumunda baş verən ciddi dəyişikliklərin bilavasitə XX əsrdə baş verdiyini deyə bilərik. Bunu şərtləndirən səbəblərdən başlıcası sovet dönəmində xalçaçılıqla məşğul olan dövlət müəssisələrinin yaradılması, elmi-tədqiqat müəssisələrində onun tarixinin tədqiqatına başlanılması, paytaxtda yeni açılmış Bakı Rəssamlıq Texnikumunda xalq sənətlərinin tədrisinin həyata keçirilməsi olmuşdur. Ötən əsrin otuzuncu illərində xalça sənəti ənənələrini professionalcasına öyrənmək istəyi ilə həmin təhsil ocağına üz tutan gənclərdən biri də Kamil Müseyib oğlu Əliyev (1921-2005) olmuşdur.

Tanışlıq üçün deyək ki, o, 1921-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olsa da, sonrakı həyatı Bakı ilə bağlı olmuşdur. Belə ki, onun 11 yaşı olanda Əliyevlər ailəsi Bakıya köçmüşdür. Lakin bundan iki il sonra atasının vəfat etməsi anası Xanımı və evin azyaşlı beş uşağını çətinliklərlə üz-üzə qoymuşdur. Buna baxmayaraq anası var gücü ilə hələ kiçik yaşlarından rəsm çəkməyə böyük həvəs göstərən və məktəbdə "balaca rəssam" ayaması ilə tanınan Kamilin arzusunun çiçəklənməsinə çalışmışdır. Yeddiillik təhsildən sonra (1935)

Kamilin Bakı rəssamlıq texnikumunun tələbəsi adını qazanmasını da bunun göstəricisi saymaq olar. O vaxtlar respublikadakı istedadlı uşaqların bir araya gəldiyi nüfuzlu təhsil ocağında onun bilavasitə, xalq sənəti sahəsinə böyük maraq göstərməsi də ailələrində əvvəlcə nənəsinin, sonra isə anasının xalça toxuculuğunu yaşatmalarından qaynaqlanmışdır. Onun məktəbin "Teatr-dekorasiya sənəti" bölməsində təhsil almasına baxmayaraq, xalçaçılığa davamlı diqqət yetirməsi və bu sahəyə aid maraqlı layihələr hazırlaması zamanında onu əhatələyənlərin diqqətindən yayınmamışdır. Atasız evdə həm də ailənin çörək pulunu qazanmaq məsuliyyətini daşımalı olan gənc rəssam, boş vaxtlarında yerinə yetirdiyi müxtəlif sifarişlərlə ailələrinə böyük maddi dəstək versə də, sonda yaxınlarının tövsiyəsi ilə təhsildən ayrılmadan "Azərxalça" birliyində işə düzəlmişdir. Başqa sözlə desək, o, həmin birliyin təcrübi emalatxanasında "surətçıxaran rəssam" qismində çalışmaqla, arzusunda olduğu xalça dünyası ilə baş-başa qalmaq imkanı əldə etmişdir. Həmin illər SSRİ-də Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi ərəfəsinə təsadüf etdiyindən, gənc Kamil tanınmış rəssamların Lətif Kərimovun rəhbərliyi altında yaratdıqları "Xəmsə" mövzulu beş xalçanın bədii-texniki həllinin gerçəkləşməsində yaxından iştirak edir. Bu prosesdə respublikanın tanınmış yaradıcı simaları ilə sıx əməkdaşlığı gənc xalçaçı üçün böyük məktəb olur...

Az sonra İkinci Dünya müharibəsinin başlanması onun gələcək arzularının qarşısına "sədd" çəkir və o, cəbhəyə yollanmaq məcburiyyətində qalır. Qanlı-qadalı müharibə illərində I Belarus cəbhəsində döyüşən gənc rəssam, cəbhədən ordu-medalla qayıdır və çox tezliklə müvəqqəti olaraq ayrıldığı sahədə çalışmağa və yaradıcılıq axtarışlarını davam etdirməyə başlayır. Kamil Əliyevin zamanında "Ümumittifaq Ticarət Reklamı"n Baş direktoru, Bədii Fondun Yaradıcı-İstehsalat Kombinatının və Bakı Zərgərlik Fabrikinin direktoru, Yerli Sənaye Nazirliyi İstehsalat şöbəsinin müdiri, ən nəhayət, "Azərxalça" Elmi İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışması, onun bacarıqlı təşkilatçı olduğunu nümayiş etdirmişdir...

Əgər bu gün onun görkəmli xalçaçı-rəssam kimi keçdiyi yaradıcılıq yoluna nəzər salıb dəyərləndirməli olsaq, onda ilk növbədə sənətkarın 1958-ci ildə ərsəyə gətirdiyi "Məhəmməd Füzuli" əsərinin adını çəkməliyik. Dahi şəxsiyyətin vəfatının 400 illiyi münasibətilə toxunan bu xalçanı rəssamın özündə ənənə və müasirliyin qovşağını yaşadan əsərlərinin ilki hesab etmək olar. Əsərin mərkəzi hissəsində şairin portretini yerləşdirən müəllif, onun ətrafını və müxtəlif ölçülü haşiyələrini müxtəlif naxışlarla bəzəməklə, obrazla onun əhatələndiyi bədii aura arasında uğurlu əlaqə yaratmış, kompozisiyanın arzulanan bədii bütövlüyünün əldə olunmasına nail olmuşdur. Xalçanın ümumi estetikasında rənglərin yığcam-

lığına və dekorativliyinə üstünlük verilməsi, “qəm şairi”nin cəlbedici və düşündürücü portretinin yaradılması ilə nəticələnmişdir. Əsərin diqqətçəkən məqamı Kamil Əliyev miniatür üslubu ənənələrindən yaradıcılıqla faydalanmaqla, bədii şərtliyi qabarıq duyulan sənət nümunəsi ərsəyə gətirməsidir. Başqa sözlə desək, müəllif bu əsərində obrazın real ikonoqrafik əlamətlərini qorumaqla, onun stilizə yolu ilə “xalça dili”nə uyğunlaşdırılmasına nail olmuşdur. Yeri gəlmişkən deyək ki, dekorativ-tətbiqi sənət sahəsində bunun əldə olunması vacib və önəmli bədii məziyyətlərdəndir. Qeyd edək ki, bu əsər onun ictimaiyyət arasında və xalçaçılıq məkanında istedadlı portret ustası kimi tanınmasına səbəb olmuşdur.

Bu ilk böyük uğur gənc rəssamı bu yöndə yeni-yeni əsərlər yaratmağa həvəsləndirdi. Beləcə, zamanın axarında müəllif dünyanın və Azərbaycanın bir çox məşhurlarına həsr olunmuş portret-xalçalarının ərsəyə gətirdi. Onların arasında Ümumilli lider Heydər Əliyev, Mustafa Kamal Atatürk, Süleyman Dəmirəl, Zərifə Əliyeva, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şota Rustaveli, Mirzə Fətəli Axundzadə, Rabindranat Taqor və digər tanınmış şəxsiyyətlərin obrazları vardır. Bundan əlavə o, “Mənim anam”, “Mir Mövsüm Ağa” və “Tirmə”, “Butalı”, “İslimibəndlik”, “Göllü”, “Qımıl”, “Sandıqça”, “Qızıl xalça” və s. ornamental xalçaların müəllifidir.

Kamil Əliyevin yaradıcılığında əsas yer tutan portretlərin bədii xüsusiyyətlərini incələməli olsaq, onda onun bu janrın estetikasını əvvəllər rast gəlinməyən bədii yozumla zənginləşdirdiyini deməliyik. Əgər “Məhəmməd Füzuli” xalçası ilə yanaşı, ötən yüzilliyin yetmişinci illərində ərsəyə gətirdiyi “İmadəddin Nəsimi” (1973) və “Nizami Gəncəvi” (1978) əsərlərində ikonoqrafik oxşarlığın əldə olumasında nisbi stilizə və şərtilik daha qabarıqdırsa, onlardan sonrakı yaradıcılıq nümunələrində müəllifin dekorativ-tətbiqi sənətə realist-gerçəkçi ənənələri gətirmək istəyi duyulmaqdadır. Etiraf edək ki, zamanına görə bu çox cəsarətli addım idi. Müxtəlif miqyaslı sərgilərdə ictimailəşən bu sənət nümunələrinə mütəxəssis təqdiri və sənətsevər marağının duyulan olması, onun bu istiqamətdəki axtarışlarına daha da təkan vermiş oldu.

Əgər bu portret-kompozisiyalar əvvəllər düzbucaqlı formatda təqdim olunurdusa, tədricən onların oval və dairəvi formatlarla əvəzləndiyinə şahidlik edirik. Başqa sözlə desək, şaquli formatlı xalçalarda əsas yeri portret, obrazın kimliyini tanıdan yazılı “kətəbə” və müxtəlif ölçülü haşiyələr tutur. Elə onun “İmadəddin Nəsimi” və “Nizami Gəncəvi” xalçaları bunun gözəl nümunəsi sayıla bilər. Nəbati ornamentlərdən, xüsusilə də “İslimi” və “Buta”lardan geniş istifadə edən müəllifin zənginliyi kifayət qədər qabarıq duyulan ümumi dekorun bədii bütövlüyünə nail olmuşdur. Kamil Əliyevin yaradıcılıq axtarışlarında şəxsiyyətinə müraciət etdiyi insanların həm ömür, həm də sənət yolunu özündə ehtiva edən obrazlılığın əldə olunmasına çalışması yəqin ki, onu bir yaradıcı kimi

başqalarından fərqləndirən bədii-estetik xüsusiyyətdir. Bu mənada dünya poeziyasının parlaq ulduzlarından hesab olunan "Nizami Gəncəvi" xalçasında koloritin bir qədər soyuqluğu filosof-şairin bədii irsinin düşündürücülüyünün ifadəçisidirsə "İmadəddin Nəsimi" əsərindəki rəng "qaynarlığı" orta əsrlərin bədii-dini məkanını təlatümə gətirən şairin üsyankarlığına işarədir...



Ümummilli lider Heydər Əliyevin portreti, 1980-ci il




İmadəddin Nəsiminin portreti, 1973-cü il.

Əsərlərinin təsirliliyini əldə etmək yönündə koloritdən istifadə yəqin ki, Kamil Əliyev xalçalarının səciyyəvi bədii xüsusiyyətlərindəndir. Qətiyyətlə demək olar ki, o, yarım əsrlik bədii yaradıcılığı ilə Azərbaycan xalçaçılığında yeni səhifə açmaqla, həm də əsərlərinin təkcə özünəməxsus rəng çalarları ilə tanınmasına nail olmuşdur. Etiraf edək ki, bunun xalça kimi çətin bir sahədə əldə olunması yalnız müəllifin davamlı axtarışlarının sayəsində gerçəkləşmişdir. Onun "Şota Rustaveli" (1981), "Ümummilli lider Heydər Əliyev" (1980), "İndira Qandi" (1985), "Rabindranat Taqor" (1987) və s. xalçalarında koloritin duyulası ovqat daşıyıcısı olması qabarıq görünür.

Xalçaçı-rəssamın yaradıcılığında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin obrazı xüsusi yer tutur. Belə ki, o, 1980, 1998,1999 və 2004-cü illərdə görkəmli dövlət xadiminin bir-birindən fərqli portretlərini yaratmışdır.

Doğrudan da bu sənət nümunələrində format baxımından müəyyən yaxınlıq duyulsa da, obrazın xarakterinin açılmasına münasibətdə özünəməxsus müəllif axtarışlarının yenilənməsinə şahidlik etmək mümkündür. Rəssam öz qəhrəmanını rəsmi geyimdə – dövlət xadimi kimi, general libasında – hərbçi kimi göstərməklə yanaşı, həm də rəsmi qayğılardan azad durumda – ev şəraitində təqdim etməklə, onun tarixi obrazına zamansızlığa qovuşmaq gücündə olan bədii tutum verə bilmişdir. Bu üç portretin hər birində məqsədli olaraq fərqli koloritə üstünlük verən müəllif, bununla da obrazın daşıdığı mənəvi-psixoloji yükün inandırıcılığını əldə etmişdir.

Əgər Ümummilli lider Heydər Əliyevə həsr olunmuş əsərlərdə şəxsiyyətin ucalığı və möhtəşəmliyi önə çəkilibsə, dövlət xadiminin ömür-gün yoldaşı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (2001) obrazında qadın zərifliyin cəlbedici ifadəsinə nail olmaq müəllifin başlıca məqsədi olmuşdur. Zərifə xanımın xalçanın zoğalı yerlikli ara sahəsində – xırda nəbati elementlərdən tərtib olunmuş çərçivə ilə əhatələnmiş portretində onun gülərüzlü xoş siması yaddaqalan bədii tutumda əyaniləşdirilmişdir.




Ümummilli lider Heydər Əliyevin portreti, 2004-cü il.
Akademik Zərifə Əliyevanın portreti, 2001-ci il.

Kamil Əliyevin bədii irsində müşahidə olunan müsbət məziyyətlərdən biri də onun zaman-zaman klassik irsə, məlum xalça kompozisiyalarına yaradıcı münasibət göstərməsi, bunun nəticəsində milli bədii irs saxlancımızı yeni estetikalı əsərlərlə zənginləşdirməsidir. Onun müxtəlif illərdə ərsəyə gətirdiyi “Quşlu”,

"Butalı", "Türünc", "Tirmə", "Nazənin" və s. kompozisiyalarında ənənə ilə müasirliyin uğurlu vəhdətini görmək mümkündür.

Bütün həyatını qədim xalça sənəti ənənələrinin yaşadılmasına və inkişafına həsr etmiş Kamil Əliyevin yaradıcılığı Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin sənətsevərlərinə də yaxşı tanışdır. Bu onun həmin ölkələrdə (Türkiyə, Nepal, Hindistan, İran, İngiltərə və s.) fərdi sərgilərinin təşkili sayəsində gerçəkləşmişdir.

O, Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafına verdiyi töhfələrə görə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" və "Azərbaycan Respublikasının Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, "İstiqlal" və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. Bakıda onun ev-muzeyi fəaliyyət göstərir.

## ƏDƏBİYYAT

1. Əliyev K. Xalça sənəti. Bakı: Sərvət, 2013.
2. Əfəndiyev R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007.
3. Kərimov L. Azərbaycanda xalçalarının naxış elementlərindən nümunələr. Bakı: Elm, 1983.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: cavidismayılov1978@gmail.com***

**Javid Ismayilov**

## ARTISTIC FEATURES OF KAMIL ALIYEV'S WORKS

Azerbaijani carpet art which has a centuries-old history and rich artistic traditions was enriched with new artistic and aesthetic qualities in the XX century. People's artist Kamil Aliyev (1921-2005) was among carpet weavers who actively participated in these changes.

His creativity, which mainly dates back to the World War II period, includes portraits and ornamental carpets. The artist started his portrait work with the "Mohammad Fuzuli" carpet, which he created in 1958, and in the following years, he created portraits of many famous personalities. Among them are "Nizami Ganjavi," "Imadeddin Nasimi," "Shota Rustaveli," "Alexander Sergeyevich Pushkin," "Mirza Fatali Akhundzadeh," "Rabindranath Tagore," "Heydar Aliyev," "Mustafa Kemal Ataturk," "Turgut Ozal," "Suleyman Demirel," "Zarifa Aliyeva" and the carpets dedicated to other celebrities. In addition, he is the author of the carpets "My Mother," "Mir Movsum Agha," "Self-Portrait" and a collection of delicate patterns "Tirma," "Butali," "Islimibandlik," "Gollu," "Gimil," "Sandigcha," "Gyzyl khalcha" and some other ornamental carpets.

The characteristic artistic features of Kamil Aliyev's carpets are the convincing-realistic style of the portraits and the successful use of subtle colors to achieve the effectiveness of his works. We may say that with his half-century of artistic creativity, he opened a new page in the carpet weaving art in Azerbaijan and his works are recognized for their unique colors.

**Keywords:** *color, carpet, composition, artist, ornament, artistic feature.*

**Джавид Исмаилов**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА КЯМИЛЯ АЛИЕВА

Несомненно, азербайджанское ковровое искусство, имеющее многовековую историю и богатые художественные традиции, в XX веке обогатилось новыми художественными и эстетическими качествами. Народный художник Кямиль Алиев (1921-2005) был одним из ковроткачей, принявших активное участие в этих изменениях.

Его творчество в основном относится к периоду после Второй Мировой Войны и включает не только портреты, но и орнаментальные ковры. Художник начал свою портретную работу с ковра «Мохаммад Физули», созданного в 1958 году, а в последующие годы он создал портреты многих известных личностей. Среди них «Низами Гянджеви», «Имадеддин Насими», «Шота Руставели», «Александр Сергеевич Пушкин», «Мирза Фатали Ахундзаде», «Рабиндранат Тагор», «Гейдар Алиев», «Мустафа Кемаль Ататюрк», «Тургут Озал», «Сулейман Демирель», «Зарифа Алиева», а также образы других известных личностей. Кроме того, он является автором декоративных ковров «Моя мама», «Мир Мовсум Ага», «Автопортрет», коллекций изящных узоров «Тирма», «Бутали», «Ислимибандлик», «Голлу», «Гимил», «Сандыгча», «Гызыл халча» и т.д.

Безусловно, характерными художественными чертами ковров Кямиля Алиева являются убедительно-реалистический стиль портретов и удачное использование тонких оттенков для достижения эффектности работ. Можно сказать, что своим полувековым художественным творчеством он открыл новую страницу в ковроткачестве Азербайджана, его работы известны оригинальными цветовыми оттенками.

**Ключевые слова:** *цвет, ковер, композиция, художник, орнамент, художественная особенность.*

TOĞRUL CƏFƏRLİ

# BÖYÜK DÜHA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI XALQ RƏSSAMI KAMİL ƏLİYEVİN YARADICILIĞINDA

*Ümummilli liderin xalqı qarşısında mühüm xidmətlərinin nəticəsidir ki, Azərbaycan xalqı dahi rəhbərin adının əbədiləşdirilməsi, yaddaşlarda əbədiyaşarlıq qazanması istiqamətində müəyyən addımlar atmışdır. Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənəti tarixində dahi rəhbərin adını daşıyan sənət əsərləri mədəniyyət mərkəzləri, incəsənət nümunələri, obrazının yaradıldığı ədəbi əsərlər ulu öndərə Azərbaycan ziyalılığının verdiyi qiymətdir. Müstəqillik illərində digər sahələrdə olduğu kimi görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı nəticəsində güclü inkişafa qovuşan Azərbaycan incəsənəti dahi rəhbərin adını əbədiləşdirmək, onun ömür yolunun müxtəlif səhifələrini canlandırmaq baxımından əvəzsiz inciləri olan sənət əsərləri Azərbaycan incəsənəti tarixində mühüm bir mərhələ təşkil etmişdir. Dahi rəhbərin sayəsində qüdrətli inkişafa qovuşan müstəqil Azərbaycan dövlətinin mövcud olduğu illər ərzində də Ümummilli lider Heydər Əliyev dühasının fəaliyyəti rəssamlığımızda, incəsənətin bütün sahələrində yaradılan möhtəşəm sənət əsərlərində öz əksini tapmışdır. Təbii ki, rəssamlığımızda Ümummilli lider Əliyevin bədii obrazına müraciət edən görkəmli rəssamlar sırasında böyük vətənpərvər, Xalq rəssamı, "İstiqlal" ordenli Kamil Əliyevin özünəməxsus yeri və rolu vardır. Bu mənada məqalədə Heydər Əliyev dühasını portret-xalçalarında əbədiləşdirən Kamil Əliyevin əsərləri sənətşünaslıq elmi müstəvisində geniş təhlilə cəlb edilmişdir.*

**Açar sözlər:** *Ümummilli lider Heydər Əliyev, Kamil Əliyev, xalça, portret-xalça, süjetli xalça, obraz.*

Milli köklərə söykənən, milli özünüdərk ideyalarımıza xidmət edən, dünənimizdən bu günümüzədək tariximizi özündə saxlayan xalçaçılıq sənətimiz mədəni irs kimi bir çox sənətkarlarımızın ilham mənbəyinə çevrilmişdir. Bu sənətin qorunmasında və inkişafında mühüm xidmətlər göstərmiş sənət fədailərimizdən biri də, sözsüz ki, Xalq rəssamı Kamil Əliyevdir. Mədəniyyət tariximizdə öz əbədi izlərini salmış böyük vətənpərvər Kamil Əliyev çoxşaxəli və orijinal üslubu ilə qədim xalçaçılıq sənətimizin qorunmasına və inkişafına öz mühüm töhfələrini vermiş sənətkarlardan biridir.

Kamil Əliyev yaradıcılığının diapazonu çoxşaxəli və əhatəli olmaq baxımından olduqca əhəmiyyətə malikdir. Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsərləri zirvəsinə ucalmış və bu gün də öz əhəmiyyətini itirməmişdir. Kamil Əliyev xalçalarının bu mükəmməl səviyyəyə gəlməsi üçün nə qədər dəqiqlik, neçə-neçə mürəkkəb texnoloji mərhələləri keçmək, əvvəlcədən düşünülmüş böyük ideyaların üzərində təkrar-təkrar təkmilləşdirmə aparıb, səbirlə bədii quruluşu – haşiyə, ara sahələr, rənglər və naxışlar arasında vəhdət yaratmaq

və ən nəhayət, obrazı incə ilmələrlə xalça üzərində toxuyub canlı bir şəkildə göstərmək lazım gəlirdi. Kamil Əliyev yaradıcılığını hər zaman möhtəşəm edən mühüm amillər sırasında şübhəsiz ki, xalçalarda yüksək sıxlığı əldə etmək üçün hansı növ yun, hansı qalınlıqda iplik, hansı təbii tərkibdən alınacaq lazımi rəng, bir rəngdən digərinə keçid və s. dəqiqliklə duymaq qabiliyyəti var idi. Kamil Əliyev yaradıcılığının təntənəsinin mərkəzində isə təmkinlə ideyanı düşünmək, onun üzərində təkmilləşdirmələr aparmaq, xalçanın hər bir detalı üzərində iş aparmaq və xalq dilində desək nazını çəkmək dayanırdı. Təbii ki, bunların hər birindən əvvəl yaradıcı insan üçün hər zaman oxumaq, öyrənmək, araşdırmaq vacib və gərəkli olmuşdur. Bu əsasda deyə bilərik ki, Kamil Əliyev də əvvəlcə oxuduğu miniatür kitablarında rast gəldiyi rənglərlə yaradıcı düşüncəsini bir araya gətirməklə xalçalar üzərində effektiv obrazlar yaratmağa nail olurdu.

Kamil Əliyev yaradıcılığının zirvəsində dayanan mövzulardan başlıcası və demək olar ki, əsasları məhz portret – xalçalardır. Kamil Əliyev öz təkrarsız sənəti, orijinal ornament və naxışları ilə, qədim Azərbaycan xalça sənətinin ənənələri əsasında yaratdığı müasir portret – xalçaları ilə son dərəcə mühüm, dövlət əhəmiyyətli bir missiyanı, ölkəmizi, odlar yurdumuzu beynəlxalq aləmdə tanıtmaq, dünyanın nəzərlərini əbədi sənət diyarımıza – Azərbaycanımıza çevirmək missiyasını peşəkar diplomatlar səviyyəsində yerinə yetirib desək yanılmarıq.

O, Azərbaycanın qədim və əbədiyaşar xalça sənətinə yeni çalar, orijinal bir üslub gətirmiş, xalçaçılığın milli koloritə, tarixi köklərə söykənən portret-xalça janrına vətəndaşlıq hüququ qazandırmış və bu müqəddəs xalq sənətinə sevgisini göstərə bilmişdir.

Kamil Əliyev keçən əsrin 60-cı illərindən başlayaraq dünyanın bir çox tanınmış şəxsiyyətlərinin – Məhəmməd Füzulinin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Mirzə Fətəli Axundzadənin, Şota Rustavelinin, Mustafa Kamal Atatürkün, Süleyman Dəmirəlin, Rabindranat Taqorun və İndira Qandinin portretlərini xalça üzərində böyük ustalıqla yaratmışdır [3].

Portret-xalçalar silsiləsinə daxil olan, zənginlik baxımından hər zaman əbədiyaşarlıq qazanmış, Kamil Əliyev sənətinin şah əsərləri sayılanlar sırasında şübhəsiz ki, Ümummilli lider Heydər Əliyevə həsr etdiyi portret-xalçalar xüsusilə seçilməkdədir.

Ümummilli lider Heydər Əliyev dühasını xalçalarda əbədiləşdirən görkəmli rəssam gələcək qəhrəmanı – Ulu öndər Heydər Əliyev haqqında böyük məhəbbətlə bu fikirləri söyləmişdir: "Artıq Füzulinin portreti mənə şöhrət gətirmişdi, elə həmin vaxtlarda düşünürdüm ki, əgər müasirlərimizdən hansınınsa portretini yaratmaq istəsəm, bu hökmən Heydər Əliyev olacaqdır. Sonralar biz onunla tez-tez görüşməli olurduq, çünki o mənim yaxın qohumum olan Əziz Əliyevin qızı Zərifə xanımla evlənmişdi. Bizim aramızda sadəcə qohumluq deyil, səmimi dost-

luq münasibəti yaranmışdı. 1967-ci ilin 6 noyabrında olan görüşüm isə indi də gözlərimin qabağındadı. Evlərində ziyafət təşkil eləmişdilər. Sən demə, belə cavankən general rütbəsi almış, bu mühüm hadisənin şərəfinə dostları, qohum-qardaşı bir süfrə arxasına toplamışdı. Düşündüm ki, belə cavankən, bu yüksək çinə (rütbə, vəzifə) layiq görülmək üçün Vətən qarşısında gör nə qədər xidmətlər göstərməlisən... İnanın elə həmin gün onun portret-xalçasını yaratmaq arzusu doğdu qəlbimdə... Bu mənzərə yaddaşıma əbədi həkk olundu. Və fantaziyamın gücü ilə bu xəyali obraza yeni-yeni detallar əlavə etməklə xatirimdə xeyli müddət yaşatdım" [4, s. 45].

Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə dünya ölkələrinə rəsmi səfərlərə getdiyi zaman, çox vaxt Xalq rəssamı Kamil Əliyevi də özü ilə apardı, özü də getdikləri ölkənin dövlət xadiminin rəsmi təsvir olunmuş portret xalçası ilə.

Şərq adətlərinə görə, monarxlara inam və etibarın, mehriban münasibətlərin möhkəmləndirilməsinin rəmzi olaraq onlara xalça bağışlanardı. Bu səfərlərdə də həmin rolu məhz Kamil Əliyev oynamışdır.

Beləliklə, Ümummilli lider Heydər Əliyevlə hər görüşdən sonra onun obrazının yeni eskizlərini cızan Kamil Əliyev axtarışlarını nəhayət sona yetirdi. Xalq rəssamı 1980-ci ildə Azərbaycanın inkişafı naminə böyük işlər görmüş, Azərbaycan KP MK-nın I katibi kimi səmərəli fəaliyyət göstərən dövlət xadimi Heydər Əliyevə həsr etdiyi ilk portret-xalçası olan "Azərbaycanın qəhrəman oğlu" adlı əsərini tamamladı. Portretdə qəhrəmanın ciddi, zabitəli baxışlarıyla yanaşı, insanlara sevgi xeyirxahlıq hissləri aşılayan bir mənzərə təsvir olunmuşdur.

Rəssam, məhz Kamil Əliyev xalçalarına xas olan dərin fikirli ornamental kompozisiya yaratmış, burada da kamillik və mənəvi gözəllik dünyasının üstünlüklərini verə bilmişdi. Həmçinin psixoloji cəhətdən bitkin bir obraz yaratmış, müdrik rəhbərin, uzaqgörən siyasi xadimin xüsusiyyətlərini daha parlaq şəkildə əks etdirmişdir. Rəssam öz xatirələrini yada salaraq danışırdı: "1993-cü ildə Heydər Əliyev yenidən hakimiyyətə gəldi. İndi o ölkənin Prezidenti, həm də Ali Baş Komandanı idi. Onun 75 illik yubileyinə respublikamızda ciddi hazırlıq gedirdi. Mən də xalçaçı-rəssam kimi dostumun ad gününə hədiyyə etməyi düşündüm və qərara gəldim ki, Ali Baş Komandanın xalça üzərində portretini məhz general libasında yaradım. General mundirində isə onu bircə dəfə görmüşdüm və bu formada elə yaraşıqlı görünürdü ki!.. Sonralar da onu formada görürdüm, ancaq general formasında yox. Ümumiyyətlə, Heydər Əliyev bu geyimdə çox az-az olurdu. Yəqin ki, onu bu formada görənlər olub və mənimlə razılaşarlar" [4, s. 51].



Ümummilli lider Heydər Əliyevin portreti, 1980-ci il.

Hər zaman fikrində, düşüncəsində qəti olan, dəqiq yaddaşa, hafizəyə malik olan Xalq rəssamı Kamil Əliyev o illəri xatırlayaraq deyirdi: "Heydər Əliyevin ölkənin Ali Baş Komandanı kimi məhz general libasında portret-xalçasını yaratmağı, onu məhz hərbiçi kimi təqdim etməyi qərarlaşdırdım. Mən bu yeni əsərimdə fərqli ab-hava, əhval-ruhiyyə bəxş etməli, həm də xalçaya məxsus olan, naxışları ona yaraşdırmalı idim. Və bir daha portret-xalça ustası olduğumu təsdiq etməliydim. Bu çox çətin iş idi, asan deyildi".

Bu əsrarəngiz sənətin çətinliyini ulu öndərimiz Heydər Əliyev də öz yaxın dostu Xalq rəssamı Kamil Əliyevin 80 illik yubiley tədbirindəki tarixi çıxışında da dilə gətirmişdi: "Bilirsiniz xalça sənəti olduqca çətin sənətdir. Rəssam kağız üzərində çəkdiyi rəsmin və ya portretin hər hansı bir yeri xoşuna gəlmədikdə onu pozub təzədən çəkə bilər. Xalçada isə belə deyil. Əgər bir ilmə səhv düşərsə, bura qədər toxunmuş yer tamam sökülməlidir, yenidən toxunmalıdır. Amma açığı, Kamil məni xalça üzərində ilmələrin gücü ilə, qüdrəti ilə daha çox özümə oxşadıb..." [4, s. 53]. Ulu öndərin bu dəyərli mülahizələri təkcə Kamil Əliyevin sənətinə verdiyi qiymət deyil, bu həm də dahi şəxsiyyətin xalçaçılıq sənətinə bələdliyinin göstəricisidir.



Ümummilli lider Heydər Əliyevin portreti, 1998-ci il.

Haqqında bəhs etdiyimiz bu əsərdə sanki gənc general təlqinedici, ciddi baxışlarla onu mühüm strateji coğrafi mövqedə yerləşən, zəngin yeraltı və yerüstü sərvətə malik bir ölkədə hakimiyyət zirvəsinə doğru aparan çətin və şərəfli yolu əvvəlcədən seyr edirdi. Bəlkə də nə vaxtsa xalqının ən ağır məqamında onu bir daha parçalanmaqdan qorumaq, müstəqil Azərbaycanı möhkəmləndirmək üçün hakimiyyətə təkrar qayıdışını da qabaqcadan görürdü.

Ümummilli liderin portreti xırda nəbati naxışı olan mavi fonlu, gözəl tərtib edilmiş mərkəzi oval medalyonda yerləşdirilmişdi. Ümummilli lider Heydər Əliyevin üz cizgiləri açıq tonlarda, incəliklərlə tədricən ipliyin daha tünd tonlara keçidi halında yaradılmışdır. Rəssam dekorativ üslubda tərtib edilmiş xalçada uzun və mürəkkəb müdrik rəhbər ömrü yaşamış, öz respublikasının müstəqilliyinə nail olmuş ağıllı, dünyagörmüş bir insan xarakterinin əsas cəhətlərini məharətlə əks etdirə bilmişdir. Rəssam həm oxralı-qızılı, həm də özünün sevdiyi yaşılımtıl tonlarda tərtib edilmiş unikal xalça yaratmışdı. Bu xalçada ornamental kompozisiya bütövlükdə mükəmməl səviyyəyə çatdırılmışdır. Milli "tirməsayağı" naxışın tətbiqi, rəsmi general formasında olan Ümummilli lider Heydər Əliyevin portreti olan oval medalyonun daxil edildiyi orta sahəni çərçivəyə alan geniş ana haşiyə Kamil Əliyevin dərin düşüncəsinin, milli ornamentdən istifadə etmək məharətinin və ən başlıcası, portretdə dərin mütəfəkkir, müdrik hökmdar obrazını əks etdirmək bacarığının göstəricisidir.



Ümummilli lider Heydər Əliyevin portreti, 1999-cu il.

Xalçanın bayram əhval-ruhiyyəsini, tünd rəngdə işlənmiş "islimi – arabeska" elementlərindən ibarət olan ornamental quruluşunu dinamik naxışlar daha da canlandırır. İsliminin bu dinamik, yüngül elementləri həm oval medalyonun kənarlarında, həm də göy fonlu enli haşiyədə istifadə olunmuşdur. Bütün bunlar xalçanın ümumi təntənəli ruhuna xüsusi dəstək verir.

Ulu öndərin xalça üzərindəki daha bir portreti də təxminən eyni üslublu, eyni geyimdə – general formasında olan şəkildə toxundu. Bu xalça isə dahi şəxsiyyətin anadan olmasının 75 illik yubileyinə Kamil Əliyevin dost-sənətkar hədiyyəsi idi [3].

Heydər Əliyevin bu portreti də ictimaiyyət arasında rəğbətlə qarşılandı. Bu, dahi öndərin 75 illiyinə görkəmli xalçaçı-rəssam Kamil Əliyevin ən böyük hədiyyəsi oldu. Həmin portret-xalçanın oxşarı paralel olaraq toxunub hazır olanda Xalq rəssamı onu Ümummilli lider Heydər Əliyevin vətəni, doğulub boya-başa çatdığı yerə – Naxçıvan torpağına göndərdi və bu sənət əsəri bu gün orada Heydər Əliyevin dövlətçilik ideyalarını özündə yaşadan Heydər Əliyev Muzeyində saxlanılır. İndi həmin muzeyə üz tutanlar zəngin eksponatlar arasında həmin xalçanı da zövqlə incələyə bilərlər. Bu xalça Kamil Əliyevin ilk əsərindən sarı rəngin müxtəlif tonlarının üstünlük təşkil etməsi ilə seçilir.

Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqdır".

## ƏDƏBİYYAT

1. https://azertag.az/xeber/Milli_Xalcha_Muzeyinde_Kamil_Aliyev_ressam_ve_dovr_adli_sergi_achilib-1905652
2. Əsədova X. Kamil Əliyev. Sərvət. Bakı: Şərq-Qərb, 2013.
3. Mükərrəmoğlu M. Kamil Əliyev-90. Onun əsərləri dünyanın məşhur muzeylərini bəzəyir. "Xalq qəzeti", 2011, 20 sentyabr, s. 4.
4. Şükürova E.S. (Esmira Fuad). Azərbaycan xalça sənətinin kamili. Bakı: Altun Kitab, 2006, 128 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: ToghrulJafarli777@gmail.com***

**Togrul Jafarli**

## ARTISTIC IMAGE OF THE GREAT GENIUS HEYDAR ALIYEV IN THE WORK OF PEOPLE'S ARTIST KAMIL ALIYEV

The result of the actual merits of the national leader to the people is that the Azerbaijani people have taken specific steps to perpetuate his name gain immortality in memory. Works of art bearing the name of the great leader in the history of Azerbaijani culture, literature and art, cultural centers, works of art, literary works in which his image is created are the assessment of the great figure by the Azerbaijani intelligentsia. During the years of independence, as in other areas, works of art, which are priceless pearls in perpetuating the name of a significant figure in Azerbaijani art, revived various pages of his life and constituted a crucial stage in the history of Azerbaijani art. Genius Heydar Aliyev's activity was reflected in our art and in the magnificent works created in all areas of art during the years of the existence of an independent Azerbaijan state, which has reached robust development thanks to the great leader. Of course, among the outstanding artists who turned to the artistic image of Heydar Aliyev in our art, a great patriot, people's artist, cavalier of the Istiglal order Kamil Aliyev occupies a special place and role. In this sense, the article comprehensively analyzes the works of Kamil Aliyev, who immortalized the genius of Heydar Aliyev in his portrait carpets, from an art history point of view.

**Keywords:** *Heydar Aliyev, Kamil Aliyev, carpet, portrait carpet, plot carpet, image.*

**Тогрул Джафарли**

## ХУДОЖЕСТВЕННЫЙ ОБРАЗ ВЕЛИКОГО ГЕНИЯ ГЕЙДАРА АЛИЕВА В ТВОРЧЕСТВЕ НАРОДНОГО ХУДОЖНИКА КЯМИЛЯ АЛИЕВА

Итогом важных заслуг общенационального лидера перед народом является то, что азербайджанский народ предпринял определенные шаги по увековечиванию его имени, обретению бессмертия в памяти. Произведения искусства, носящие имя великого лидера, в истории азербайджанской культуры, литературы и искусства, культурные центры, произведения искусства, литературные произведения, в которых создан его образ, являются оценкой великого деятеля со стороны азербайджанской интеллигенции. В годы независимости, как и в других областях, произведения искусства, являющиеся бесценными жемчужинами с точки зрения увековечения имени великого деятеля в азербайджанском искусстве, оживили различные страницы его жизни, составили важный этап в истории азербайджанского искусства. Деятельность гения Гейдара Алиева отразилась в нашем искусстве и в великолепных произведениях, созданных во всех областях искусства за годы существования независимого Азербайджанского государства, достигшего мощного развития благодаря великому лидеру. Безусловно, среди выдающихся художников, обратившихся к художественному образу Гейдара Алиева в нашем искусстве, особое место и роль занимает великий патриот, народный артист, кавалер ордена «Истиглал» Кямиль Алиев. В этом смысле в статье с искусствоведческой точки зрения всесторонне анализируются работы Кямиля Алиева, увековечившего гений Гейдара Алиева в своих коврах-портретах.

**Ключевые слова:** *Гейдар Алиев, Кямиль Алиев, ковер, ковер-портрет, сюжетный ковер, образ.*

**LƏMAN MƏMMƏDOVA**

# XALÇAYA YENİ NƏFƏS GƏTİRƏN SƏNƏTKAR KAMİL ƏLİYEV YARADICILIĞININ İNNOVATİV XÜSUSİYYƏTİ

*Tarixin bütün dövrlərində Azərbaycan xalçası, yüksək peşəkarlıq nümunəsi və incə zövqləri oxşaya bilən unikal sənət nümunəsi olduğuna görə öz sözünü demişdir. XX-XXI əsrlər Azərbaycan xalçaçılığın inkişafında xüsusi mərhələ və mahiyyət təşkil edir. Azərbaycan xalça sənəti bu gün öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Dünya mədəniyyət inciləri sırasında mötəbər yeri olan Azərbaycan xalçaları şərəfli təşəkkül yolu keçmiş və bu gün öz yüksək zirvəsinə çatmışdır. Həm bədii, həm də texnoloji cəhətdən dəyərli Azərbaycan xalçalarının yüksək bədii keyfiyyət onları qiymətli muzey eksponatlarına çevirmişdir. Bu gün dünyanın nüfuzlu muzey, qalereya və şəxsi kolleksiyalarında unikal Azərbaycan xalçaları mühafizə olunur. Belə unikal eksponatlar arasında Xalq rəssamı, Azərbaycanın görkəmli xalçaçı-rəssamı Kamil Əliyevin əsərləri xüsusi yer tutur. Kamil Əliyev Azərbaycanın çoxəsrlik xalçaçılıq sənətinə yeni nəfəs gətirib: o, xalça üzərində ilk akademik üslubda realist portret toxuyan usta kimi yaddaşlarda qalıb.*

**Açar sözlər:** *Kamil Əliyev, kolorit, xalçaçı-rəssam, portret, obraz, kompozisiya, xalçaçılıq sənəti, süjetli və ornamental xalçalar.*

Görkəmli sənətkar 84 illik ömrünün böyük bir hissəsini bu sahənin inkişafına və təbliğinə sərf etmişdir. Qədim el sənətimizdə öz dəsti-xəttini qoyan Xalq rəssamı Kamil Əliyev Azərbaycan xalçaçılığının klassiki, rənglər və ilmələr sehrkarı olan qüdrətli sənətkar 1921-ci ildə oktyabrın 22-də anadan olmuşdur. Özündən sonra zəngin irs qoyan Xalq rəssamı Kamil Əliyevin həyat və yaradıcılıq yolu çox dolğun və maraqlıdır. Görkəmli sənətkar ömrünün sonuna yaxın İçərişəhərdə özünün Xalça Evini yaradaraq gələcək nəsillərə miras qoymuşdur. Burada onun XX əsrin 60-cı illərindən bəri yaratdığı xalçalar sərgilənir. Muzeydə sayı hesabı bilinməyən portret, ornamental və süjetli xalçaları, eskizlər, qədim zərgərlik əşyaları da qorunub saxlanılır. Zəngin xalça nümunələrini göz oxşadan bu məkan Xalq rəssamı Kamil Əliyevin yadigarıdır. O, həmişə deyirdi ki, “xalça da neft kimi strateji sərvətdir”. Bu inam sənətkarı həmişə xalçaçılığın gələcəyi haqqında düşünməyə vadar edirdi. Onun şəxsi təşəbbüsü və şəxsi vəsaiti nəticəsində Xalça Evi yaradılmışdır [1]. Sənətkarın yaradıcılığından xəbəri olan elə bir insan tapılmaz ki, muzeyə gəlib onun əsərləri ilə yaxından tanış olmasın.

Kamil Əliyev Azərbaycanın qədim və unikal xalçaçılıq sənətinə öz ilməsini vurub. Buna isə gərgin əməyin sayəsində nail olmuş, öz sənətini püxtələşdirmiş və uca zirvələrə qaldırmışdır. Hər kəs sənətkar ola bilər, lakin sənətdə öz dəsti-xəttini qoymaq çox az insana nəsib olur. Azərbaycanda çox xalçaçı-rəssamlarımız fəaliyyət göstərib, lakin qüdrətli sənətkarımız Kamil Əliyev bu sənətə yeni

nəfəs gətirib: o, xalça üzərində ilk realist portret toxuyan usta kimi yaddaşlarda qalıb; rəssam realist portret janrında obrazla ornamenti bir məkanda sintez edib, vəhdət halına salmışdır. Elə yaradıcılığında da daha çox klassik portret janrına üstünlük verirdi. Kamil Əliyev daha çox iki istiqamətdə əsərlər yaratmışdır: portret və ornamental xalçalar. Böyük sənətkar heç zaman xalq yaradıcılığından kənarda qalmamışdır. Ornamental xalçalar sırasında Kamil Əliyev bir sıra gözəl xalçalar yaratmışdır. Kamil Əliyevin yaratdığı ornamental xalçalar bədii quruluşuna görə müxtəlifdir: kompozisiya ustalığı, qeyri-adi fantaziya, kolorit əlvanlığı, mürəkkəb ornamentlər. Kamil Əliyevin ornamental xalçalarda olan rəng harmoniyası zövqdən, orijinal bədii düşüncə zənginliyindən irəli gəlir. Qeyd edək ki, ornament bizim gündəlik həyatımızın dəyişməz iştirakçısı, insanın və bəşəriyyətin əbədi yol yoldaşıdır [2]. Ornamental xalçalarda sənətkar xalq yaradıcılığına geniş müraciət etsədə, rəssamın özünə məxsus təkrarolunmaz dəsti-xətti var. Sənətkarın əsərlərinə baxanda bilinir ki, onlar məhz Kamil Əliyevin əlindən çıxan bir əsərdir. Eyni zamanda, xalçalarda onun sırf Kamil Əliyevə xas olan koloriti var. Kamil Əliyevin eskizini çəkdiyi xalçalar bənzərsiz naxışları, rəng çalarları və kompozisiyası ilə fərqlənir. Sənətinə hədsiz tələbkarlıqla yanaşan Xalq rəssamı bu sahənin sirlərinə Bakı Rəssamlıq Məktəbində təhsil alarkən yiyələnib. O, Lətif Kərimov, Əmir Hacıyev, Kazım Kazımzadə, Qəzənfər Xalıqov və başqa görkəmli sənət adamlarından xalça sənətinin sirlərini, incəliklərini mənimsəmişdir [3]. Kamil Əliyev böyük zəhmətsevərliyi və istedadı sayəsində yaratdığı bir-birindən maraqlı, dəyərli, gözəl və göz oxşayan xalçaları ilə incəsənətimizi zənginləşdirib və dünya miqyasında təbliğ etmişdir. Onun əsərləri dünyanın bir çox məşhur muzeylərində, qalereyalarında və şəxsi kolleksiyalarda qorunur və nümayiş etdirilir.

Xalq rəssamının hər bir işi bənzərsiz və təkrarolunmazdır. Bir xalçadakı istifadə etdiyi naxışlar, demək olar ki, digər əsərində nəzərə çarpmır. Milli element olan buta onun yaradıcılığında xüsusi yer tutur. Qeyd edək ki, buta ornamenti Azərbaycanın milli ornamenti kimi, çox qədim dövrlərdən başlayaraq maddi mədəniyyət nümunələrimizi bəzəyir. Xalq arasında ən geniş yayılmış motivdir. Ornament yaradıcılığında üslubun dəyişməsinin əsas səbəblərindən biri gözəlliyin fərqliliyi və yeniliyin cəzbediciliyi olub. Müxtəlif strukturlu və formalı naxışlar dekorativ tətbiqi sənətlərin bədii əsasını təşkil edir. Xalçanı bəzəyərkən istifadə olunan hər bir ornament, təkcə onun özünə məxsus olan struktur sxemi ilə uyğun kompozisiyalarda iştirak edərək, bir xalçanı digərlərindən fərqləndirən funksiyalar daşıyır və xalçanı daha gözəl, daha cəlbedici və daha fərqli edir [4]. Kamil Əliyev portret xalçalarının haşiyələrini, əsasən, "islimibəndlik", "tirmə", "butalı" kompozisiyalarla bəzəyirdi. Görkəmli sənətkar ornamental xalçalarda da bu kompozisiyalardan istifadə etmişdir. Belə ki, Kamil Əliyev "islimibəndlik" kompozisiyasına, demək olar ki, ən çox üstünlük verirdi. Muzeydə biz, üzəri

"islimibəndlik" kompozisiyası nəqş olunan bir çox portret janrında xalçalardan başqa, ornamental və süjetli xalçalara da rast gəlirik. Fon kimi istifadə olunan "tirmə" klassik ornamental kompozisiyasına da rəssamın portretlərində tez-tez rast gəlinir. "Butalı" kompozisiyanın isə Kamil Əliyevin portret əsərlərində xüsusi yeri var [1].

Yuxarıda qeyd etdiyimiz kimi, Kamil Əliyev portret xalçalarının mahir müəllifi kimi tanınır. Görkəmli rəssam bir çox dövlət xadimlərinə, böyük siyasətçilərə, mütəfəkkirlərə, məşhur insanlara həsr olunmuş bütöv bir xalça üzərində portret silsiləsi yaratmışdır: ümummilli lider Heydər Əliyev, Mustafa Kamal Atatürk, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi və b. [3]. Kamil Əliyev ümummilli lider Heydər Əliyevin təsvirini böyük ustalıqla əbədiləşdirib. Məhz bu şah əsəri sənətkar özünün sevimli işi sayırdı.

Kamil Əliyev yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini zirvələrə ucaldan, xalçaçılıq sənətinin bütün incəliklərindən istifadə edən, onu daha da zənginləşdirən, xalçaya müxtəlif milli ornamentlər, əsrarəngiz rəng qatması, bədii kompozisiya və unikal portretlər yaradan görkəmli sənətkar idi. Qeyd edək ki, Kamil Əliyev fəaliyyəti dövründə yalnız xalçalar üzərində deyil, həm də qiymətli metallar üzərində də nəfis naxışlar yaradan ornamental rəssam kimi məharətini nümayiş etdirmişdir. Kamil Əliyev tərəfindən müxtəlif vaxtlarda yaradılan orijinal sənət əsərləri bu gün Türkiyə, Amerika Birləşmiş Ştatları, Rusiya, Hindistan və digər ölkələrin sərgi salonlarında nümayiş olunur.

Beləliklə, görkəmli sənətkarın əsas məziyyəti Azərbaycan xalçaçılıq sənətində realist portret janrından istifadə etməsidir. Azərbaycan folklorunun zənginliyindən bəhrələnmiş, sevimli sənətinin bilicisi olan bu incə ruhlu sənətkar, mahir xalça ustası Azərbaycan mədəniyyətinə böyük töhfələr bəxş etmişdir. Görkəmli rəssamın sənət nümunələri Azərbaycanın mədəniyyət xəzinəsində öz layiqli yerini tutaraq bu sənəti sevib seçən gənc xalçaçı-rəssamlara ən gözəl örnəkdir.

## ƏDƏBİYYAT

1. http://www.anl.az
2. Dünyamalıyeva S. Ornament (tarixi, nəzəriyyəsi, quruluşu). Bakı: Nasir, 2014, 271 s.
3. https://www.azer.com/aiweb/categories/magazine/ai103_folder/103_ articles /103_kamil_aliyev.html
4. Məmmədova L. Azərbaycan xalçaçılıq sənəti. Naxçıvan: Əcəmi, 2019, 168 s.

***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: lemanmamadovaa@mail.ru***

**Laman Mammadova**

## INNOVATIVE FEATURE OF CREATIVITY OF ARTIST KAMIL ALIYEV, WHO HAS BROUGHT NEW BREATH TO CARPET

The Azerbaijani carpet occupied an important place in all periods of history, as a unique example of art and high professionalism, capable of satisfying the most delicate taste. The 20th-21st centuries represent a special stage in the development of Azerbaijani carpet weaving, which gave it a new meaning. Today Azerbaijan's carpet art has entered a new stage of development. Magnificent Azerbaijan carpets, which occupy a prestigious place among the pearls of world culture, have passed a glorious formation path and have reached their peak today. The high artistic quality of Azerbaijan carpets, both artistic and technological value, turned them into valuable museum exhibits. Today, hundreds of unique Azerbaijan carpets are kept in prestigious museums, galleries, and private collections worldwide. Among such unique exhibits, a special place is occupied by the works of the outstanding carpet maker Kamil Aliyev. Kamil Aliyev brought a new breath to the centuries-old art of carpet weaving in Azerbaijan. The famous artist went down in history as the first master who weaved a realistic portrait on a carpet.

**Keywords:** *Kamil Aliyev, color, carpet artist, portrait, image, composition, carpet weaving, subject and ornamental carpets.*

**Ляман Мамедова**

## ИННОВАЦИОННАЯ ОСОБЕННОСТЬ ТВОРЧЕСТВА ХУДОЖНИКА КЯМИЛЯ АЛИЕВА, ДАВШЕГО НОВОЕ ДЫХАНИЕ КОВРУ

Азербайджанский ковер занимал важное место во все периоды истории, поскольку является уникальным образцом искусства и высокого профессионализма, способным удовлетворить самый тонкий вкус. XX-XXI века представляют собой особый этап и в развитии азербайджанского ковроткачества, придавший ему новый смысл. Сегодня азербайджанское ковровое искусство вступило в новый этап развития. Азербайджанские ковры, занимающие почетное место среди жемчужин мировой культуры, прошли славный путь становления, и сегодня эта область искусства достигла своего расцвета. Азербайджанские ковры имеют высокое качество, как с художе-

ственной, так и с технологической точки зрения, что делает их ценными музейными экспонатами. Сегодня сотни уникальных азербайджанских ковров хранятся в престижных музеях, галереях и частных коллекциях по всему миру. Среди таких уникальных экспонатов особое место занимают работы выдающегося художника-ковродела Кямиля Алиева. Кямиль Алиев дал новое дыхание многовековому искусству ковроткачества в Азербайджане, вошел в историю как первый мастер, который соткал на ковре реалистический портрет.

**Ключевые слова:** *Кямиль Алиев, колорит, художник по ковру, портрет, образ, композиция, ковроткачество, сюжетные и орнаментальные ковры.*

HƏBİB ALLAHVERDİYEV

# NAXIŞLARDA ƏBƏDİLƏŞƏN ÖMÜR

*XX-ci əsrdə yaşayıb yaradan görkəmli sənətkarlardan, ustadlardan biri olan professor, Xalq rəssamı Kamil Əliyev Azərbaycan incəsənəti, mədəniyyəti tarixinə dəyərli töhfələr verən sənətkarlardan biri idi. O, tarixən xalqımızın inkişaf etdirib yaşatdığı xalq sənətimiz olan xalça üzərində bir-birindən maraqlı, mənalı təsvirlər, naxışlar işləyərək, xalçaçı-rəssam kimi tanındı. Rəssamın əvəzedilməz portret-xalça əsərlərində Azərbaycanın görkəmli şair və yazıçılarının, dövlət adamlarının təsvirləri canlanıb. O öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq, onu daha da zənginləşdirən, görkəmli bir sənətkar idi. Kamil Əliyevin yaratdığı sənət inciləri bu gün də Azərbaycanın və dünyanın bir çox muzeylərində, sənət qalereyalarında bir sənət incisi kimi qorunub saxlanılır. Onun bizə miras qoyub getdiyi sənət inciləri, rəssamlar, sənətşünaslar tərəfindən daim öyrənilir və təbliğ edilir.*

**Açar sözlər:** *Kamil Əliyev, rəssam, portret-xalça təsvirləri, ornamentlər, naxışlar, rəngkarlıq.*

Fəsillərin bir birini əvəz etməsi ilə ətraf aləmin rəng çalarlarının harmonik bir uyarlığı ilə necə dəyişdiyini heyrətlə izləyən ulularımız, insan həyatı kimi gəldi-gedər olan bu gözəlliyin ömrünü uzatmağa, onlara əbədiyyət bəxş etməyə can atıblar. Onların gətirə-gətirə yaddaşlara köçürdükləri rənglərə, naxışlara, sevinclərini, kədərlərini, hiss və həyəcanlarını, sevgilərini qataraq, ilmə-ilmə yaratdıqları xalçalar maddi və mənəvi sərvətimiz arasında məxsusi yer tutur. Xalçanı adətən bu sənətlə məşğul olan, bu peşənin sirlərinə dərindən bələd olan bir qrup insanlar olsa da, ona xüsusi gözəllik verən və sənət əsəri kimi səciyələndirən ornamentlərini, naxışlarını, ayrı-ayrı bəzək elementlərini və nəhayət bütöv kompozisiyaları yaradaraq konkret sistemə və axara salanlar tək-tək sənətkarlar, seçilmiş yaradıcı insanlardır. Elə məhz xalçaçı-rəssam kimi tanınan Kamil Əliyev bu xüsusiyyətlərə malik biri idi.

Kamil Əliyev 1921-ci il oktyabrın 22-də Qərbi Azərbaycanın, İrəvan şəhərində anadan olub. 1936-cı ilin sentyabr ayında anası onu Bakı Rəssamlıq Məktəbinə, tanınmış rəssam Əzim Əzimzadənin yanına aparır. Məktəbə qəbul edilən Kamil Əliyev üç il burada dekorasiya şöbəsində təhsil alır və müəllimləri ona təhsilini davam etdirməklə yanaşı, "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi işləməyi məsləhət görürlər. Kamil Əliyev işə başlayır və xalça rəssamlığının sirlərinə burada bələd olur. Bu sahədə ona görkəmli rəssamlardan Lətif Kərimov, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və başqaları dəstək olurlar.

Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini

yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkar idi. İkinci Dünya Müharibəsinin iştirakçısı olan Kamil Əliyev 1946-cı ildə ordudan qayıtdıqdan sonra da öz sevimli peşəsini davam etdirir. Bir müddət o, Respublika Bədii Fonduna rəhbərlik edir, sonralar Bakı zərgərlik fabrikində direktor vəzifəsində çalışır. Həmin illərdə o, yalnız xalı, parça kimi toxuma mallarında yox, həmçinin, qızıl, gümüş və digər materiallarda da özünün mahir bədii tərtibatçı, ornamental rəssam kimi məharətini nümayiş etdirir.

1950-ci illərdən etibarən, Kamil Əliyev yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutur. Bu illərdə sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaradır. Məlumdur ki, xalçaçılıq rəssamdan hərtərəfli istedad və zəhmət tələb edir. Rəsmin xalçada təcəssüm tapması həm də xalçanın texniki hazırlığından asılıdır. Kamil Əliyev xüsusilə yaratdığı xalçalardakı texniki mükəmməllik, yüksək səviyyəli rəsm duyumu, ürəkaçan kolorit, bütünlükdə xalçanın estetikası insanı heyran edir. Rəssam həmişə təsviri sənətin ifadə vasitələri ilə yaratdığı əsərlərin mövzusuna öz münasibətini bildirir, öhdəsinə düşən vəzifəni yüksək professionallıqla həll edir. Xalça sənətimizi və klassik Azərbaycan ədəbiyyatı xəzinəsini, xalqımızın "Kitabi-Dədə Qorqud" kimi ilk görkəmli abidəsi şöhrətləndirirsə, dünya xalçaçılıq sənətini Azərbaycan xalçaları misilsiz dərəcədə rövnəqləndirir.

XX-ci əsrin 30-cu illərindən təşəkkül tapmağa başlamış portret xalça janrı, kökü mədəni tariximizin dərinliklərindən qidalanan bədii süjetli xalçaçılığımızın inkişafında yeni bir mərhələnin başlanğıcı idi. Bu mərhələnin əsasını qoyanlardan biri olan Kamil Əliyev sonrakı illərdə yaradıcı əməyi sayəsində bu janrı yüksək səviyyədə inkişaf etdirərək öz zirvəsinə çatdırmışdır. Onun müxtəlif illərdə yaratdığı Ümummilli lider Heydər Əliyevin, Mustafa Kamal Atatürkün, Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin, Şota Rustavellinin və başqa görkəmli xadimlərin xalça portretləri ən gözəl sənət nümunələridir.

Kamil Əliyev ornamentdən istifadə edərək, şairlərin, mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərirdi. Rəssam ilk portret xalçasını 1958-ci ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr etmişdir. Bu xalçanın təravətli, şux rəngli naxışları Füzuli lirikasının dərinliyini tamaşaçıya çatdırır (şəkil 1). Bu xalı xalq sənətimizin qiymətli bir incisi kimi Azərbaycan Dövlət İncəsənət Muzeyinin daimi ekspozisiyasına daxil edilmişdir.



Məhəmməd Füzulinin portreti, 1958-ci il.

Kamil Əliyev öz yaradıcılıq orbiti yalnız portret janrı ilə məhdudlaşmır. Ustadı Lətif Kərimov kimi Azərbaycan xalçalarının unudulmaqda olan çeşnilərinin, naxışlarının tapılıb, üzə çıxması və bərpası yolunda da əməyini əsirgəmirdi. Ulularımızdan bizə yadigar qalmış neçə-neçə sənət əsərləri onun barmaqlarının sehri, qüdrəti sayəsində canlanır, ikinci həyat qazanırdı. Kamil Əliyev xatirələrində yazırdı: "Azərbaycan xalçaları çox gözəl xalçalardır, təkraredilməz xalçalardır. Bu sənət növü böyük bir inkişaf yolu keçmişdir. Bu inkişaf yolunun bu səviyyəyə gəlməsində rəssamlarımızın böyük əməyi var. Xalçaçılıq sənəti bundan sonra da inkişaf eləməlidir. Bu sənət yeganə sənətdir ki, xalqımız onu yaradıb və yaşadır".

Ustad sənətkarın yaradıcılığında qədim xalçaçılıq ənənələrimizə söykənərək yeni ornament və naxışların, kompozisiyaların yaradılması sahəsində qazandığı uğurlar danılmazdır. "Quşların nəğməsi", "Kətəbəli buta", "Orta göllü buta", "Butalı tilmə", "Təbriz", "Ləçək turunc", "Bakı butası", "Sürmeyi güllü", "Nazənin buta" və sair ornamental xalçalar, xalçaçılıq sənətimizin ən qədim ənənələrinə söykənərək yaradılmış müasir Azərbaycan xalçasının orijinal nümunələri sayılır.

Xalçaçılıq sənət olmasından əlavə, həm də elmdir, dünyagörüşüdür. Semantikasında böyük bir mədəniyyətin ensiklopedik lüğəti yerləşən yazı sənətidir. Xalça yalnız evlərimizdə döşəmələri bəzəyən adi əşya deyil, dünyaya gözünü açdığı gündən onun üzərində iməkləyən, ilk addımını atan gələcək nəslimizin ilmə-ilmə, naxış-naxış yaddaşına hopan milli mənəviyyatımızın kodlarının daşıyıcısıdır. Kamil Əliyev istifadə etdiyi bütün rəngləri topladığı bitki və ağaclardan özü alar, ipləri də özü boyayardı və xalça üzərində maraqlı təsvirlər, naxışlar yaradardı. Bir də deyərdi ki, "Xalçanı ya divardan asırlar, ya da üstündə namaz qılıb Allaha dua edirlər, gərək bu müqəddəsliyi qoruyub gözləyəsən".



Kamil Əliyev naxışlar üzərində araşdırmada.



Rəssamın portret-xalça əsərləri.

Kamil Əliyevin böyük və zəngin yaradıcı əməyi xalqımız tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının "Xalq rəssamı" adına, "İstiqlal" ordeninə layiq görülmüşdür. Xalq dekorativ-tətbiqi sənəti sahəsində gördüyü səmərəli, elmi işlərə görə ona professor elmi dərəcəsi verilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev rəssamın yaradıcılığını qiymətləndirərək demişdir. **"Həqiqətən Kamil Əliyev Azərbaycanda rəssamlıq sənətinin çox çətin bir sahəsi olan xalçaçılıq-rəssamlıq sənətinin böyük bir rəssamıdır. Onun əsərləri də Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerini tutacaqlar"**.

Tanrı insanı xəlq edəndə onun mayasına öz yaradıcı xislətindən bir zərrə bəxş edib. Bu ilahi bəxşişdən hamıya, hər bir insan övladına düşən pay tanrının seçimi ilə kimlərdəsə az, kimlərdəsə çoxdur. Birincilər daxillərindəki yaradıcı potensialın gücündən xəbərsiz adi insan ömrünü yaşayanlar, ikincilər isə, canlarında, ruhlarında daşıdıqları yaradıcı enerjinin fövqəltəbii gücü ilə qarşılarına qoyulmuş ali missiyanı yerinə yetirənlər, insanların ruhunu, həyatını gözəlləşdirənlər, onlara öz kimliyini xatırladanlar, dünyamızdakı boşluqları sevgi və şəfqət nuru ilə dolduranlardır. Kamil Əliyev də belə sənətkarlardan biri kimi yaşadı, yaratdı. Əsərlərini xalqımıza miras qoyaraq əbədiyyətə qovuşdu.

## ƏDƏBİYYAT

1. Azəri L. Kamil Əliyev: rəssam və dövr. "Mədəniyyət" qəz., Bakı, 2021.
2. Kamil Əliyev. Sərvət. Bakı, 2013, 105 s.
3. Mükərrəmoğlu M. Kamil Əliyev-90. Onun əsərləri dünyanın məşhur muzeylərini bəzəyir. "Xalq qəzeti", Bakı, 2011.
4. Nizamiqızı G. Xalçalarda yaşayan ömür. "Mədəniyyət" qəz., Bakı, 2021.
5. http://www.anl.az. Kamil Əliyev-90. Azərbaycanın görkəmli portret-xalı sənətkarı. 2011.

***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: allahverdiyevhabib30@gmail.com***

**Habib Allahverdiyev**

## ETERNAL LIFE IN PATTERNS

One of the prominent artists living in the twentieth century, professor, people's artist Kamil Aliyev, was one of the artists who made valuable contributions to Azerbaijan's art and culture history. He became a carpet artist by making attractive, meaningful drawings and patterns on the carpet, which is historically developed and preserved folk art of our people.

The images of prominent Azerbaijani poets, writers, and politicians have been reflected in the unique portrait-carpet works of the artist. He was an outstanding artist who raised the Azerbaijani folk decorative-applied art to new levels with his creative work enriched the subtleties of carpet art more and more with preserving it. The art pearls created by Kamil Aliyev are still preserved as a pearl of art in many museums and art galleries of Azerbaijan and the world. Moreover, the pearls of art he left us are constantly studied and promoted by artists and critics.

**Keywords:** *Kamil Aliyev, artist, portrait-carpet paintings, ornaments, patterns, painting.*

**Габиб Аллахвердиев**

## ЖИЗНЬ, УВЕКОВЕЧЕННАЯ В УЗОРАХ

Профессор, народный художник Кямиль Алиев, один из выдающихся художников XX века, стал одним из мастеров, внесших ценный вклад в историю азербайджанского искусства и культуры. Он стал известен как ковродел, работая над интересными, содержательными картинами и узорами на ковре, являющемся исторически сложившимся и живущим в народе жанром творчества. В коврах-портретах, неповторимых произведениях художника, ожили образы выдающихся азербайджанских поэтов, писателей и государственных деятелей. Он является выдающимся художником, поднявшим своим творчеством азербайджанское народное декоративно-прикладное искусство на новую высоту, сохранившим и обогатившим тонкости искусства ковроткачества. Жемчужины искусства, созданные Кямилем Алиевым, до сих пор хранятся как произведения искусства во многих музеях и художественных галереях Азербайджана и мира. Жемчужины искусства, оставленные им нам в наследство, постоянно изучаются и популяризируются художниками и искусствоведами.

**Ключевые слова:** *Кямиль Алиев, художник, ковры-портреты, орнаменты, узоры, живопись.*

**MİRSƏLİM EMİNOV**

# KAMİL ƏLİYEVİN YARADICILIĞINDA TƏBRİZ XALÇA MƏKTƏBİNİN NAXIŞLARI

*XX əsrin xalçaçı-rəssamları Azərbaycanın qədim xalça sənətinə özünəməxsus şəkildə yeniliklər gətirmişdir. Bu xalçaçı-rəssamlar içərisində Kamil Əliyevində özünəməxsus yeri vardır. Uşaqlıq illərindən xalça sənəti ilə tanışlığı Kamil Əliyevin bu sənətə gəlməsinə təsir edən ilk amildir. Dekorativ-tətbiqi sənət sahəsi üzrə təhsil alması, gənclik illərində Azərxalça Birliyində fəaliyyətə başlaması onun gələcək sənətini müəyyənləşdirmişdir. Eyni zamanda Azərbaycan xalça məktəblərinə və onların hər birinin özünəməxsus xüsusiyyətlərinə daha yaxından bələd olmuşdur. Kamil Əliyev Azərbaycanın xalça məktəbləri içərisində ən çox təsirləndiyi isə Təbriz xalça məktəbi olmuşdur. Xalçaçı-rəssamın yaradıcılığında Təbriz xalça məktəbinin şux rənglərinin cəlbediciliyini, ənənəvi kompozisiya quruluşunu, incə xətlərini, naxışlarını istedadının yenilik süzgəcindən keçirərək ilmə-ilmə xalçaların üzərinə köçürmüşdür.*

**Açar sözlər:** *Kamil Əliyev, xalça, Təbriz xalça məktəbi, islimi, anagül.*

Çox-çox el sənətinin el şöhrətinə çevrilməsini şərtləndirən milli xalçaçılığımızın estetikası zamanın axarında nə qədər klassik-kanonlaşmış görkəm alsa da, onun ötən yüzilliyin ikinci yarısına təsadüf edən inkişafında ənənəviləşən bu tutuma yeni – özünəməxsus “müdaxilə”lərin baş verdiyinə şahidlik etmək mümkündür [5]. Professor Ziyadxan Əliyevin bu sözlərində bir çox xalçaçı rəssamın rolu vardır. Onların içərisində Kamil Əliyevin də özünəməxsus yeri vardır. Xalçaçı ailəsində dünyaya gələn Kamil Əliyev uşaqlıqdan anasının, nənəsinin toxuculuq, xalçaçılıq işlərinin içərisində böyümüş, onların toxuduğu müxtəlif naxışlar, xalçaların rəngarəngliyi ona güclü təsir etmiş, onun bu sənətə gəlməsinin ilk səbəbi olmuşdur.

Kamil Əliyevin sənətə, naxışa, dekorasiyaya olan marağı onu 1936-cı ildə Asəf Zeynallı adına Rəssamlıq Məktəbinin Dekorasiya şöbəsinə gətirir və burada təhsil alaraq öz marağını təkmilləşdirir, yaradıcı, fitri istedadını inkişaf etdirir [1]. Təhsilini başa vurduqdan sonra Azərxalça Birliyində köçürücü rəssam kimi fəaliyyət göstərərkən xalçaların sehrli dünyasından sanki sehrlənmiş və bu sənətə daha yaxından bələd olmaq imkanı əldə etmişdir. Bu amillər isə onu addım-adım öz dəsti-xətti, rəng həlli, kompozisiyası ilə fərqlənən sehrləndiyi sənətin ustadı olmağa aparırdı. İkinci Dünya Müharibəsinin iştirakçısı olan gənc Kamil Əliyev sənətdə bədii tutmu, yaradıcı istedadı ilə fərqləndiyi kimi müharibədə də öz şücaəti, cəsarəti ilə fərqlənməyinin nəticəsi olaraq müharibədən 22 medalla alnıaçıq şəkildə vətənə qayıdır. Sonrakı illərdə Kamil Əliyev müxtəlif vəzifələrdə

çalışsa da sevdiyi xalça sənətinə olan eşqini daim qəlbində gəzdirir, imkan tapan kimi istedadının, yaradıcı təxəyyülünün bədii əksini milli sənətimizin süzgəcindən keçirərək kağıza köçürür [1].

Kamil Əliyev yaradıcılığının əsas xüsusiyyətlərindən biri də onun kompozisiyalarında, naxışlarında milliliyə söykənən qədimliyin və müasirliyin vəhdətini yaratmasıdır. Dekorativ naxışların yeni qarşılıqlı əlaqəsi, rənglərin bədii həlli onun kompozisiyalarının vahidliyinə, orijinallığına xidmət edir.

Kamil Əliyevin xalça sənətinə gətirdiyi yeniliklər, göstərdiyi xidmətlər yüksək qiymətləndirilmişdir. O, xalçalardakı obrazların simasında tək rəngdən, sərt keçidlərdən imtina edərək rənglərin arasında keçidi daha harmoniya ilə verməklə obrazın rəngkarlıq əsərindəki kimi təsvirini yaratmağa nail olmuşdur. Məhz bu sayədə obrazların bədii təsir gücünü artırmış, onları quru görkəmdən azad edərək onların mütəfəkkir, şair, dərin düşüncəli portretini tamaşaçıya çatdıra bilmişdir.

Kamil Əliyevin yaradıcılığı qədim və zəngin tarixi olan Azərbaycan xalça sənətindən qidalanır, bəhrələnir. Heç şübhəsiz xalçaçı-rəssam Azərbaycanın xalça məktəblərinə, onların naxış çeşidliliyinə, rəng ahənginə, kompozisiya quruluşuna, xüsusiyyətlərinə dərindən bələd olmuşdur. Məhz bu səbəbdən milli naxışlara söykənən yeniliyi xalçaçılıq sənətinə gətirə bilmişdir. Kamil Əliyevin müəllifi olduğu xalçalara nəzər yetirdiyimiz zaman onun Təbriz xalça məktəbin daha çox təsirləndiyi müşahidə etmək olur. Xalça kompozisiyasında əsasən nəbati naxışlar – gül, çiçək, yarpaqdan təşkil olunmuş motivlər, islimi naxışı və onun müxtəlif formaları, şux, təravətli rənglərin cazibədarlığı və s. Təbriz xalça məktəbinə xas xüsusiyyətlərdir [3, s. 51]. Məhz bu xüsusiyyətlər Kamil Əliyevi özünə valeh etmiş, onun üçün tükənməz xəzinə, ilham mənbəyi olmuşdur. Onun ümummilli lider Heydər Əliyev, Nizami Gəncəvi, Qadın portreti və başqa portret xalçalarında və bir çox ornamental kompozisiyalı xalçalarında Təbriz xalça məktəbinin xüsusiyyətləri daha aydın görsənir.

Təhsil aldığı illərdə, Azərxalça Birliyində və özünün sonrakı axtarışları zamanı Təbriz xalça məktəbini və xalçalarını, onun xüsusiyyətlərini, naxış kompozisiya quruluşunu günbəgün öyrənmiş, güclü hafizəsinə ilmə-ilmə işləmişdir. Kamil Əliyevin qeyd etdiyimiz portret xalçalarında işlətdiyi enli haşiyəni Təbriz xalça məktəbinin xalçalarında da görürük. Xalçaçı-rəssam kompozisiyanın bədii gücünü artırmaq, diqqəti portretə yönəltmək üçün enli haşiyələrdən uğurla istifadə etmişdir. O, haşiyənin rəng həllində əsasən xalçanın ara sahəsi ilə ahəngdarlıq təşkil edən açıq rəngli naxışları tünd yerlikdə vermişdir. Bu da kompozisiyanın koloritinə bitkinlik verməklə xalçaya özünəməxsus şəkildə cazibədarlıq qazandırmışdır. Təbriz xalçalarında haşiyə mərkəzi sahəni əhatələyən, ona kolorit

baxımından yaxın olan rəngləri ilə bitkinlik verən dekorativ element kimi istifadə edilmişdir [4, s. 11].

Şərqin ən çox sevilən və Təbriz xalça məktəbinin də sevilərək işlədilən naxışlarından biri islimidir. Təbriz xalçalarında əsasən piçək-heləzunların dolama və sonluqlarında, bəzən də müstəqil işlədilir [4, s. 10]. Kamil Əliyevin islimi naxışının hər birini öz yaradıcı istedadında ona müxtəlif dekorativ görkəm verir və haşiyənin əsas elementi kimi yaxud yarpaq və çiçəkləri olan spiral formalı xətlərlə əlaqələndirərək kompozisiyanın bitkinliyini tamamlamışdır. Təbriz xalçalarının haşiyəsində işlədilən digəri "ana gül" adlı naxışdır və Kamil Əliyev xalçalarında bu naxışdan istifadə etmişdir. Yuxarıda islimi naxışı üçün qeyd etdiyimiz xüsusiyyətləri ana gül naxışını da aid edə bilərik. Qeyd edim ki, təbii olaraq bir məqalədə bəhs olunan mövzunu bütünü ilə əhatə etmək mümkün deyil.

Yaradıcılıq fəaliyyəti boyunca Azərbaycanın qədim el sənətini inkişaf etdirən, daha çox beynəlxalq sərgilərə çıxaran, xalça sənətinin sərhədsiz hüdudları dünyaya göstərərək Azərbaycanın incəsənətinin zənginliyini, sənətkarının təfəkkürünün dərinliyini dünyaya göstərən Kamil Əliyevin xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən "İstiqlal" ordeninə layiq görülmüşdür. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Kamil Əliyevin yaradıcılığına yüksək qiymət verərək 12 oktyabr 2021 il tarixdə "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: m.selimeminov@mail.ru***

## ƏDƏBİYYAT

1. Nuriyev Ə. Kamil Əliyev. İlmələrin sehrində. http://www.anl.az/ down/ me qale /palitra/2019/oktyabr/ 679452.htm
2. Tağıyeva R. Xalça sənətinin Kamil ustadı. http://www.anl.az/down/ meqale/ xalqqazeti/2021/ oktyabr/762546[meqale].pdf
3. Muradov V. Azərbaycan xalça sənəti: tarixi, məktəbləri, texnologiyası. Bakı: Elm, 2013, 132 s.
4. Muradov V. Azərbaycan xalçaları Təbriz xalça qrupu. Bakı: Elm, 2013, 362 s.
5. Əliyev Z. Qədim tariximizə güzgü tutan xalça. https:// medeniyyet.az/page/news/57462/Qedim-tariximize-guzgu-tutan-xalca.html

**Mirsalim Eminov**

## PATTERNS OF TABRIZ CARPET SCHOOL IN THE WORKS OF KAMIL ALIYEV

Carpet artists of the 20th century brought innovations to the ancient carpet art of Azerbaijan. Kamil Aliyev had a special place among these carpet artists. Since childhood, his acquaintance with carpet art was the first factor affecting Kamil Aliyev's mastery of this art. His education in decorative and applied arts and his activity in the Azerkhalcha Union in his youth allowed him to determine his future craft skills and get acquainted with the Azerbaijani carpet schools and the peculiarities of each of them. The Tabriz carpet school most influenced Kamil Aliyev among the carpet schools of Azerbaijan. In his work, the carpet weaving artist, through the filter of his talent innovation, loop by loop transferred the attractive colors of the Tabriz carpet-weaving school, its traditional compositional structure, fine lines, and patterns onto carpets.

**Keywords:** *Kamil Aliyev, carpet, Tabriz carpet school, islimi (arabesque), anagul.*

**Мирсалим Эминов**

## УЗОРЫ ТЕБРИЗСКОЙ ШКОЛЫ КОВРОТКАЧЕСТВА В ТВОРЧЕСТВЕ КЯМИЛЯ АЛИЕВА

Художники-ковроделы XX века внесли новшества в древнее искусство ковроткачества Азербайджана. Среди этих мастеров особое место занимает Кямиль Алиев. Знакомство с искусством ковроткачества с детства – первый фактор, повлиявший на приобщение Кямиля Алиева к этому искусству. Его образование в области декоративно-прикладного искусства, начало деятельности в Союзе Азерхалча в молодые годы определили его будущее мастерство. Одновременно художник ближе познакомился с азербайджанскими школами ковроткачества и уникальными особенностями каждой из них. Среди азербайджанских школ коврового искусства наибольшее влияние на Кямиля Алиева оказала Тебризская школа. В своем творчестве художник-ковродел через фильтр новаторства своего таланта петелька за петелькой перенес на ковры привлекательные краски Тебризской школы ковроткачества, ее традиционный композиционный строй, тонкие линии и узоры.

**Ключевые слова:** *Кямиль Алиев, ковер, Тебризская школа ковроткачества, ислими, анагуль.*

**SƏYYARƏ SADIXOVA**

# AZƏRBAYCANIN XALQ RƏSSAMI KAMİL ƏLİYEVİN XALÇA ÇEŞNİLƏRİNDƏ MİLLİ NAXIŞ ELEMENTLƏRİ

*Azərbaycan ornament və xalçaçılıq sənətinin görkəmli nümayəndələrindən biri Kamil Əliyev olmuşdur. O, Azərbaycan ornament sənətini yaxşı öyrənmiş, milli naxışları klassik kompozisiya formalarında tətbiq etmişdir. Nəbati motivlər arasında "islimi" adlanan naxışa Kamil Əliyevin əksər xalçalarında rast gəlmək olar. İslimi naxışını Kamil Əliyev həm klassik və həm də stilizə olunmuş formada xalça çeşnilərində tətbiq edərdi. Sənətkarın xalça ornamentləri sahəsində yaradıcılığına nəzər yetirərkən görürük ki, buta motivinə də geniş yer vermişdir.*

*Azərbaycan xalçalarının dünyaya tanıdılması üçün ölkəmizdə mühüm tədbirlər həyata keçirilmişdir. Bu sahədə irəliyə atılan ən uğurlu addımlardan biri 2010-cu ilin noyabr ayında Azərbaycan xalçaçılıq sənətinin UNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınması olmuşdur.*

**Açar sözlər:** *Kamil Əliyev, xalça, rəssam, ornament, milli naxış, islimi, buta, nilufər.*

Azərbaycan ornament və xalçaçılıq sənətinin tanınmış nümayəndələrindən biri Kamil Əliyev olmuşdur. Görkəmli xalça rəssamımız Lətif Kərimov kimi Kamil Əliyev də ornamental xalçalara çeşni eskizləri çəkər, portret xalçaların da haşiyələrini, ara sahələrini əsas, köməkçi və doldurucu milli naxış elementləri ilə bəzəyərdi. O, Azərbaycan ornament sənətini yaxşı öyrənmiş, milli naxışları klassik kompozisiya formalarında tətbiq edirdi.

Məlumat üçün deyək ki, Azərbaycanın xalça naxışları həndəsi, nəbati, zoomorf, antropomorf, kosmoqonik, yazı və xəttatlıq naxışları, müxtəlif inanclarla bağlı stilizə olunmuş dekor motivləri, damğalar, işarələr, rəmzlər və s. olmaqla bir neçə qrupa bölünür. Bu qruplardan bir çox naxışı istifadə etmiş rəssam ən çox nəbati ornamentlərə müraciət edirdi.

Dekorativ-tətbiqi sənətdə, xüsusilə xalça sənətində tətbiq olunan nəbati elementləri işlənmə üslubuna görə iki yerə ayırmaq olar: stilizə olunmuş və əyri xətli (real) nəbati elementlər.

Nəbati elementləri ayrılmış variantlar üzrə nəzərdən keçirsək Azərbaycan xalçalarında daha çox stilizə olunmuş nəbati elementlərin işləndiyini müşahidə edərik. Xalçaçılıqda tətbiq olunan nəbati elementlərin ilkin variantlarını iki yarpaq, üç yarpaq, beş yarpaq motivləri təşkil edir.

Nəbati motivlər arasında "islimi" adlanan naxışa Kamil Əliyevin əksər xalçalarında rast gəlmək olar.

Tədqiqatçı, professor Sabirə Dünyamalıyevanın fikrincə, islimi naxışının

adı “islami” sözündən yaranmışdır [1, s. 87]. Müəllif “Ornament (tarixi, nəzəriyyəsi, qurulması)” kitabında islimi elementini belə şərh edir: “Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətinin əsas ornamentlərindən biri kimi “islimi”yə bütün xalq sənət sahələri üzərində olan bəzəklərdə rast gəlmək olar. Bu element müxtəlif xalqlarda müxtəlif cür adlanır. Azərbaycan, Orta Asiya, Türkiyə, İran, Əfqanıstanda – əslimi, Hindistan, Pakistanda – selimi və ya yaslimi-xətayi, Qərbi Avropa və Amerikada arabeska (“arabskiy” – ərəblərdən alınma) deyilir. Bu ornamenti əsasən, islam dini ilə əlaqələndirirlər. İsliminin bəzi müxtəlif növləri, yandan baxanda bitkinin bükülmüş yarpağını xatırladır” [1, s. 87].

“İslimi (farsca) – sarmaşıq və “spiralın” birləşməsi əsasında yaradılmış orna_ment növüdür. Daima inkişaf edən, çiçəklənən yarpaq zoğu ideyasını stilizə olunmuş, yaxud təbii formada təcəssüm etdirir və variantların sonsuz müxtəlifliyini özündə ehtiva edir. Daha çox məscidlərin daxildən bəzədilməsində, geyimlərin, kitabların, məişət əşyalarının bədii tərtibatında istifadə olunur.

İslimi ornamenti bir neçə qrupa bölünür: sadə islimi, qanadlı islimi, haçalı islimi, butalı islimi, hörmə islimi.

1. Sadə islimi – bəzəksiz badamvarı formadadır. Axırda və böyük spiralların burumlarında kiçik spirallar yerləşdirilir. Belə islimini, adətən zərgərlik sənətində, qızıl naqqaşlığında, silahların bəzədilməsində, xalçalarda istifadə edirlər.

2. Qanadlı islimi sadə islimidən onunla fərqlənir ki, onun yarpaq – qanadları iki hissəyə bölünür və nisbətən mürəkkəb formada olur. Bu qanadlar spiralın hərəkəti istiqamətində ya yuxarı, ya da aşağıya doğru açılır. Aşağı qanad, adətən yuxarı qanaddan kiçik olur, qanadların ucu ya iti olur, ya yeri dəyişdirilmiş, ya da bərkidilmiş olur.

3. Haçalı isliminin forması sındırılmış ağac budağına və ya heyvanın açılmış ağzına bənzəyir. Haçalı islimi formasına görə qanadlı islimiyə çox bənzəyir. Onlar arasındakı fərq ondadır ki, haçalı islimi təkcə spiralın sonlarında deyil, həmçinin müxtəlif formaların budaqlarında da açılır. Azərbaycan ornamentlərində haçalı islimi digər növlərdən daha geniş istifadə olunmuşdur.

4. Butalı islimi forması orta əsr Yaxın Şərq memarlığında – daş üzərində oymalarda daha çox istifadə edilib. Digər islimi formalarından forması və kompozisiyada tutduğu yerinə görə fərqlənir. Bu forma memarlıqda meydana gəlib. Görünüşünə görə badama bənzəyir, elə buna görə də “butali islimi” adını alıb.

5. Hörmə islimi. Təxminən XVI əsrdə, butalı isliminin yerini daha geniş bədii imkanlara malik olan və hörmə islimi adlanan element tutur [1, s. 109-110].

İslimi naxışını Kamil Əliyev həm klassik və həm də stilizə olunmuş formada xalça çeşnilərində tətbiq edərdi. Hazırladığı xalça eskizlərində islimidən

köməkçi və doldurucu naxış elementi kimi, bəzən isə portretini çəkdiyi şəxsin fonunu tamamlamaqdan ötrü köməkçi detal kimi yerlikdə istifadə edirdi. Bunlara misal olaraq "Ümummilli lider Heydər Əliyev", "Mustafa Kamal Atatürk", "Məhəmməd Füzuli", "Mənim anam", "İndira Qandi", portret xalçalarını, "Göllü", "Qızılı xalça", "Quşlu", "Sürməyi göllü", "Qımıl", "Butalı", "Xilə Əfşan", "Tirməli" və s. ornamental xalçaları göstərə bilərik.

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Xədicə Əsədova "Nəsimi" xalçasından bəhs edərkən islimi motivinin bədii həlli haqqında belə qeyd edir: "Xalçanın bədii dəyəri onun ara sahəsindəki rəng harmoniyası ilə haşiyə zolağındakı çalarların vəhdətində olan yaxınlıqdan başlayaraq, irili-xırdalı bütün naxışların zəncirvarı formada qarşılıqlı uyğunluğunda özünü əks etdirir.

"İslimi" elementinin müxtəlif kombinasiyalar vasitəsi ilə traktovkası özü sonsuza aparan yol, sufilik fəlsəfi anlamı şəklində təqdim olunur [2, s. 23].

Sənətkarın xalça ornamentləri sahəsində yaradıcılığına nəzər yetirərkən görürük ki, buta motivinə də geniş yer vermişdir. Buta elementi də haçalı, küsülü, qovuşan, balalı, çiçəklənən və s. olmaqla növlərə bölünür. Kamil Əliyev "Mustafa Kamal Atatürk", "İndira Qandi", "Butalı", "Göllü buta", "Ağ buludlu buta", "Kətəbəli buta", "Xilə buta" xalçalarının ornamental kompozisiyalarında butanın müxtəlif formalarına müraciət edib.

"Ləçək turunc" (1976), "Qızılı xalça" (1980), "Qırmızı buta" (1980), "Göllü" (1985), "Təbriz" (1985), "Ağ buludlu buta", "Turunclu" (1984), "Kətəbəli buta" (1984), "Quşlu" (1985), "Sürməyi göllü" (1986), "Azərbaycan" (1987), "Sandıqça" (1999), "Buludlu", "Qırmızı bülbül" (1994) xalçalarının hər biri orijinaldır. Onların hər birinin bədii quruluşuna vardıqda zəngin ornament dünyasında qərq olursan. Sıx ilməli həzin axıcılıq xalçanın dəyişməz, sabit ruhuna meydan verir. Sanki bu xalçalarda həzin muğam, bəmdən deyilən hikmətli qəzəl sədası duyulur. Ana və nənələrimizdən örnəklənmiş müdrikliyimiz izlənir [6].

Nəbati naxışlar haqqında tədqiqatçılar əsaslandırılmış fikirlər söyləmişlər. Azərbaycanın tanınmış tədqiqatçılarından Lətif Kərimov nəbati elementlərin birbir təhlilini vermişdir. Müəllif "Azərbaycan xalçası" adlı kitabının II cildində isə nəbati motivli kompozisiyalar haqqında da fikir söyləmişdir. Müəllif burada "islimi", "xətai", "buta" elementlərinin, nəbati motivli göllərin, "əfşan", "ləçəktürünc" kompozisiyalarının variantlarını, işlənmə üslublarını və s. xüsusiyyətlərini tədqiq etmişdir [5, s. 71-82, 86, 103-106, 116].

"İstedadlı sənətkarlar çiçək motivini əşyanın bəzədiləcək səthinin formasına məharətlə tabe etdirirdilər. Məsələn; şanagüllə-nilufər (lotos – göldə bitən çiçəkli bitkidir, bu motivə "hun gülü", "türkmən gülü" də deyilir) təsvir edirdilər. Nilufər

gülü bəzəyində bitkinin ləçəkləri ilə çarpazlaşan günəş şüaları "qaranlıq dünyadan işıqlı dünyaya boylanma" anlamını əks etdirir. Çünki çay və göllərin dibində (qaranlıqda) bitən nilufərin gövdəsi suyun üzünə, yəni işığa çıxandan sonra çiçəkləyə bilir, ləçəklər isə qaranlıq düşəndə açılır" [1, s. 119].

Hələ qədim zamanlardan xalqımızın yaratdığı xalçaçılıq sənəti bu sənətin ustadları, vətənpərvər alimlərimiz tərəfindən tədqiqata cəlb olunmuş, inkişaf etdirilmişdir. Bu sərvətləri qorumaq üçün Azərbaycanda bir sıra muzeylər fəaliyyət göstərir.

Azərbaycan xalçalarının dünyaya tanıdılması üçün ölkəmizdə mühüm tədbirlər həyata keçirilmişdir. Bu sahədə irəliyə atılam ən uğurlu addımlardan biri 2010-cu ilin noyabr ayında Azərbaycan xalçaçılıq sənətinin UNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınması olmuşdur.

## ƏDƏBİYYAT

1. Dünyamalıyeva S. Ornament (tarixi, nəzəriyyəsi, qurulması). Bakı: Nasir, 2014, 272 s.
2. Əsədova X. Kamil Əliyev. "Sərvət" albomlar silsiləsi. Bakı, 2013, 104 s.
3. Tağıyeva R. Azərbaycan xalçası. Bakı: Şərq-Dizayn, 1999, 262, s.
4. Алиева К. Тебризская ковровая школа XVI- XVII вв. Баку: Элм, 1999, 268 с.
5. Керимов Л. Азербайджанский ковер. Т. II, Баку: Гянджлик, 1983, 276 с.
6. https://www.facebook.com/nationalartmuseum.az/posts/3647048908645259/

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: seyyare.sadiqova@mail.ru***

**Sayyara Sadykhova**

## ELEMENTS OF NATIONAL PATTERNS IN THE CARPET ORNAMENTS OF KAMIL ALIYEV, THE AZERBAIJANI PEOPLE'S ARTIST

Kamil Aliyev was one of the prominent Azerbaijani arts and crafts and carpet weaving representatives. He studied the art of Azerbaijani ornamentation well applied national patterns in classical composition. Among the floral motifs on most of Kamil Aliyev's carpets, there is a pattern called "islimi". Kamil Aliyev used the islimi pattern in his work, both in classical and stylized form. Looking at the artist's work in the field of carpet ornament, we see that he gave a significant place to the buta motif.

Significant measures have been taken to popularize Azerbaijani carpets in the world. One of the most successful steps in this area was the inclusion of Azerbaijani carpet weaving in the UNESCO Intangible Cultural Heritage List in November 2010.

**Keywords:** *Kamil Aliyev, carpet, artist, ornament, national ornament, islimi, buta, lily (lotus).*

**Сайяра Садыхова**

## ЭЛЕМЕНТЫ НАЦИОНАЛЬНЫХ УЗОРОВ В ОРНАМЕНТЕ КОВРОВ НАРОДНОГО ХУДОЖНИКА АЗЕРБАЙДЖАНА КЯМИЛЯ АЛИЕВА

Кямиль Алиев был одним из видных представителей азербайджанского декоративно-прикладного искусства и ковроткачества. Он хорошо изучил искусство азербайджанского орнамента, применял национальные узоры в классической композиции. Среди растительных мотивов на большинстве ковров Кямиля Алиева встречается узор под названием «ислими». Камиль Алиев применял в своем творчестве узор ислими как в классической, так и в стилизованной форме. Глядя на творчество художника в области коврового орнамента, мы видим, что широкое место он отводил и мотиву бута.

В нашей стране предприняты важные меры по популяризации азербайджанских ковров в мире. Одним из наиболее успешных шагов в этой области стало включение азербайджанского ковроткачества в список «Нематериальное культурное наследие» ЮНЕСКО в ноябре 2010 года.

**Ключевые слова:** *Кямиль Алиев, ковер, художник, орнамент, национальный орнамент, ислими, бута, лилия (лотос).*

**RÜBABƏ İMANLI**

# KAMİL ƏLİYEV YARADICILIĞINDA MİLLİ NAXIŞLAR

*Böyük sənətkar Kamil Əliyev yaradıcılıq fəaliyyətində onlarla xalça – Azərbaycanın və digər ölkələrin tanınmış siyasi və ictimai xadimlərinin, mədəniyyət, incəsənət nümayəndələrinin portretlərindən ibarət qalereya yaratmışdır. Kamil Əliyev həm də yaradıcılığında klassik xalça sənəti nümunələrindən ilhamlanaraq çoxsaylı ornamental kompozisiyaların müəllifidir. Ornamental xalçalarda bülbüllər, çiçəklər, ləçəklər və s. çox böyük ustalıqla toxunmuşlar. Kamil Əliyevin əsərləri yüksək peşəkarlığı, incə bədii zövqü, parlaq koloriti ilə heyran edir. Kamil Əliyev bütün həyatını Azərbaycan xalqının mədəniyyətinin tərkib hissəsi olan qədim xalçaçılıq ənənələrinin qorunub saxlanmasına və inkişafına həsr etmişdir. Ustadın milli mədəniyyət xəzinəsinə daxil olan əsərləri Azərbaycan xalçaçılıq məktəbinin layiqli davamıdır.*

**Açar sözlər:** *milli naxış, kolorit, xalçaçı-rəssam, kompozisiya, xalçaçılıq, ornamental xalçalar, muzey, qızılı rəng.*

Azərbaycanın xalçaçılıq sənətinin qədim tarixi vardır. Bu şərəfli və məsuliyyətli yolu davam etdirənlər sırasında Kamil Əliyev özünəməxsus dəsti-xətti ilə seçilir. Xalçadakı hər ilmə, hər naxış bir ovqatın, bir bənzərsizliyin nümunəsidir. Kamil Əliyev Azərbaycanın çoxəsrlik xalçaçılıq sənətinə yeni nəfəs gətirmiş, 84 illik ömrünün böyük bir hissəsini də bu sahənin inkişafına, təbliğinə sərf etmişdir. Azərbaycan xalçaçılığının klassiki, rənglər və ilmələr sehrkarı olan qüdrətli sənətkar 1921-ci il oktyabrın 22-də anadan olmuşdur. O, özündən sonra zəngin irs qoymuşdur. Kamil Əliyev xalça sənətinin incəliklərini qoruyub saxlayaraq onu daha da zənginləşdirib. Xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradaraq görkəmli sənətkar kimi anılır. O, xalça üzərində ilk portret toxuyan usta kimi yaddaşlarda qalmışdır. Ümumiyyətlə onun yaradıcılıq istiqaməti əsas ornamental xalça və portret xalçaları üzrə idi. Kamil Əliyevin həyatı naxışlarda əbədiləşən bir ömürdür.

“Buta” ornamenti Kamil Əliyevin yaradıcılığında xüsusi yer tutur. “Butalı” klassik ornamental kompozisiyası Kamil Əliyevin xalça-portretlərində geniş tətbiq olunmuşdur. Buta elementinə bir çox görkəmli şəxsiyyətlərin təsviri olan xalçaların mərkəzi sahəsinin dizaynında rast gəlinir. Burada Kamil Əliyev klassik ornamental texnikalar vasitəsilə xalça kompozisiyalarının dekorasiyasına portret hissəsinə ahənglə daxil olmuşdur. Ustad xalça nümunələrini yaradarkən həm portret, həm də ornamental bədii tərtibatı ilə yanaşı, texniki icrasının mükəmməlliyinə, yəni toxunma prosesinə də böyük diqqət yetirmişdir. Qeyd edək ki, böyük sənətkar ornamental xalçalarında düyün sıxlığının artırılması texnikasından da istifadə edir ki, bu da onun xalçalarının dekorasiyasını zərifləşdirir,

onlara incəlik və plastiklik verirdi. Kamil Əliyev iplik boyama texnikasına eyni məsuliyyətlə yanaşır. Ənənəvi təbii boyayıcı vasitələrdən istifadə edərək, o, özünün emalatxanasında iplikləri rəngləyərək rənglərin dəqiqliyinə və onların müxtəlif çalarlarına nail olurdu. Tonları və yarım tonları çatdırmaq üçün sənətkar yarıya qatlanmış yüksək keyfiyyətli yundan xüsusi nazik ipdən istifadə edirdi. Bu sapların ucları bir neçə hissəyə bölünərək xalçanın məxmər səthində bütün rənglərin ən incə keçidlərini təşkil etmişdir. Kamil Əliyev çoxsaylı ornamental xalçalar müəllifidir: "Kətəbəli buta", "Butalı tirmə", "Quba butası", "Qımıl", "Buludlu", "Sürməyi göllü" və s.



Butalı



Daraqlı quş

Qeyd edək ki, xalçalarda mövcud olan müxtəlif elementlərin, ornamentlərin, simvolların bir neçəsini misal gətirək: "gül" xalçaların üzərində gözəllik, sevgi, dostluq rəmzi kimi təsvir olunan elementdir; "daraq" elementi müxtəlif formalarda və məqsədlərdə tətbiq olunmuşdur. "Quş" xalça üzərində əks olunan ən qədim zoomorf elementlərdən biridir, "quş" obrazı xəbər, müjdə daşıyıcısı kimi qəbul olunur; "ulduz" həm həndəsi, həm də astral simvoldur, xalçalar üzərində "ulduz" adətən bəzək elementi kimi tətbiq olunur ("ulduz" işıq, xoşbəxtlik kimi də tətbiq olunur); "yarpaq" elementi əbədi həyatı, həmçinin, kədəri və s. ifadə edir; dairə şəkilli ornament motivi həmişə günəşi təmsil etmişdir (bu ornament həmişə bir formada təsvir edilməmiş, sənətkarın zövqündən, fərdi texniki üslubundan asılı olaraq müxtəlif şəkillərdə ifadə olunmuşdur); "ay" rəsmi qədim dövrlərdə astral dini təsəvvürlərlə əlaqədar olmuşdur [2]. Buta ornamentinə müxtəlif xalçaların bədii tərtibatında rast gəlmək olar. Xalçalarda ən qədim dövr-

lərdən odun, alovun, bir sözlə, müqəddəs ocağın rəmzi sayılan bir qrup ornamentə və rəsmlərə rast gəlinir [3]. Bunlardan ən çox yayılmışları "buta" (alimlərə görə, buta, həmçinin tovuz quşunun rəmzi olmaqla eyni mənaya malik odu, alovu, ocağı təmsil edir) ornamentidir.

## ƏDƏBİYYAT

1. Azəri L. Kamil Əliyev: rəssam və dövr. "Mədəniyyət" qəz., 2021, 22 oktyabr
2. Məmmədova L. Azərbaycan xalçaçılıq sənəti. Naxçıvan: Əcəmi, 2019, 168 s.
3. Dünyamalıyeva S. Ornament (tarixi, nəzəriyyəsi, quruluşu). Bakı: Nasir, 2014, 271 s.

***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: rubabeimanli@gmail.com***

**Rubaba Imanli**

## NATIONAL PATTERNS IN THE WORKS OF KAMIL ALIYEV

For his creative activity, the great artist Kamil Aliyev created dozens of carpets – a gallery of portraits of famous political and public figures, representatives of culture and art of Azerbaijan and other countries. Kamil Aliyev is also the author of many ornamental compositions inspired by the examples of classical carpet art. Nightingales, flowers, petals, etc., are placed on ornamental carpets with great skill. The works of Kamil Aliyev amaze with their high professionalism, delicate artistic taste, and bright colors. Kamil Aliyev devoted his entire life to preserving and developing the ancient traditions of carpet weaving, which are an integral part of the culture of the Azerbaijan people. The master's works, included in the national cultural treasury, are worthy of the Azerbaijan school of carpet weaving.

**Keywords:** *national pattern, color, carpet weaving, composition, carpet weaving, ornamental carpets, museum, golden color.*

**Рубаба Иманлы**

## НАЦИОНАЛЬНЫЕ УЗОРЫ В ТВОРЧЕСТВЕ КЯМИЛЯ АЛИЕВА

Великий художник Кямиль Алиев за период творческой активности создал десятки ковров – галерею портретов известных политических и общественных деятелей, представителей культуры и искусства Азербайджана

и других стран. Кямиль Алиев также является автором множества орнаментальных композиций, вдохновленных образцами классического коврового искусства. На орнаментальных коврах с большим мастерством вытканы соловьи, цветы, лепестки и т. д. Работы Кямиля Алиева поражают высоким профессионализмом, тонким художественным вкусом и яркими красками. Кямиль Алиев всю свою жизнь посвятил сохранению и развитию древних традиций ковроткачества, которые являются неотъемлемой частью культуры азербайджанского народа. Работы мастера, внесенные в национальную культурную сокровищницу, являются достойным продолжением азербайджанской школы ковроткачества.

**Ключевые слова:***национальный узор, колорит, ковродел, композиция, ковроткачество, орнаментальные ковры, музей, золотистый цвет.*

**TOĞRUL ƏSGƏROV**

# PORTRET-XALÇA SƏNƏTİNİN MAHİR USTADI: XALQ RƏSSAMI KAMİL ƏLİYEV

*Məqalədə Azərbaycan Respublikasının Xalq rəssamı Kamil Əliyevin yaratdığı portret-xalçalar xalçaçılıq sənətimizin yeni ənənələrinin yaradılmasında və inkişafında özünə məxsus çalarları ilə xüsusi mərhələ təşkil etdiyindən bəhs olunur. Həmçinin ornamental rəssam kimi Azərbaycan və dünya klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini, onların yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə yüksək peşəkarlıqla yaratması vurğulanır.*

**Açar sözlər:** *Kamil Əliyev, Xalq rəssamı, portret-xalça, miniatür, sənət əsəri.*

Xalqımızın həyatında müstəsna yer tutan xalça sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına ömrünü həsr edən sənətkarlardan biri də Azərbaycan Respublikasının Xalq rəssamı Kamil Əliyevdir. Onun yaratdığı portret-xalçalar mədəniyyətimizin qızıl fondunun inciləridir. Rəssamın misilsiz nailiyyəti xalçanın səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarları ilə işləmək bacarığı idi.

Kamil Əliyev 1921-ci il oktyabrın 22-də Qərbi Azərbaycanın İrəvan şəhərində dünyaya göz açmışdır. Rəssamlıq sənətinə olan həvəsini 1936-cı ildə Bakı Rəssamlıq Məktəbində gerçəkləşdirmişdir. Təhsil aldığı müddətdə müəllimlərinin məsləhəti ilə təhsildən ayrılmadan "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi fəaliyyət göstərir [2]. Dünya müharibəsinin canlı şahidi olan Kamil Əliyev 1946-cı ildə ordudan qayıtdıqdan sonra da öz sevimli peşəsini Respublika Bədii Fonduna rəhbərlik etməklə davam etdirmişdir. Bakı zərgərlik fabrikində direktor vəzifəsində işlədiyi müddətdə qızıl, gümüş və digər materiallarda özünün mahir bədii tərtibatçı, ornamental rəssam kimi məharətini nümayiş etdirir.

1950-ci illərdən etibarən Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tuturdu [4]. Ornamentdən istifadə edərək Azərbaycan və dünya klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini, onların yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə yüksək peşəkarlıqla yaradır.

Kamil Əliyev 1958-ci ildə ilk portret-xalçasını böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr etmişdir. Bu xalçanın təravətli, şux rəngli naxışları Füzuli lirikasının dərinliyindən xəbər verir. Həmin xalı xalq sənətimizin qiymətli bir incisi kimi Azərbaycan Dövlət İncəsənət Muzeyinin daimi ekspozisiyasına daxil edilir və sərgilənir. Rəssam bir müddətdən

sonra dahi şairlərimiz İmadəddin Nəsimi və Nizami Gəncəvinin yaradıcılığına və dünyagörüşünə xas olan cəhətləri xalça sənətinin ifadə vasitələri ilə açmaqla, hər iki dühanın portretini xalça üzərində müvəffəqiyyətlə yaratmışdır.

Bundan sonra Kamil Əliyev portret-xalçalarını müxtəlif ölkələrin tanınmış siyasət və dövlət xadimlərinə həsr edir. Hindistanda yaradıcılıq ezamiyyətində olarkən hind incəsənətinin incilərilə, mədəniyyətilə yaxından tanış olur. Vətənə qayıtdıqdan sonra İndira Qandinin portret-xalçasını yaratmaq üzərində düşünür və uzun müddət xalçanın çeşnisi üzərində işləyir. Nəhayət o, ustalıqla Azərbaycan və Hindistan sənəti üçün ənənəvi olan "buta" ornament motivindən, hindli və azərbaycanlı xalça ustalarının çox sevdiyi tünd-göy rəng çalarlarından özünəməxsus tərzdə istifadə etməklə məqsədinə nail olur.

Kamil Əliyev türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkə həsr etdiyi portret-xalısını tam başqa ovqatda, bədii üslubda ərsəyə gətirir. Bu portret xalça onun ən böyük sənət uğuru kimi bir çox dövlət, elm və mədəniyyət xadimlərinin diqqətini cəlb edir. Onlar portret xalçanı çox yüksək dəyərləndirməklə, Kamil Əliyev sənətinə böyük hörmətlərini, ehtiramlarını bildirmişlər.

Bütün həyatını, ömrünü-gününü xalqına həsr etmiş, öz xalqının taleyində əbədi iz qoymuş böyük dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin 75 illiyinə həsr etdiyi, ölkənin Ali Baş Komandanı kimi general libasında portret xalçası Kamil Əliyevin 1998-ci ildə yaratdığı ən yüksək bədii xüsusiyyətlər kəsb edən əsəridir.

"Türkbaf" ilməsi ilə toxunan bu portret təsvirli xalılar rəsmin dəqiq, real təsvirini təmin etməklə, çox sıx toxunması ilə də fərqlənir. Texniki cəhətdən portret xalçaları yaratmaq yüksək peşəkarlıq tələb etdiyindən bu da xalçalardakı portretlərin orijinala oxşamasına böyük təsir göstərir.

Xalq rəssamı Kamil Əliyev həyatını ölkəmizdə xalça sənəti ənənələrinin yaşadılmasına və inkişafına həsr edir. Onun misilsiz nailiyyəti onda idi ki, o, portret xalçaları yaradarkən həmin xalçaların səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarlarından özünəməxsus tərzdə istifadə edirdi.

Milli İncəsənət Muzeyi və Kamil Əliyevin Ev Muzeyində qorunub saxlanılan xalça eskizləri, onların əsasında toxunan xalçalar misilsiz sənət nümunələridir [3]. Həmin əsərlər istər xalq rəssamının sağlığında, istərsə də sonrakı dönəmdə əsl sənət incisi kimi dəfələrlə həm respublikamızda, eləcə də respublikamızın hüdudlarından kənarda – Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və digər şəhərlərin muzey və qalereyalarında nümayiş olunub. Yubileylərinə həsr edilmiş kataloqlar nəşr edilib. Bu gün respublikamızda Kamil Əliyevin ərsəyə gətirdiyi xalçalar bir sənət incisi kimi muzeylərimizin ekspozisiyalarını bəzəyir.

Kamil Əliyev Azərbaycan xalça sənətinin inkişafı və zənginləşməsinə böyük töhfələr bəxş etmiş sənətkardır. Onun ecazkar sənətkarlığı nəticəsində yaranan çoxsaylı ornamental və portret xalçalar və zəngin ornamental xalçaçılıq əsərləri ornament elementlərinin uyarlığı, kompozisiya bitkinliyi, rəsmlərinin zərifliyi və ifadəliliyi, zəngin koloritinə görə milli-mənəvi, mədəni sərvətimiz olan xalçaçılıq sənətinin qiymətli nümunələridir.

Ümummilli lider Heydər Əliyev Milli mədəniyyətimizin yaşadılması və təbliğində Kamil Əliyevin yaradıcılığını yüksək qiymətləndirmişdir: **"Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerini tutacaq"**. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görkəmli sənətkar "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" imzaladığı 12 oktyabr 2021-ci il tarixli Sərəncamı və eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 16 oktyabr tarixli "Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər Planının təsdiq edilməsi haqqında" sərəncamı sənətə və sənətkara verilən yüksək dəyərin bariz göstəricisidir.

Maddi-mənəvi irsimizi qorumaq, gələcək nəsillərə ötürmək dövlətimizin müəyyən etdiyi mədəniyyət strategiyasının əsas istiqamətlərindəndir. Bu baxımdan Azərbaycan xalça sənəti də beynəlxalq səviyyədə layiqincə təbliğ olunaraq 2010-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edildi [1]. Bu mühüm nailiyyət Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xalqımızın mədəniyyətinə, mədəni irsimizin təbliğinə göstərdiyi diqqət və qayğısı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və böyük əməyi nəticəsində Azərbaycan muğam sənəti və Azərbaycan aşıq sənətindən sonra milli xalça sənətimizin bu siyahıda yer alması ümumən mədəniyyətimizin beynəlxalq miqyasda tanıdılması yönündə daha bir uğurlu addım oldu.

Xalq rəssamı Kamil Əliyevin yaratdığı xalçalar milli-mənəvi irsimizin ayrılmaz tərkib hissəsi olmaqla, ümumi mədəniyyətimiz üçün də sərvətdir. Onun əsərləri ilə Azərbaycanın müasir xalçaçılıq sənəti bədii və texniki baxımdan zəriflik, rəng həllinə görə isə çoxçalarlılıq qazanmış, inkişaf etmişdir.

Azərbaycan xalq dekorativ-tətbiqi sənəti sahəsində göstərdiyi səmərəli xidmətlərə görə Kamil Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına (1960) layiq görülür, həmçinin respublikanın "Tətbiqi incəsənət ustası" fəxri adını qazanır. O, "Əməkdar rəssam" (1967), "Xalq rəssamı" (1982) fəxri adları ilə təltif edilir. Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən rəssama dekorativ və tətbiqi sənət sahəsindəki xidmətlərinə görə (1998)

professor elmi adı verilir. Ümummilli lider Heydər Əliyev ona "İstiqlal" ordenini (1999) təqdim edir. Xalq rəssamı 2005-ci ilin mart ayının 1-də əbədiyyətə qovuşur.

Qürurla deyə bilərik ki, Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqımızın milli mədəniyyəti tarixində özünəməxsus yer tutmuş, bundan sonra da öz layiqli yerini qoruyub saxlayacaqdır. Kamil Əliyevin yaratdığı portret-xalçalar bu gün olduğu kimi gələcəkdə də insanların zövqünü oxşamaqla, xalça sənətimizin inkişafına öz töhfələrini verəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycanın xalça sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmasının 10 illiyi münasibətilə keçirilən tədbir. http://mct.gov.az›umumi-xe... 2020, 16 noyabr.
2. Kamil Əliyev. https://az.wikipedia/org wiki.
3. Azəri L. Kamil Əliyev: rəssam və dövr. "Mədəniyyət" qəz., 2021, 22 okyabr.
4. Məmmədova Ü. Azərbaycan xalça sənətinin kamillik zirvəsində. "Şərq qapısı" qəz., 2021, 21oktyabr.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: toğrulesgrov@yahoo.com***

**Togrul Asgarov**

## MASTER OF PORTRAIT AND CARPET ART: PEOPLE'S ARTIST KAMIL ALIYEV

The paper says that the carpets-portraits, created by the People's Artist of the Republic of Azerbaijan Kamil Aliyev, with their shades represent a particular stage in creating and developing new traditions of our art of carpet weaving. It is also emphasized that he, as an ornamental artist, created portraits of Azerbaijani and world classics, prominent politicians, the world of feelings and emotions in their work with high professionalism through shades of color.

**Keywords:** *Kamil Aliyev, people's artist, portrait-carpet, miniature, work of art.*

**Тогрул Аскеров**

# МАСТЕР ПОРТРЕТНО-КОВРОВОГО ИСКУССТВА: НАРОДНЫЙ ХУДОЖНИК КЯМИЛЬ АЛИЕВ

В статье говорится, что ковры-портреты, созданные народным художником Азербайджанской Республики Кямилем Алиевым, своими оттенками представляют собой особый этап в создании и развитии новых традиций нашего искусства ковроткачества. Также подчеркивается, что он как художник-орнаменталист с высоким профессионализмом через оттенки цвета создавал портреты азербайджанских и мировых классиков, выдающихся государственных деятелей, мир чувств и эмоций в их творчестве.

**Ключевые слова:** *Кямиль Алиев, народный художник, портрет-ковер, миниатюра, произведение искусства.*

ƏZİZƏ MƏMMƏDOVA

# KAMİL ƏLİYEV YARADICILIĞINDA GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN OBRAZI

*Məqalədə Azərbaycanın xalçaçı-rəssamı olaraq tarixə iz salmış Kamil Əliyevin şaxəli və orijinal üslubu ilə milli mədəniyyətimizə verdiyi töhfələr qeyd edilmişdi. Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret xalçaların yaradılması aparıcı mövqe tutur. Sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaradır. Məlumdur ki, xalçaçılıq rəssamdan hərtərəfli istedad və zəhmət tələb edir. Kamil Əliyevin, xüsusilə, son illərdə yaratdığı xalçalardakı texniki mükəmməllik, yüksək səviyyəli rəsm duyumu, ürəkaçan kolorit, bütünlükdə xalçanın estetikası insanı heyran edir. Xalçaları birləşdirən ən mühüm cəhət həm portret cizgilərinin, həm də xarakterlərinin ilmələrə düzgün köçürülməsidir. Kamil Əliyev Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, şəxsiyyətlərimizi əbədiləşdirdi, irqindən, coğrafi məkanlarından asılı olmayaraq, dünya miqyasında tanınmış simaları xalçalarına obraz seçdi. Dünyada portret-xalçaların ən yaxşı nümunələrini Kamil Əliyev yaratmışdır.*

**Açar sözlər:** *Kamil Əliyev, portret-xalça, obraz, naxış.*

Kamil Əliyev 1921-ci il oktyabrın 22-də Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. Anası Xanım, atası Müseyib kişi olub. 1936-cı ilin sentyabr ayında anası onu, Bakı Rəssamlıq Məktəbinə, tanınmış rəssam Əzim Əzimzadənin yanına aparır. Məktəbə qəbul edilən Kamil Əliyev 3 il burada dekorasiya şöbəsində təhsil alır və müəllimlərinin məsləhəti ilə oxuya-oxuya "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi işləməyə başlayır. Kamil Əliyev İkinci Dünya müharibəsində iştirak etmiş, döyüş rəşadətinə görə 22 orden və medalla təltif edilmişdir. Xalq dekorativ-tətbiqi sənəti sahəsində gördüyü səmərəli elmi işlərə görə ona professor elmi dərəcəsi verilib. Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini yeni yüksəkliklərə qaldıran, xalça sənətinin incəliklərini qoruyub-saxlayaraq, onu daha da zənginləşdirən, xalçada rəngarəng milli naxışlar, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır. O, 1930-cu illərdə Bakı rəssamlıq məktəbində oxuyarkən "Azərxalça" birliyində Lətif Kərimov, Qəzənfər Xalıqov, Kazım Kazımzadə və başqa görkəmli sənət adamları ilə birlikdə bacarıqlı ornamental rəssam kimi çalışmışdır. Həmin illərdə o, yalnız xalı, parça kimi toxuma mallarında yox, həmçinin, qızıl, gümüş və digər materiallarda da özünün mahir bədii tərtibatçı, ornamental rəssam kimi məharətini nümayiş etdirir.

1950-ci illərdən etibarən, Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması aparıcı mövqe tutur. Bu illərdə sənətkar bir-

birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaradır. Kamil Əliyev ornamentdən istifadə edərək şair, mütəfəkkirlərin yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir. Kamil Əliyev ilk portret-xalçasını 1958-ci ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr etmişdir. Bu xalçanın təravətli, şux rəngli naxışları Füzuli lirikasının dərinliyini tamaşaçıya çatdırır. Bu xalı xalq sənətimizin qiymətli bir incisi kimi Azərbaycan Dövlət İncəsənət Muzeyinin daimi ekspozisiyasına daxil edilmişdir.



Məhəmməd Füzulinin portreti, 1958-ci il.

O bir müddət keçəndən sonra İmadəddin Nəsimi və Nizami Gəncəviyə həsr edilmiş xalıları da yaradır. Rəssam bu dahi şairlərimizin hər birinin yaradıcılığına və dünyagörüşünə xas olan cəhətləri xalça sənətinin ifadə vasitələri ilə açmağa səy göstərmiş və məqsədinə nail olmuşdur. Hazırda Bakıda Azərbaycan Milli Xalça Muzeyində nümayiş etdirilən Nizami Gəncəvi xalısının iki başqa variantı da var. Onlardan birini müəllif Kiyevdə keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində özbək xalqına bağışlamışdır.

“Nizami Gəncəvi” xalçasının bədii tərtibatı üzərində işləyərkən Kamil Əliyev qədim “Quran” əlyazması kitabında rast gəldiyi naxış elementlərindən istifadə edib.

Portret xalçalarında müxtəlif naxışlardan da istifadə etmişdir. Bunlara misal olaraq ulduz, göz qarmaq gül, kiçik göl, yarpaq ,axar su və s. göstərmək olar [1, s. 73].




Nizami Gəncəvinin portreti, 1987-ci il.

1973-cü ildə böyük ustad şair İmadəddin Nəsiminin 600 illik yubileyi münasibətilə yaratdığı portret xalçası nadir sənət abidəsi kimi fantastik zirvəyə ucalmışdır. Bu xalça üzərinə 700 mindən artıq ilmə vurulmuşdur. Rəssam sehrli ornamentlərin öz təfəkkürünün ona diktə etdiyi yeni formalarını yaratmış, rəngləri təcrübədən keçirmiş, özünü dekorativ sənətin bu və ya digər sahələrində sınağa çəkmişdir.

Daha sonralar müxtəlif illərdə toxunmuş "Mirzə Fətəli Axundov" (1978), "Şota Rustaveli" (1981), "İndira Qandi" (1985), "Rabindranat Taqor" (1987) kimi xalçaların hər birində Kamil Əliyev tərəfindən istifadə edilən fərqli medalyon məmulat üzərində təqdim edilən şəxsin dünyaya baxışları və fəlsəfəsi ilə uzlaşır. Bu süjetlər qalereyasını zənginləşdirən, yeni ruh gətirən şəxsiyyətlər içərisində Azərbaycan xalqı üçün və dünya miqyasında tanınan ictimai xadimlər və siyasətçilərdən Ümummilli lider Heydər Əliyev (1980, 1998, 1999, 2004), İlham Əliyev (1997), Mustafa Kamal Atatürk (1991,1996), Süleyman Dəmirəl (1994) və digər tanınmış şəxsiyyətlər var [4].

Bir məqamı da diqqətə çatdıraq ki, rəssam Hindistanda yaradıcılıq ezamiyyətində olarkən bu qədim Şərq ölkəsinin mədəniyyətilə yaxından tanış olur, İndira Qandinin portret-xalçasını yaratmaq üzərində düşünür. Vətənə qayıtdıqdan sonra uzun müddət xalçanın çeşnisi üzərində işləyir. Uzun axtarışlar və hind

incəsənətinin incilərilə tanışlıq müəllifə bu işdə kömək etmişdir. Kamil Əliyev Azərbaycan və Hindistan sənəti üçün ənənəvi olan “buta” ornament motivindən, hindli və azərbaycanlı xalça ustalarının çox sevdiyi tünd-göy rəng çalarlarından özünəməxsus surətdə ustalıqla istifadə etmişdir.

Qeyd etməliyik ki, portret təsvirli xalılar, adətən, “Türkbaf” ilməsi ilə toxunur. Bu da rəsmin dəqiq, real təsvirini təmin edir. Bu xalılar çox sıx toxunulmaları ilə də səciyyəvidir. Texniki cəhətdən portret xalçalığı yüksək professionallıq tələb edir. Bütün bunlar, xalçalardakı portretlərin orijinala oxşamasına da böyük təsir göstərir [2]. Ömrünü-gününü xalqına həsr etmiş, öz xalqının taleyində əbədi iz qoymuş böyük dövlət xadimi, qüdrətli şəxsiyyət Ümumilli lider Heydər Əliyevin Kamil Əliyevin tərəfindən 1998-ci ildə yaradılmış yüksək bədii xüsusiyyətlər kəsb edən portreti də belə əsərlərdəndir. Kamil Əliyev Heydər Əliyevin ölkənin Ali Baş Komandanı kimi general libasında portret xalçasını yaratmışdır. Bu portret ictimaiyyət arasında böyük rəğbətlə qarşılanmışdır. Heydər Əliyevin portreti onun 75 illiyinə hədiyyə idi. Ümummilli Liderimiz Heydər Əliyev öz portreti toxunmuş xalçaya baxarkən susmuş, əlini ilmələrə sürtərək demişdir ki, Kamil, sənin xalçaların dil açıb danışır, insanı söhbətə çağırır.

Həqiqətən də, bu xalçada ulu Öndərimizin müdrikliyi, qətiyyəti, qüdrəti ən müxtəlif rəng çalarları fonunda elə məharətlə ifadə olunmuşdur ki, tamaşa edən hər kəsi heyrətləndirir. Kitabın dahi siyasətçi ilə xalça dahisi arasında səmimi dostluq münasibətlərindən bəhs edən səhifələrindəki məlumatlar da olduqca ibrətamizdir. Ümummilli lider Heydər Əliyev onun bu sənətini yüksək qiymətləndirmiş və demişdir: **“Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaqlar və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerlərini tutacaqlar”**. Kamil Əliyev incəsənətimizi yüksəkliklərə qaldıran, onu öz əsərləri ilə daha da zənginləşdirən görkəmli şəxslərdən biridir.

Birincisi 1980-ci ildə toxunan xalçanın üzərində Kamil Əliyev müdrik dövlət başçısının, böyük siyasi xadimin portretini yüksək zövq və sənətkarlıqla yaratmışdır.

İkinci xalçada müəllif generalın ciddi baxışlarını, mühüm mövqe sahibi olduğunu ilmələrin köməyilə açıb göstərmişdir. Bu möhtəşəm sənət əsəri əvvəllər Naxçıvan Dövlət Xalça Muzeyində mühafizə olunub, hazırda isə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin ekspozisiyasında nümayiş etdirilməkdədir.

Azərbaycan incəsənətində göstərdiyi xidmətlərə görə Kamil Əliyev ilk dəfə 1960-cı ildə fəxri fərmana layiq görülüb, respublikanın “Tətbiqi incəsənət ustası” fəxri adını qazanıb. 1967-ci ildə “Əməkdar rəssam”, 1982-ci ildə “Xalq rəssamı”

fəxri adları ilə təltif edilib. 1998-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən rəssama dekorativ və tətbiqi sənət üzrə professor elmi adı verilib, 1999-cu ildə isə ümummilli lider tərəfindən "İstiqlal" ordeninə layiq görülüb.



Ümummilli lider Heydər Əliyevin portreti, 1998-ci il.



Mənim anam, 2002-ci il.

Kamil Əliyev istifadə etdiyi bütün rəngləri topladığı bitki və ağaclardan özü alar, ipləri də özü boyayardı. Bir də deyərmiş ki, xalçanı ya divardan asırlar, ya da üstündə namaz qılıb Allaha dua edirlər, gərək bu müqəddəsliyi qoruyub

gözləyəsən. Ustad sənətkarın əsərləri onun yadigar qoyub getdiyi xalça muzeyində toplanmışdır. Qədim İçərişəhərdəki bu muzeyə gələn qonaqlar Azərbaycan xalq sənətinin zirvəsi olan xalçaçılığın sirli-soraqlı nümunələri ilə tanış olarkən, şübhəsiz ki, qədim el sənətimiz və onun vurğunu Kamil Əliyev haqqında daha ətraflı məlumat ala biləcəklər.

Sonuncu əsərləri anasına və Mirmöhsün ağaya həsr edib.

Sonda Mirmöhsün ağanın xalçasını toxuyarkən vəfat etmişdir. Azərbaycan xalçaçılıq sənətində öz dünyasını yaradan Kamil Əliyevin əsərləri dünyanın görkəmli muzeylərində varsa deməli o yaşayır. Yetirdiyi mütəxəssislər, rəssamlar fəaliyyət göstərdikcə Kamil Əliyevin dəst-xətti görünür.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalçaları jurnalı. Naxçıvan xalçalarında tətbiq edilən işarələr və onların anlamı.
2. Əfəndiyev R. Azərbaycan İncəsənəti. Bakı, 2009.
3. "Mədəniyyət" qəz., 21.10.2011.
4. Nizamiqızı G. Xalçalarda yaşanan ömür. Bakı, 2011.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: aysummamedova1990@mail.com***

**Aziza Mammadova**

## IMAGES OF PROMINENT FIGURES IN KAMIL ALIYEV'S WORKS

The paper deals with the contribution given to our national culture by Kamil Aliyev, who went down in history as a carpet-painter with his multi-branch and authentic style. The creation of plotted rugs and portrait carpets occupy significant space in Kamil Aliyev's creativity. Master created the portraits of Azerbaijani classical poets, prominent statesmen one after another in high proficiency. Obviously, carpet-weaving requires a comprehensive talent and toil from the painter. Technical perfection, particularly in recent years created by Kamil Aliyev charms the people with high-level painting sense, pleasant colors, aesthetics of the carpet on the whole. The main feature of combining the carpets is copying both portrait lines and characters with looms. He created history in Azerbaijani carpets, immortalized our genii and personalities. Irrespective of race and place, he chose well-known figures as characters for his carpets. Kamil Aliyev created artistic samples of portrait-carpets in the world.

**Keywords:** *national, carpet-weaving, painter, Kamil Aliyev, prominent.*

**Азиза Мамедова**

## ОБРАЗЫ ВЫДАЮЩИХСЯ ЛИЧНОСТЕЙ В ТВОРЧЕСТВЕ КЯМИЛЯ АЛИЕВА

В статье рассматривается вклад в нашу национальную культуру Кямиля Алиева, вошедшего в историю как художник-ковродел со своим многопрофильным и аутентичным стилем. Значительное место в творчестве Кямиля Алиева занимает создание сюжетных ковров и ковров-портретов. Мастер с высоким профессионализмом создавал один за другим портреты азербайджанских поэтов-классиков, выдающихся государственных деятелей. Очевидно, что ковроткачество требует от художника разностороннего таланта и труда. Техническое совершенство ковров, в частности, созданных в последние годы Кямилем Алиевым, очаровывает людей высоким уровнем понимания живописи, приятными красками, эстетикой ковра в целом. Главная особенность, объединяющая ковры, – правильный перенос с помощью петель как портретных линий, так и характера персонажей. Он создал историю в азербайджанских коврах, увековечил наших гениев и видных деятелей, независимо от расы и места проживания, героями своих ковров он выбирал известные в мировом масштабе образы. Кямиль Алиев создал лучшие образцы портретных ковров в мире.

**Ключевые слова:** *Кямиль Алиев, ковер-портрет, образ, орнамент.*

ÜLVİYYƏ MƏMMƏDOVA

# AZƏRBAYCAN XALÇA SƏNƏTİNİN KAMİLLİK ZİRVƏSİNDƏ

*Məqalədə Azərbaycan Respublikasının Xalq rəssamı Kamil Əliyevin portret-xalça yaradıcılığı təhlil olunur. Şübhəsiz, onun yaratdığı portret-xalçalar xalçaçılıq sənətimizin yeni ənənələrinin yaradılmasında və inkişafında özünə məxsus çalarları ilə xüsusi mərhələ təşkil edir. Həmçinin ornamental rəssam kimi Azərbaycan və dünya klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini, onların yaradıcılığındakı hisslər və emosiyalar aləmini rəng çalarları vasitəsilə yüksək peşəkarlıqla yaratması vurğulanır.*

**Açar sözlər:** *Xalq rəssamı, Kamil Əliyev, portret-xalça, miniatür, sənət əsəri.*

Azərbaycan xalqının milli-mənəvi dünyasını, gözəllik duyumunu, dərin fitri istedadını, dünyaya fəlsəfi baxışlarını özünəməxsus sirli naxışlarda yaşadan Azərbaycan xalça sənətinin çox qədim tarixi vardır. Qədim tarixə malik xalçaçılıq sənətinin sirlərini nəsildən-nəslə öyrədərək və ötürərək bu günümüzədək gəlib çatmasında xalça ustalarının əvəzsiz xidmətləri danılmazdır. Məhz belə ustalardan biri də Kamil Əliyevdir.

Azərbaycan xalçaçılıq sənətinin klassikası, rənglər və ilmələr sehrkarı, rəssam, vətənpərvər insan Kamil Müseyib oğlu Əliyev 1921-ci ildə oktyabr ayının 22-də Qərbi Azərbaycanın, İrəvan şəhərində dünyaya göz açmışdır.

Bu illər ermənilərin azərbaycanlılara qarşı amansızcasına davam etdirdikləri qanlı soyqırım siyasətinin qurbanı olan millətimiz, baş verən ağrılı-acılı hadisələrdən irəli gələrək öz dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qalmışdılar. Bu köçkün ailələrdən biri də Kamil Əliyevlərin ailəsi idi. Onlar 1922-ci ildə Türkiyədə sığınacaq tapırlar, az sonra öz ailəsi ilə birlikdə yenidən İrəvana qayıdan Müseyib kişi ermənilər tərəfindən davam edən amansızlıqlardan nəticə çıxararaq Bakıya köçür və Çəmbərəkənddə ailəsiylə birgə yaşamağa başlayır.

Elə bu zamandan etibarən İrəvan məfhumu 8 yaşlı Kamilin xəyalında və gələcəkdə toxuyacağı naxışlarda nağıl kimi yaşayır, həyatda isə onun gələcək taleyini müəyyən edən yeni duyğular baş qaldırır.

Nənəsi Gülsüm xanım və Xanım anasının toxuduğu xalçaların ecazkar təsir qüvvəsi Kamilin iç dünyasına hopur və onu ovsunlayır. Zümzüməsinin müşayiəti ilə gecə, lampa işığında xalı-xalça toxuyan nənəsinin əllərinə baxmaq, əriş üzərində iti hərəkətlərlə düyün salan anasını izləmək Kamilin ən sevimli vərdişlərindən idi.

Atasını erkən itirən Kamilin ailəsinin yeganə qazanc mənbəyi onların evində toxunan xalçalardan gələn gəlir idi. Lakin bu gəlirdən daha dəyərlisi, Kamilin gələcəkdə yiyələnəcəyi sənətə qazandığı sevgi oldu.

Kamil Əliyev güclü insan idi. Onda liderlik qabiliyyəti, istədiyinə çatmaq üçün bütün maneələri dəf etmək bacarığı, bütün çətinliklərə qatlaşmaq, ən ağır əməyi öz üzərinə götürüb yüksək səviyyədə həyata keçirmək istedadı var idi.

Kamil Əliyevin böyük bacısı Mənzər gənc yaşlarından rəssamlığa və xalça sənətinə meyl etmişdir. Bu meyl onun Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin dekorativ-tətbiqi sənət şöbəsinə daxil olmasına səbəb oldu. Sonralar tanınmış xalça rəssamı olacaq bacısı Mənzərin püxtələşməsinə təsir edən müsbət cəhətlərdən biri də məktəbdə onun Lətif Kərimovdan dərs alması olmuşdur.

Bacısından örnək götürüb 1936-cı ildə Bakı Rəssamlıq Məktəbinin Dekorasiya şöbəsinə daxil olan Kamil üçillik təhsilini başa vurduqdan sonra "Azərxalça" Birliyinin eksperimental laboratoriyada köçürücü-rəssam kimi çalışmağa başlayır.

Burada o, Qəzənfər Xalıqov, Əmir Hacıyev, Lətif Kərimov, Kazım Kazımzadə, İsmayıl Axundov kimi böyük sənətkarlardan təcrübə qazanır və öz üzərində işləyir.

Kamil Əliyev 1939-cu ildə Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunan süjetli xalçaların toxunmasında çox fəal iştirak edir.

Ömrünü xalçalara, naxışlara həsr edən Kamilə dövlət tərəfindən etimad göstərilərək 1962-ci ildə Yerli Sənaye Nazirliyində İstehsalat şöbəsinə rəis, 1963-1971-ci illər arasında isə "Bakı Zərgərlik Məmulatları" fabrikinə direktor və incəsənətlə bağlı digər mühüm obyektlərə rəhbərlik həvalə edilir. Bütün qazandığı nailiyyətlərə baxmayaraq Kamil Əliyev xalça sənətinə olan eşqinə sadiq qalır.

Kamil Əliyevin toxuduğu xalçalar üzərində həm mənəvi aləm, qədim tariximiz, zərif düzümlü bəzək elementləri, kalliqrafik yazılar, sonsuz və dərin rəng çalarları böyük ustalıqla təcəssüm edilib.

Kamil Əliyevin ilk toxuduğu xalça 1958-ci ildə nəinki Azərbaycanın, bütün Şərq poeziyasının tanınmış dühası Məhəmməd Füzulinin 400 illik yubileyinə həsr edilir. Xalqımızın tarixi yaddaşından gələn rənglərin, naxışların, mifik obrazların vəhdəti, gücü-qüdrəti, kompozisiyanın bədiiliyi, estetik-fəlsəfi qayəsi, monumental ruhu xalçanı və xalçaçı-rəssamı sənət zirvəsinə yüksəltmişdir. Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsərləri zirvəsinə ucalmışdır.

Rəssam sehrli ornamentlərin öz təfəkkürünün ona diktə etdiyi yeni formalarını yaratmış, rəngləri təcrübədən keçirmiş özünü dekorativ sənətin bu və ya digər sahələrində sınağa çəkmişdir.

Rəssamın yaradıcılığının diapazonu çoxşaxəlidir. Onun yaratdığı xalçalar şübhəsiz ki, yüksək sənət əsəri zirvəsinə ucalmışdır. Lakin xalçanın bu ali səviyyəyə ucalması nə qədər dəqiqlik gərəkdirsə, neçə texnoloji mərhələni adlamaq, düşünülmüş ideyanı təkmilləşdirib, hövsələ ilə bədii quruluşu – haşiyə (yelən),

ara sahə, göl arasındakı rəng və naxış vəhdətini kamilləşdirmək, ən nəhayət çeşnini incə ilmələrlə xalça üzərində toxuyub, məharətlə canlandırmaq lazım idi. Xalçanın toxunuşunda sıxlığı əldə etmək üçün hansı növ yun, hansı qalınlıqda iplik, hansı təbii tərkibdən alınacaq lazımi rəng, bir rəngdən o birinə keçidi duymaq qabiliyyəti Kamil Əliyevə xas idi [1].

Kamil Əliyev Azərbaycan xalçasını, bu sənətin inkişafda olan müasir vəziyyətini dünyanın hər yerində tanıtdı. O, Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, şəxsiyyətlərimizi əbədiləşdirdi. İrqindən, coğrafi məkanlarından asılı olmayaraq dünya miqyasında tanınmış simaları xalçalarına qəhrəman seçdi.

Bu növ ciddi çeşniləri işlədikcə bir qayda olaraq Kamil Əliyev məğrur, mübariz, humanist simaları ilmələrlə tam ifadə etmək üçün bütün bacarığını sərf edirdi. Hər bir portretin özünə xas kompozisiyasını yaradırdı. Yaratdığı bütün xalçalarda fərqli, bir-birinə bənzəməyən təqdimat hökm sürürdü.

1973-cü ildə böyük ustad şair İmadəddin Nəsiminin 600 illik yubileyi münasibətilə yaratdığı portret xalçası nadir sənət abidəsi kimi fantastik zirvəyə ucalmışdır. Bu xalça üzərinə 700 mindən artıq ilmə vurulmuşdur.

1978-ci ildə "Nizami Gəncəvi" xalçasının bədii tərtibatı üzərində işlərkən Kamil Əliyev qədim Quran əlyazması kitabında rast gəldiyi naxış elementlərindən istifadə edir.

Daha sonralar, müxtəlif illərdə toxunmuş "Mirzə Fətəli Axundov" (1978), "Şota Rustaveli" (1981), "İndira Qandi" (1985), "Rabindranat Taqor" (1987) kimi xalçaların hər birində Kamil Əliyev tərəfindən istifadə edilən fərqli medalyon məmulat üzərində təqdim edilən şəxsin dünyaya baxışları və fəlsəfəsi ilə uzlaşır.

Bu süjetlər qalereyasını zənginləşdirən, yeni ruh gətirən şəxsiyyətlər içərisində Azərbaycan xalqı üçün və dünya miqyasında tanınan ictimai xadimlər və siyasətçilərdən Ümumilli lider  Əliyev (1980, 1998, 1999, 2004), İlham Əliyev (1997), Mustafa Kamal Atatürk (1991,1996), Süleyman Dəmirəl (1994) və burada adları çəkilməyən bir neçə tanınmış şəxsiyyətlər var.

Kamil Əliyevin həyatının hər anı, hər dəqiqəsi qiymətli və məhsuldar olmuşdur. Bu fitri istedad sahibinin ürəyində daşıdığı ən böyük arzularından biri gənclik illərindən tanıdığı, hər zaman ehtiram göstərdiyi, xalqımızın iftixarı, qürur mənbəyi olan ulu öndərimizin portretini xalça üzərində yaratmaq idi [2].

1980-2005-ci illər arasında rəssam "Heydər Əliyev" xalçasının onlarla variantda layihəsini hazırlayır və bu layihələrdən dördüncü ilmələr üzərinə köçürür. Birincisi 1980-ci ildə toxunan xalça olur. Bu xalça üzərində Kamil Əliyev müdrik dövlət başçısının, böyük siyasi xadimin portretini yüksək zövq və sənətkarlıqla yaratmışdır.

"Heydər Əliyev" adlı ikinci xalçada müəllif generalın ciddi baxışlarını, mü-

hüm mövqe sahibi olduğunu ilmələrin köməyilə açıb göstərmişdir. Hazırda həmin xalça Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin ekspozisiyasında nümayiş etdirilməkdədir.

Rəssam Azərbaycan xalçasının əsl fədaisidir, o öz sənəti ilə istədiyi hər bir uğura nail ola bilib [3].

Azərbaycan incəsənətində göstərdiyi xidmətlərə görə Kamil Əliyev ilk dəfə 1960-cı ildə fəxri fərmana layiq görüldü, "Respublikanın tətbiqi incəsənət ustası" adını qazandı. 1967-ci ildə Əməkdar rəssam 1982-ci ildə Xalq rəssamı fəxri adları ilə təltif edildi. 1998-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən rəssama dekorativ və tətbiqi sənət üzrə professor elmi adı verilir, 1999-cu ildə isə ümummilli lider Heydər Əliyev tərəfindən "İstiqlal" ordeninə layiq görülmüşdür.

Kamil Əliyevin özünün zövqlə kompozisiyasını tərtib edib, xalça üzərində böyük dəqiqliklə çalışdığı ən sevimli nümunə onun anasına ithaf etdiyi və 2003-cü ildə toxuduğu "Mənim anam" xalçasıdır. Xatirələrinin hamısında anasını dünyanın ən gözəl xanımı olduğunu etiraf edən rəssam sanki toxuduğu bu əsər vasitəsilə nəzmə çəkmişdir. Xalçanın toxunduğu zaman rəssam böyük həyəcan keçirir, tələsir və əlini obrazın örpəkli saçları, nurlu çöhrəsi üzərində gəzdirərək..."bircə anamın xalçasının toxunub başa çatdığını görsəydim" deyərək xəyallara dalarmış.

Kamil Əliyevin xalça sənətinə gətirdiyi bir sıra yeniliklər olmuşdur. Əsas qeyd etmək gərəkdir ki, onlardan biri də bədii tərtibat baxımından portret üslubu ilə naxışı bir məkanda eyni səviyyədə yüksəltməkdir. Belə ki, o özündən əvvəl portret toxuyan xalçaçı-rəssamlardan fərqlənir, müəllifin xalçalarında saya yerlik, hədd anlayışı yoxdur. Onun xalçalarında obrazla naxış bir-birinə qovuşub, biri digərini tamamlayır, onlar dağ çeşməsi kimi fərqli məcralardan olub eyni mənbəyə tökülürlər.

Kamil Əliyevin sənəti xəlqidir. O, heç zaman xalq yaradıcılığından kənarda qalmamışdır. Məhz bu amalla rəssam yenə də yaradıcılığında klassik kompozisiyalara müraciət edirdi.

Kamil Əliyev yaradıcılığını şərti olaraq əgər iki qismə bölmək olarsa, sözsüz ki, onun ikinci qisminə rəssamın yaratdığı ornamental xalçaları aid ediləcəkdir. Ornamental xalçalar sırasında da Kamil Əliyev bir qisim xalçalarda yaratmışdır ki, onlar Azərbaycan xalçalarının bütün məktəbləri üzrə klassik çeşniləri əsasında toxunublar. Bunlardan "Qımıl", "Qollu Çiçi", "Xilə buta", "Suraxanı", "Mərəzə", "Qırmızı buta", "Quşlu", "Qırmızı bülbül" və sairələrini göstərmək olar. Əgər süjetli və ornamental xalçalar arasında müqayisə aparmağı düşünsək, bu işdə onların heç birinə ikincilik verilə bilməz. Çünki Kamil Əliyevin hər iki üslubda toxuduğu xalçaları hər zaman eyni uğura nail olmuşlar.

Rəssamın sevdiyi, hər cür haşiyə (yelən) zolağında və ya ara sahənin ele-

mentləri arasında aparıcı yer tutan "palmet" – Şərqdə isə "şah abbası" adı ilə tanınan nəbati naxışdır. Onun qönçə, ləçək, açılmış gül və sairə fərqli formaları vardır. Bütün bu gözəlliyi yaratmaq, onların öz arasında ahəngdar şəkildə tənasüblülüyünə nail olmaq üçün yalnız Kamil Əliyev qədər incə zövqlü, dərin düşüncəli, bacarıqlı, bir sözlə işinin peşəkarı olmaq lazım idi.

Xalq rəssamı, professor Kamil Əliyev Azərbaycan Respublikasının, onun milli-mədəni sərvətlərinin dünyada tanınmasında, sevilməsində əvəzsiz rol oynamışdır. Onun yaratdığı xalçalar respublika və dünya muzeylərinin, qalereyalarının, özəl kolleksiyalarının incilərindən sayılır. Onlar Azərbaycanımızın mədəniyyət salnaməsinin sənədli və canlı səhifələrinə çevrilmişdir.

Kamil Əliyevin yaratdığı hər bir əsər insanı özünün sehrinə salaraq valeh edir. İllər ötəcək, əsrlər keçəcək, nəsillər biri-birini əvəz edəcək lakin Kamil sənətinin zirvəsini bəlkə də fəth etmək mümkün olmayacaq.

Bu dünyada bütün yarananlar kimi, sənətkar ömrü də əfsuslar olsun ki, məhduddur. Əbədi qalan, daim yaşar isə xalqımızın minilliklər öncə yaratdığı və bu gün yüksələrək inkişaf edən xalça sənətidir.

Ölməz sənətkar Kamil Müseyib oğlu Əliyev 1 mart 2005-ci il tarixində, 84 yaşında əbədi olaraq aramızdan ayrıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il 12 oktyabr tarixli Sərəncamı, bu Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun 2021-ci il 16 oktyabr tarixli Sərəncamla təsdiq etdiyi "Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər Planı"na əsasən yubileyin dövlət səviyyəsində qeyd olunması böyük sənətkarın irsinə, eləcə də milli dəyərlərimizə verilən yüksək qiymətdir və Kamil Əliyevin həmişəyaşarlığının təsdiqidir.

***Naxçıvan Dövlət Xalça Muzeyi***
***E-mail: ulyamammadova02@gmail.com***

## ƏDƏBİYYAT

1. Azərbaycan xalçaları jurnalı. Naxçıvan xalçalarında tətbiq edilən işarələr və onların anlamı.
2. Əfəndiyev R. Azərbaycan İncəsənəti. Bakı, 2009.
3. Məmmədova L. Azərbaycan xalçaçılıq sənəti. Naxçıvan: Əcəmi, 2019, 168 s.
4. Dünyamalıyeva S. Ornament (tarixi, nəzəriyyəsi, quruluşu). Bakı: Nasir, 2014, 271 s.

**Ulviyya Mammadova**

## ON THE PEAK OF PERFECTION OF AZERBAIJAN CARPET ART

The article analyzes the portrait-carpet work of People's Artist of the Republic of Azerbaijan Kamil Aliyev. Undoubtedly, the portrait-carpets created by him are a special stage in the creation and development of new traditions of our carpet weaving art with their own shades. It is also emphasized that as an ornamental artist, he created portraits of Azerbaijani and world classics, prominent statesmen, the world of feelings and emotions in their work with high professionalism through shades of color.

**Keywords:** *People's Artist, Kamil Aliyev, portrait-carpet, miniature, work of art.*

**Ульвия Мамедова**

## ВЕРХ СОВЕРШЕНСТВА АЗЕРБАЙДЖАНСКОГО КОВРОВОГО ИСКУССТВА

В статье анализируется портретно-ковровое творчество народного художника Азербайджанской Республики Камиля Алиева. Несомненно, созданные им ковры-портреты являются особым этапом в создании и развитии новых традиций нашего ковроткачества со своими оттенками. Также подчеркивается, что как художник-орнаменталист с высоким профессионализмом через оттенки цвета создавал портреты азербайджанских и мировых классиков, выдающихся государственных деятелей, мир чувств и эмоций в их творчестве.

**Ключевые слова:** *народный художник Камиль Алиев, портрет-ковер, миниатюра, произведение искусства.*

**TÜRKAN QULİYEVA**

# KAMİL ƏLİYEV YARADICILIĞINA ÜMUMİ BAXIŞ

*Bu tədqiqat Azərbaycan xalçaçılıq sənətinin inkişafında mühüm əməyi olan Kamil Əliyev və onun yaradıcılığından bəhs edir. Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini lazımi mərtəbələrə qaldıran, xalça sənətinin sirlərini qoruyub-saxlamış, onun çeşnilərini daha da zənginləşdirmişdir. Xalçalarında rəngarəng milli naxışlar, fərqli rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır. Kamil Əliyev portret xalçalarının müəllifi kimi tanınır. Rəssam bir çox məşhur insanlara həsr olunmuş bütöv bir sıra rəsmlər yaratmışdır. Kamil Əliyevin əsas xidməti Azərbaycan xalçaçılıq sənətində realist portret janrından istifadə etməsi hesab olunur.*

**Açar sözlər:** *milli naxış, dekorativ tətbiqi sənət, çeşni, kompozisiya, ton.*

Hər bir xalqın incəsənət tarixində xüsusi sənət sahələri vardır. Hansı ki, orada həmin xalqın zəngin mənəvi aləmi, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsi əks olunmuşdur. Azərbaycan xalqı üçün də belə sənət növləri mövcud olmuşdur. Həmin sənət növlərindən biri də xalçaçılıqdır. Tədqiqatlar bunu göstərir ki, min illər boyu Azərbaycan incəsənətində xalçaçılıq sənətinin xüsusi yeri olmuşdur. Xalça məmulatları bu xalqın məişətinin dəyişməz atributu olmuşdur. Bu da təsadüfi deyildir. Toxuculuq və xalçaçılıq nəinki Azərbaycana eləcədə bir çox xalqlara məlumdur. Azərbaycan xalçaçılıq və bədii toxuma sənəti nümunələri işlənmə texnikasına uyğun olaraq, yarandığı ilk dövrlərdən harmoniyanın, ritmin və rəngin estetikasını özündə təcəssüm edirdi. Azərbaycan xalçalarının forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi onların tədqiqi üçün geniş meydan açır. Xalça Azərbaycan xalqının ədəbiyyatı, memarlığı, bədii miniatür və dekorativ-tətbiqi sənətinin digər növləri ilə çoxlu tellərlə bağlıdır [1, s. 6].

Azərbaycan xalçaçılıq ənənələrinin qorunması və gələcək nəsillərə çatdırılması, Azərbaycan mədəniyyətinin inkişafı və davamlılığı üçün mühüm məsələlərdən biridir. Bu ünsürlər nəzərə alınaraq 1967-ci ildə Azərbaycanda Xalça və Tətbiqi Sənət Muzeyi yaradılmışdır. Halhazırda həmin muzeydə mövcud olan 15 mindən artıq eksponatın 6 mindən artığını qədim azərbaycan xalçaları təşkil edir. Bu eksponatların hər biri Azərbaycanın müxtəlif rayon və kəndlərinin xalça ənənələrini özündə əks etdirir. Günümüzdə xalça sənətinin bir elm sahəsi kimi öyrənilməsi eləcədə onun peşəkar xalçaçı-rəssamların yaradıcılığında müasir inkişafı Azərbaycanın Xalq rəssamı Kamil Əliyev və eyni dövrdə birgə fəaliyyət göstərmiş bir neçə xalçaçı-rəssamların əvəz olunmaz əməyi ilə bağlıdır. Bu rəssamlar Azərbaycan xalçalarının qədim keçmişini tədqiq etmiş eləcədə Azər-

baycan dekorativ tətbiqi sənətini yeni ornamentlərlə zənginləşdirmiş və ənənəvi bəzək elementləri əsasında yeni dekorativ xalça motivləri yaratmışdırlar.

Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalq dekorativ-tətbiqi sənətini lazımi mərtəbələrə qaldıran, xalça sənətinin sirlərini qoruyub-saxlamış, onun çeşnilərini daha da zənginləşdirmişdir. Xalçalarında rəngarəng milli naxışlar, fərqli rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaradan görkəmli bir sənətkardır.

Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçalar aparıcı mövqe tutur. Sənətkarın yüksək professionallıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaratmışdır.

Kamil Əliyev portret xalçalarının müəllifi kimi tanınır. Rəssam bir çox məşhur insanlara həsr olunmuş bütöv bir sıra rəsmlər yaratmışdır. Kamil Əliyevin əsas xidməti Azərbaycan xalçaçılıq sənətində realist portret janrından istifadə etməsi hesab olunur. Kamil Əliyev şair və mütəfəkkirlərin öz yaradıcılıqlarındakı hislər və emosiyaları müxtəlif ornamentlərdən istifadə edərək və rəng çalarları vasitəsi ilə canlandıraraq, tamaşaçının mənəvi dünyasına təsir göstərir.

Kamil Əliyev ilk portret-xalçasını 1958-ci ildə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr etmişdir. Rəssam bu dahi şairlərimizin hər birinin yaradıcılığına və dünyagörüşünə xas olan cəhətləri xalça sənətinin ifadə vasitələri ilə açmışdır. Bu xalçanın təravətli, şux rəngli naxışları Füzuli lirikasının dərinliyini tamaşaçıya çatdırır [3].

Kamil Əliyevin yaradıcılığı əsasən dörd dövrə bölünür. Yaradıcılığının ilk dövründə Azərbaycanın şair və mütəfəkkirlərinin portretlərini yaratmışdır. Rəssamın yaradıcılığının ikinci dövrü xarici ədəbiyyat xadimlərinin (Şota Rustaveli, Rabindranat Taqor və s.) portretlərinə, üçüncü dövrü isə əsasən siyasi liderlərə (Ümumilli lider Heydər Əliyev, Mustafa Kamal Atatürk) həsr olunub. Nəhayət, Kamil Əliyev yaradıcılığının dördüncü dövründə əsasən “müqəddəs” insanların “Ana” və “Mir Mövsüm Ağa” portretlərindən ibarət xalçalar yaratmışdır.

Kamil Əliyevin fikirlərinə görə “xalça da neft kimi strateji sərvətdir”. Bu düşüncə onu həmişə xalçaçılığın gələcəyi haqqında düşünməyə vadar etmişdir. Kamil Əliyevin illər ərzində yaratdığı xalçalar bu gün Türkiyə, İran, ABŞ, Hindistan, Rusiya və Özbəkistanın sərgi salonlarında nümayiş etdirilir. 1998-ci ildə Kamil Əliyevin eskizləri üzrə toxunan xalçalar XXIII Beynəlxalq “Ən yaxşı ticarət nişanına görə” mükafatına layiq görülüb.



Mustafa Kamal Atatürkün portreti, 1991-ci il

Kamil Əliyevin xalça-portretlərində "Butalı" kompozisiyasına çox az rast gəlinir. Atatürkün təsviri olan xalçaların mərkəzi meydançasının tərtibatında "buta" elementinə rast gəlinir. Kamil Əliyevin bu əsəri belə xalça portretlərinə misal çəkilə bilər. Onun əsərləri arasında mərkəzi sahəsi islimi naxışla birləşən nəbati elementlərdən ibarət olan bir çox xalçalar var. Kamil Əliyev portret xalçalarının ara sahəsini "İslimibəndlik", "Tirmə", "Butalı" kimi tanınan dekorativ kompozisiyalarla bəzəyib. Rəssam eyni kompozisiyalardan ornamental xalçalarda da istifadə edib. Belə ki, ümumilli lider Heydər Əliyevin (1980), İmadəddin Nəsiminin (1973), Mirzə Fətəli Axundovun (1978), Heydər Əliyevin, Şota Rustavelinin (1981), İndira Qandinin (1985) portretləri olan xalçalarda rast gələnən "İslimibəndlik" kompozisiyasına üstünlük vermişdir).



Mustafa Kamal Atatürkün portreti, 1996-cı il.

Kamil Əliyev xalçalarındakı rəng həllindən bəhs etdikdə isə, tədqiqat zamanı məlum olur ki, o öz emalatxanasında xalçalarının ipliklərini özü boyayırdı. Bunu edərkən o, ənənəvi təbii boyalardan istifadə edib. Tonları və yarım tonları çatdırmaq üçün Əliyev yüksək keyfiyyətli yundan xüsusi nazik qoşa sapdan istifadə edib. Rəssam bu sapların uclarını səkkiz hissəyə ayırıb. Beləliklə, xalçanın səthində zərif rəng keçidləri əldə edilmişdir. Bu yanaşma Kamil Əliyevin portret xalçalarının bədii keyfiyyətlərini təkmilləşdirmişdir.

## ƏDƏBİYYAT

1. Esmira Ş. Azərbaycan xalça sənətinin Kamili. Bakı: Altun kitab, 128 s., 2016.
2. Xəlilzadə F. Ömrün min bir naxışı. “Azərbaycan” qəz., 2011, 21 oktyabr.
3. http://www.azerbaijan-news.az/index.php

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: turkanq30@gmail.com***

**Turkan Guliyeva**

## AN OVERVIEW OF KAMIL ALIYEV'S WORKS

This study tells about the works of Kamil Aliyev, who made an essential contribution to the development of the art of carpet weaving in Azerbaijan. Kamil Aliyev, with his creativity, raised the Azerbaijani folk decorative-applied art to the necessary levels, preserved the secrets of carpet art, and further enriched its flavors. He is an outstanding artist who creates colorful national patterns, different shades of color, different compositions, and plots on his carpets. Kamil Aliyev is known as the author of portrait carpets. The artist has created a series of paintings dedicated to many famous people. Kamil Aliyev's primary service is the creation of the realist portrait genre in Azerbaijani carpet weaving.

**Keywords:** *national pattern, arts and crafts, pattern, composition, tone.*

**Туркан Гулиева**

## ОБЗОР ТВОРЧЕСТВА КЯМИЛЯ АЛИЕВА

Это исследование рассказывает о Кямиле Алиеве и его творчестве, внесшем важный вклад в развитие искусства ковроткачества в Азербайджане. Кямиль Алиев своим творчеством поднял азербайджанское народное декоративно-прикладное искусство на необходимый уровень, сохранил секреты искусства ковроткачества и еще больше обогатил его орнаменты. Он выдающийся художник, создающий красочные национальные узоры, различные оттенки цвета, разные композиции и сюжеты на своих коврах. Кямиль Алиев известен как автор портретных ковров. Художник создал целую серию картин, посвященных многим известным людям. Основная заслуга Кямиля Алиева – использование им реалистического портретного жанра в азербайджанском ковроткачестве.

**Ключевые слова:** *национальный орнамент, декоративно-прикладное искусство, образец, композиция, тон.*

## MÜNDƏRİCAT

**İsmayıl Hacıyev.** Mədəniyyət tariximizdə mühüm rol oynayan görkəmli xalçaçı-rəssam........................................................................................6

**Elbrus İsayev.** Xalq rəssamı, professor Kamil Əliyevin təşkilati fəaliyyəti....10

**Ülviyyə Həmzəyeva.** Kamil Əliyev yaradıcılığında siyasi portret janrı...........18

**Hüseynqulu Əliyev.** Azərbaycan xalça rəssamlığı sənətində Kamil Əliyev dəsti-xətti.................................................................................................24

**Həbibə Allahverdiyeva.** Kamil Əliyev yaradıcılığında obrazlılıq və kolorit məsələləri.................................................................................................28

**Sara Hacıyeva.** Kamil Əliyev yaradıcılığında Nəsimi obrazı.........................33

**Gülnarə Qənbərova.** Azərbaycanın portret xalçalarının yaradılmasında xalçaçı rəssam Kamil Əliyevin rolu.................................................................38

**Cavid İsmayılov.** Kamil Əliyev yaradıcılığının bədii xüsusiyyətləri..............47

**Toğrul Cəfərli.** Böyük dühа Heydər Əliyevin bədii obrazı Xalq rəssamı Kamil Əliyevin yaradıcılığında.......................................................................54

**Ləman Məmmədova.** Xalçaya yeni nəfəs gətirən sənətkar Kamil Əliyev yaradıcılığının innovativ xüsusiyyəti..............................................................62

**Həbib Allahverdiyev.** Naxışlarda əbədiləşən ömür........................................67

**Mirsəlim Eminov.** Kamil Əliyevin yaradıcılığında Təbriz xalça məktəbinin naxışları...........................................................................................73

**Səyyarə Sadıxova.** Azərbaycanın Xalq rəssamı Kamil Əliyevin xalça çeşnilərində milli naxış elementləri.....................................................................77

**Rübabə İmanlı.** Kamil Əliyev yaradıcılığında milli naxışlar..........................82

**Toğrul Əsgərov.** Portret-xalça sənətinin mahir ustadı: Xalq rəssamı Kamil Əliyev.......................................................................................................86

**Əzizə Məmmədova.** Kamil Əliyev yaradıcılığında görkəmli şəxsiyyətlərin obrazı.......................................................................................................91

**Ülviyyə Məmmədova.** Azərbaycan xalça sənətinin kamillik zirvəsində........98

**Türkan Quliyeva.** Kamil Əliyev yaradıcılığına ümumi baxış......................104

## CONTENS

**Ismayil Hajiyev.** A prominent carpet-maker artist who plays an essential role in the history of our culture…...........................................................…6

**Elbrus Isayev.** Organizational activities of people's artist, professor Kamil Aliyev…......................................................................................................10

**Ulviya Khamzaeva.** Genre of political portrait in the works of Kamil Aliyev..18

**Husseingulu Aliyev.** The style of Kamil Aliyev in the Azerbaijani art of carpet painting…...............................................................................................24

**Habiba Allahverdiyeva.** Figurative and color solutions in the works of Kamil Aliyev…..................................................................................................28

**Sara Hajiyeva.** Nasimi image in the works of Kamil Aliyev…......................33

**Gulnara Ganbarova.** The role of the carpet-maker Kamil Aliyev in the creation of portrait carpets of Azerbaijan……..............................................38

**Javid Ismayilov.** Artistic features of Kamil Aliyev's works……....................47

**Togrul Jafarli.** Artistic image of the great genius Heydar Aliyev in the work of people's artist Kamil Aliyev…................................................................54

**Laman Mammadova.** Innovative feature of creativity of artist Kamil Aliyev, who has brought new breath to carpet…..........................................…62

**Habib Allahverdiyev.** Eternal life in patterns…............................................67

**Mirsalim Eminov.** Patterns of Tabriz carpet school in the works of Kamil Aliyev.........................................................................................................73

**Sayyara Sadykhova.** Elements of national patterns in the carpet ornaments of Kamil Aliyev, the Azerbaijani people's artist……......................................77

**Rubaba Imanli.** National patterns in the works of Kamil Aliyev…................82

**Togrul Asgarov.** Master of portrait and carpet art: people's artist Kamil Aliyev…....................................................................................................86

**Aziza Mammadova.** Images of prominent figures in Kamil Aliyev's works....91

**Ulviya Mammadova.** At the perfection top of the Azerbaijan's carpet art.....98

**Turkan Guliyeva.** An overview of Kamil Aliyev's works…........................104

**СОДЕРЖАНИЕ**


**Исмаил Гаджиев.** Видный художник-ковродел, играющий важную роль в истории нашей культуры....6

**Эльбрус Исаев.** Организационная деятельность народного художника, профессора Кямиля Алиева....10

**Ульвия Хамзаева.** Жанр политического портрета в творчестве Кямиля Алиева....18

**Гусейнгулу Алиев.** Стиль Кямиля Алиева в азербайджанском искусстве ковровой живописи....26

**Габиба Аллахвердиева.** Образные и колористические решения в творчестве Камиля Алиева....31

**Сара Гаджиева.** Образ Насими в творчестве Кямиля Алиева....33

**Гульнара Ганбарова.** Роль художника-ковродела Кямиля Алиева в создании портретных ковров Азербайджана....38

**Джавид Исмаилов.** Художественные особенности творчества Кямиля Алиева....47

**Тогрул Джафарли.** Художественный образ великого гения Гейдара Алиева в творчестве народного художника Кямиля Алиева....54

**Ляман Мамедова.** Инновационная особенность творчества художника Кямиля Алиева, давшего новое дыхание ковру....62

**Габиб Аллахвердиев.** Жизнь, увековеченная в узорах....67

**Мирсалим Эминов.** Узоры Тебризской школы ковроткачества в творчестве Кямиля Алиева....73

**Сайяра Садыхова.** Элементы национальных узоров в орнаменте ковров народного художника Азербайджана Кямиля Алиева....77

**Рубаба Иманлы.** Национальные узоры в творчестве Кямиля Алиева....82

**Тогрул Аскеров.** Мастер портретно-коврового искусства: народный художник Кямиль Алиев....86

**Азиза Мамедова.** Образы выдающихся личностей в творчестве Кямиля Алиева....91

**Ульвия Мамедова.** На вершине совершенства коврового искусства Азербайджана....98

**Туркан Гулиева.** Обзор творчества Кямиля Алиева....104

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət meyarlarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr iki dildə – Azərbaycan və rus dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompüterdə, A4 formatlı ağ kağızda, “12” ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə “defislə” keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və Azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, CD-də jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin ortasında “12” ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. 1 sətir boş buraxılmaqla aşağıda “12” ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə “10” ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır. Daha sonra müəllifin işlədiyi təşkilatın adı, elmi dərəcəsi və e-mail ünvanı, “12” ölçülü kiçik hərflərlə qalın və kursivlə ədəbiyyat siyahısından sonra sağdan yazılır. (məs.: AMEA Naxçıvan Bölməsi; e-mail: tusinesr@gmail.com).
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl “12” ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. “Ədəbiyyat” sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. İstifadə edilən mənbələrin sayı 15-dən çox olmamalıdır. Məs.:
Kitablar: Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
Kitab məqalələri: Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
Jurnal məqalələri: Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı “12” ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-8 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, əlaqə telefonu) mütləq əlavə olunmalıdır.
15. Məqalənin məzmununa əsaslanan UOT kodu yuxarı sol tərəfdən mütləq qeyd olunmalıdır.
16. Təqdim olunan məqalə üçün müəlliflər antiplagiat arayışı təqdim etməlidirlər.

**QEYD:** *AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və “Tusi” nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.*

## INFORMATION FOR AUTHORS

1. The primary purpose of this journal is to publish original scientific papers that meet scientific criteria.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in two languages – Azerbaijani and Russian. In addition to the language of a paper, an abstract should be provided in two other languages; keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size “12”, page parameters 2 cm above, 2 cm below, 3 cm on the left, 1 cm on the right, without hyphenation, the interval of 1.5, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the center of the page, font size “12”.
9. Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size “12”. Then there is abstract including keywords in the language of the paper, font size “10”, italics. The organization name, the author’s scientific degree, the email address should be written below the references in lowercase letters, font size “12”, bold italics (for example, Nakhchivan branch of ANAS; Email: tusinesr@gmail.com).
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, following the encoding rules, in alphabetical order, the font size “12’. The word “references” in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. The used sources must not be more than 15. Eg.:
Books: Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.
Book papers: Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.
Journal papers: Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, № 1, p. 74-79.
11. In the abstract, the author’s name and surname are indicated in lowercase letters in bold font, size “12”; the title of the paper is capitalized in bold; the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results should be reported in detail.
12. The links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper, including graphic materials, photographs, tables, formulas, references, and reviews, should not exceed 5-8 pages.
14. Authors’ data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree, academic title, address, email address, work, and home phone numbers).
15. A paper’s code based on UDC should be indicated on the left.
16. Authors must provide Antiplagiat certificates for submitted papers.

**NOTE:** *Considering the large number of papers submitted to the “Scientific works” journal of the Nakhchivan Brunch of ANAS, and the limited capabilities of the “Tusi” Publishing house, it is assumed that only one paper of each author can be published in one issue.*

## К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соответствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Желательно, чтобы число соавторов не превышало трех.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть представлены на двух языках – азербайджанском и русском. Резюме и ключевые слова необходимо представить на двух других языках.
7. Статьи представляют в редакцию журнала в печатном виде, в электронной форме (CD), на бумаге формата А4, шрифт Times New Roman, кегль шрифта 12 пт, параметры страницы: верхнее поле – 2 см, нижнее – 2 см левое – 3 см, правое – 1 см, без переносов, межстрочный интервал – 1,5. Поля страниц для рисунков и таблиц внутри текста слева и справа должны быть по 3,7 см.
8. По центру страницы, кеглем 12 пт, жирным шрифтом и заглавными буквами указывается имя и фамилия автора (авторов).
9. После одной пустой строки указывается название статьи заглавными буквами, кегль шрифта 12 пт. Затем приводится аннотация с ключевыми словами на языке статьи (кегль шрифта – 10 пт, курсив). Название организации, ученая степень и адрес электронной почты автора указываются обычными строчными буквами, жирным курсивом, кегль шрифта 12 пт, справа после списка источников (например: Нахчыванское отделение НАНА; E-mail: tusinesr@gmail.com)
10. Следует указать ссылки на научные источники по данному предмету. Список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, кегль шрифта 12 пт. Слово "Литература" пишется посередине страницы, заглавными буквами и жирным шрифтом. Список литературы приводится строчными буквами на языке публикации приведенного издания, в количестве не более 15. Напр.:
Книги: Гасымов В.И. Древние памятники. Баку: Ишыг, 1992, 321 с.
Книжные статьи: Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в итории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи: Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Известия Нахчыванского отделения НАНА, 2005, № 1, с. 74-79.
11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом кеглем 12 пт, название статьи – заглавными буквами жирным шрифтом, само резюме строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи с подробным представлением полученных результатов.
12. Ссылки должны быть представлены в тексте в виде [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-8 страниц.
14. Обязательно указываются данные об авторах (фамилия, имя, отчество, место работы, должность, ученая степень и звание, адрес, адрес электронной почты, контактный номер).
15. Необходимо указать УДК статьи слева в верхней части.
16. Авторы должны предоставить сертификат Антиплагиат на присланную статью.

**ПРИМЕЧАНИЕ:** *Принимая во внимание большое количество статей, представленных в журнал "Научные труды" Нахчыванского отделения НАНА и ограниченные возможности издательства "Туси", в одном номере может быть опубликована только одна статья каждого автора.*

**AMEA Naxçıvan Bölməsinin elmi nəşri**
**Xüsusi nömrə**

**Baş redaktor** – Zülfiyyə Məmmədli
**Redaktor** – Sara Cəfərova
**Korrektor** – Yelena Muxtarova
**Operatorlar** – İlhamə Əliyeva,
– Aynur Təhməzova,
– Taleh Maxsudov

Yığılmağa verilmişdir: 03.02.2022
Çapa imzalanmışdır: 27.02.2022
Kağız formatı: 70 x 108 1/16
7,2 çap vərəqi. 116 səhifə
Sifariş № 165. Tiraj: 150

**AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.**
**Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.**
**E-mail: tusinesr@gmail.com**